Azərbaycan Turizm və Menecment Universiteti

Azerbaijan Tourism and Management University

Turizm

və

qonaqpərvərlik tədqiqatları

Beynəlxalq jurnal

Tourism

and

Hospitality Studies

International journal

Turizm və qonaqpərvərlik tədqiqatları
"BİROL GROUP" MMC, Bakı, 2024, 120 səh.
ISSN 2409-6032 / *E-ISSN -2959-8389*
DOI 10.61226

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 05.12.2011-ci il tarixli 3507 № ilə qeydiyyata alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə **İqtisad elmləri, Tarix elmləri** və **Sənətşünaslıq üzrə** (6219.01-*Kulturologiya və onun ümumi məsələləri;* 6220.01-*Muzeyşünaslıq*) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlərin siyahısı"na daxil edilmişdir.

Tourism and Hospitality Studies
BİROL GROUP" LLC, Baku, 2024, 120 p.
ISSN 2409-6032/ *E-ISSN -2959-8389*
DOI 10.61226

The journal was registered at the Ministry of Justice of the Republic of Azerbaijan by Minutes № 3507 dated 05.12.2011 and included in the list of periodical scientific publications where the main results of the theses on **Economic Sciences, History Sciences** and **Cultural Studies** (6219.01-*Cultural Studies and its general issues*; 6220.01-*Museum Study*) are recommended to be published by the decision dated May 16, 2014 (Minutes № 07-R) of the Board of Supreme Attestation Commission attached to the President of Azerbaijan.

Turizm və qonaqpərvərlik tədqiqatları
Tourism and Hospitality Studies
Beynəlxalq jurnal/International journal
İl 13, Say 1, 2024/ Volume 13, Number 1, 2024
ISSN 2409-6032,
E-ISSN -2959-8389
DOI 10.61226

Redaksiya Şurası	**Editorial board**
Fuad Nağıyev *Redaksiya şurasının sədri*	Fuad Nagiyev *Chairman of Editorial board*
İlham Mədətov *Baş redaktor*	Ilham Madatov *Editor-in-Chief*
İranə Əliyeva *Baş redaktorun müavini*	İrana Aliyeva *Deputy Editor-in-Chief*

Redaksiya Şurasının üzvləri	**Editorial board members**
Zaur Bağırov	Zaur Bagirov
Nəsirulla Nəsirli	Nasirulla Nasirli
Bahadur Bilalov	Bahadur Bilalov
Kənan Allahverdiyev	Kanan Allahverdiyev
Hafiz Hüseynov	Hafiz Huseynov
Cənnətxan Eyvazov	Jannatkhan Eyvazov
Əli Əlirzayev	Ali Alirzayev
Rəna Sultanova	Rana Sultanova
Vüqar Nəzərov	Vugar Nazarov
Novruz Quliyev	Novruz Guliyev
Həbibə Sultanova	Habiba Sultanova
Məhərrəm Zülfüqarlı	Maharram Zulfugarli
Kərim Şükürov	Karim Shukurov
Əliağa Məmmədli	Aliaga Mammadli
Minaxanım Əsədova	Minakhanim Asadova
Sabirə Dünyamalıyeva	Sabira Dunyamaliyeva
Günay Qafarova	Gunay Gafarova

Əcnəbi üzvlər

Cəfər Cəfəri (ABŞ)
Eva Verner (Avstriya)
Ömər Baybars Tek (Türkiyə)
Mustafa Tanyeri (Türkiyə)
İkbal Aksulu (Türkiyə)
Bülent Himmetoğlu (Türkiyə)
Hilmi Yüksel(Türkiyə)
Uve Veithöner(Almaniya)
Vladimir Şalayev(Rusiya)
Alberto Romero-Ania
(İspaniya)

Foreign members:
Jafar Jafari (USA)
Eva Werner (Austria)
Omer Baybars Tek (Turkey)
Mustafa Tanyeri (Turkey)
Ikbal Aksulu (Turkey)
Bulent Himmetoglu (Turkey)
Hilmi Yuksel (Turkey)
Uwe Weithoner (Germany)
Vladimir Shalayev (Russia)
Alberto Romero-Ania (Spain)

MÜNDƏRİCAT

Şəmşad ƏLİZADƏ, Nicat NOVRUZOV
AZƏRBAYCANDA TURİZM SEKTORUNUN İNKİŞAFININ MALİYYƏ PROQNOZLAŞDIRILMASI PROBLEMLƏRİ…….....7

Orxan ƏLİLİ
TURİZMƏ ƏSASLANAN İQTİSADİ ARTIM NƏZƏRİYYƏSİNİN XƏTTİLİYİNİN DİNAMİK PANEL HƏDD MODELİ İLƏ ANALİZİ……...…..17

Şahnaz BAXIŞOVA
TEXNOLOJİ İNNOVASİYALARIN TURİZM MÜƏSSİSƏLƏRİNƏ TƏSİRİ.....26

Əlirza ABDULLAYEV
BEYNƏLXALQ TURİST AXINLARININ DAYANIQLI İNKİŞAFDA MƏŞĞULLUĞA TƏSİRİ…….....32

Nəsrin ƏLİYEVA
MÜƏSSİSƏLƏRİN DİVERSİFİKASİYA FƏALİYYƏTİNİN MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ…….44

Saqib MƏMMƏDOV
DAYANIQLI TURİZM: İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİNƏ YÖNƏLƏN STRATEGİYANIN ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ…...52

Sara HÜSEYNOVA, Telman HACIZADƏ
DÜNYA PRAKTİKASINDA BANKLARIN MALİYYƏ SABİTLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MODELLƏRİNİN TƏHLİLİ ……60

Həqiqət MEHDİYEVA, Lalə AMANOVA
SƏNAYE DİZAYNININ MÜƏSSİSƏ MƏHSULLARININ RƏQABƏT QABİLİYYƏTLİLİYİNİN ARTIRILMASINA TƏSİRİ…….70

Məhərrəm ZÜLFÜQARLI
BMT TƏHLÜKƏSİZLİK ŞURASININ 4 QƏTNAMƏSİNİN İCRA OLUNMAMASININ ƏSAS SƏBƏBİ (822 SAYLI 30. IV.1993, 853 SAYLI 29 VII 1993-CÜ İL, 874 SAYLI 14 X.1993, 884 SAYLI 12 XI 1993)
(FAKTLARIN TƏNQİDİ TƏHLİLİ)……..……81

Maqsud QULİYEV
TÜRKDİLLİ DÖVLƏTLƏRİN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN TƏHLİLİ…….……..93

Əli FƏRHADOV
MİRABBAS MİRBAĞIRZADƏNİN YARADICILIĞINDA TÜRK-İSLAM MƏDƏNİYYƏTİNƏ DAİR……...……105

CONTENTS

Shamshad ALİZADE, Nijat NOVRUZOV
PROBLEMS OF FINANCIAL FORECASTING FOR THE DEVELOPMENT OF THE TOURISM SECTOR IN AZERBAIJAN…….…….7

Orkhan ALILI
AN EXAMINATION OF LINEARITY OF THE TOURISM-BASED ECONOMIC DEVELOPMENT HYPOTHESIS USING THE DYNAMIC PANEL THRESHOLD MODEL……..……..17

Shahnaz BAKHISHOVA
THE AFFECT OF TECHNOLOGICAL INNOVATIONS ON TOURISM ESTABLISHMENTS……..…….26

Alirza ABDULLAYEV
IMPACT OF INTERNATIONAL TOURIST FLOWS ON EMPLOYMENT IN SUSTAINABLE DEVELOPMENT……32

Nasrin ALIYEVA
UNVEILING THE ESSENCE AND SIGNIFICANCE OF ENTERPRISE DIVERSIFICATION……44

Sagib MAMMADOV
SUSTAINABLE TOURISM: AS ONE OF THE MAIN DIRECTIONS OF ECONOMIC DIVERSIFICATION STRATEGY.....52

Sara HUSEYNOVA, Telman HAJIZADA
ANALYSIS OF MODELS FOR ASSESSING THE FINANCIAL STABILITY OF BANKS IN WORLD PRACTICE 60

Hagigat MEHDIYEVA, Lala AMANOVA
THE INFLUENCE OF INDUSTRIAL DESIGN ON INCREASING THE COMPETITIVENESS OF ENTERPRISE PRODUCTS…….70

Maharram ZULFUGARLI
THE MAIN REASON FOR FAILURE TO COMPLY WITH 4 UN SECURITY COUNCIL RESOLUTIONS (No. 822 30.IV.1993, No. 853 29 VII. 1993, No 874 14 October 1993, No. 884 12 November 1993 (CRITICAL ANALYSIS OF FACTS))..81

Magsud GULIYEV
ANALYSIS OF FOREIGN TRADE RELATIONS OF TURKISH SPEAKING COUNTRIES.....93

Ali FARHADOV
ABOUT TURKIC-ISLAMIC CULTURE IN THE WORKS OF MIRABBAS MIRBAGIRZADEH …….……105

DOI: doi.org/10.61226/12.2.2023/20241.1
UOT: 613
Şəmşad ƏLİZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, iqtisad üzrə fəlsəfə doktoru
Shamo.88@mail.ru
https://orcid.org/0000 0003 2284 3693

Nicat NOVRUZOV
Azərbaycan Turizm və Menecment Universiteti, müəllim
nicat.novruzov@atmu.edu.az
https://orcid.org/0000-0002-7636-0112

AZƏRBAYCANDA TURİZM SEKTORUNUN İNKİŞAFININ MALİYYƏ PROQNOZLAŞDIRILMASI PROBLEMLƏRİ

Xülasə: Turizm sektorunun əhəmiyyəti nəinki bir çox ölkələrdə, hətta Azərbaycanda da müşahidə edilir. Bu səbəbdən müasir dövrdə Azərbaycanın da turizm sektorunun inkişaf etdiyi ölkələr sırasında olduğunu vurğulaya bilərik. Qeyd etmək olar ki, hazırda Azərbaycanda meşə, dağ, macəra, dəniz və s. turizm növləri geniş inkişaf etmişdir.

Hal-hazırda ən vacib məsələlərdən biri Azərbaycanda turizm sektorunun maliyyə proqnozlaşdırılması məsələsidir. Turizm sektorunda maliyyə proqnozlaşdırılması dedikdə, turizm müəssisələrinin yaxın gələcəkdə maliyyə vəziyyətinin dəyişdirilməsi, o cümlədən bu istiqamətdə müəyyən xərclərin maliyyələşdirilməsi üzrə maliyyə strategiyasının əsas istiqamətlərini özündə əks etdirən fəaliyyət başa düşülür. Turizm sektorunun maliyyələşdirilməsində və onun inkişafının təmin edilməsində maliyyə proqnozlaşdırılması böyük əhəmiyyətə malikdir. Bu istiqamətdə ortaya çıxan problemlərin aradan qaldırılması aktual məsələlərdən biri hesab olunur.

Açar sözlər: turizm sektoru, maliyyələşdirilmə, maliyyə proqnozlaşdırılması, Azərbaycan, maliyyə resursları

Shamshad ALİZADE, Nijat NOVRUZOV

PROBLEMS OF FINANCIAL FORECASTING FOR THE DEVELOPMENT OF THE TOURISM SECTOR IN AZERBAIJAN

Abstract: The importance of the tourism sector is observed not only in many countries, but also in Azerbaijan. For this reason, it can be noted that in modern times Azerbaijan is one of the countries where the tourism sector is developing. We can note that, forest, mountain, adventure and sea tourism is developing in Azerbaijan currently.

Now one of the most important issues is the issue of financial forecasting of the tourism sector of Azerbaijan. Financial forecasting in the field of tourism means activities that reflect the main directions of the financial strategy to change the financial situation of tourism enterprises in the near future, as well as the financing of certain expenses in this direction. Financial forecasting has great importance in financing the tourism sector and ensuring its development. Eliminating problems arising in this direction is considered one of the actual issues.

Keywords: tourism sector, financing, financial forecasting, Azerbaijan, financial resources

Шамшад АЛИЗАДЕ, Ниджат НОВРУЗОВ

ПРОБЛЕМЫ ФИНАНСОВОГО ПРОГНОЗИРОВАНИЯ РАЗВИТИЯ ТУРИСТИЧЕСКОГО СЕКТОРА В АЗЕРБАЙДЖАНЕ

Абстракт: Важность туристического сектора наблюдается не только во многих странах, но и в Азербайджане. По этой причине можно отметить, что в современное время Азербайджан входит в число стран, где развивается туристический сектор. В настоящее время в Азербайджане развивается лесной, горный, приключенческий и морской туризм.

В настоящее время одним из важнейших вопросов является вопрос финансового прогнозирования туристического сектора Азербайджана. Финансовый прогнозирование в сфере туризма это означает деятельность, отражающую основные направления финансовой стратегии по изменению финансового положения туристических предприятий в ближайшем будущем, а также финансирование определенных расходов в этом направлении. Финансовое прогнозирование имеет большое значение в финансировании туристической сферы и обеспечении ее развития. Устранение проблем, возникающих в этом направлении, считается одним из актуальных вопросов.

Ключевые слова: туристический сектор, финансирование, финансовое прогнозирование, Азербайджан, финансовые ресурсы

Giriş

Hal-hazırda dünyanın bir sıra ölkəsində turizm iqtisadiyyatın aparıcı sektorlarından biri hesab olunur. Eyni sözləri Azərbaycanın turizm sektoru haqqında da söyləmək olar. Belə ki, Azərbaycanda turizm sektorunun inkişafı dövlətin qarşıya qoyduğu makroiqtisadi hədəflərdən biridir. Beynəlxalq təcrübə göstərir ki, turizmin inkişaf etdiyi ölkələrdə dövlət və əhali gəlirlərinin təxminən 30%-ə qədəri məhz bu fəaliyyətin payına düşür.

Ümumiyyətlə turizm sektorunun vacibliyini bir neçə səbəbdən izah etmək mümkündür. İlk olaraq qeyd etmək olar ki, turizmin sosial-iqtisadi inkişafı ölkə əhalisinin həyat səviyyəsinin yüksəlməsinə və rifah halının yaxşılaşmasına səbəb olur.

İkincisi turizm sektorunun inkişafı ölkə iqtisadiyyatının inkişafına təkan verir. Üçüncüsü isə turizm sektorunun inkişafı bir çox makroiqtisadi

göstəricilərin yüksəlməsinə səbəb olur ki, bu da iqtisadi artımın təmin olunması anlamına gəlir.

Qeyd edək ki, hər bir iqtisadi sektorun inkişafının təmin olunması zamanı müəyyən problemlər üzə çıxır. Burada əsas məsələ həmin problemləri vaxtında müəyyən etmək və onları aradan qaldırmaqdan ibarətdir. Azərbaycanda turizm sektorunun inkişaf etdirilməsi dövlətin hədəflədiyi prioritet məsələlərdən biri olsa da, burada da müəyyən problemlər ortaya çıxır. Bu problemlərdən biri turizm sektorunun maliyyə proqnozlaşdırılması problemidir. Turizm sektorunda maliyyə proqnozlaşdırılması, hər şeydən əvvəl, turizm müəssisələrinin maliyyə fəaliyyətində xüsusi əhəmiyyət kəsb edən fəaliyyət olaraq, maliyyə göstəricilərinin inkişaf parametrlərinin işlənib hazırlanmasını əks etdirir. Bu baxımdan hər bir turizm müəssisəsinin maliyyə proqnozlaşdırılması bütövlükdə turizm sektorunun maliyyələşdirilməsində əhəmiyyətli rol oynayır.

Azərbaycanda turizm sektorunun əhəmiyyətini nəzərə alaraq, xüsusilə qeyd etmək olar ki, bu sektorun inkişafını təmin etmək məqsədi ilə maliyyə proqnozlaşdırılması sahəsində ortaya çıxan problemləri aradan qaldıraraq, onun effkektivliyini təmin etmək aktual məsələlərdən biri hesab olunur.

1.1. Azərbaycanda turizm sektorunun maliyyələşdirilməsinin müasir vəziyyəti

Azərbaycan turizm sektorunun inkişaf etdiyi ölkələrdən biridir. Bu reallığı Azərbaycanın zəngin mədəniyyəti, əlverişli coğrafi mövqeyi, gözəl iqlimi, Azərbaycan xalqının qonaqpərvərliyi və digər amillər sübut edir. Azərbaycanda turizm sektorunun effektiv inkişafı iqtisadiyyatın investisiya fəaliyyətinin aktivləşdiyi, yeni iş yerlərinin açıldığı, vəsaitlərin dövriyyəsinin genişləndiyi iqtisadiyyatın digər sahələrinə də böyük təsir göstərir. Elə bu səbəbdən turizm sektorunun inkişafı iqtisadiyyatın sosial və iqtisadi cəhətdən inkişafı ilə nəticələnir [3, s.11]. Turizm sektorunun inkişafının təmin edilməsi müasir dövrdə Azərbaycanda dövlət səviyyəsində qarşıya qoyulan makroiqtisadi hədəflərdən biridir. Turizm sektorunun gələcəkdə dinamik sürətlə inkişafı dövlət gəlirlərinin artmasına imkan yarada bilər [6].

Ümumiyyətlə turizm sektorunun inkişafının təmin edilməsi məqsədilə maliyyələşdirilməsi bir neçə mənbədən ibarət ola bilər. Biz buraya, turizm müəsssiələrinin şəxsi kapitalını, onların sərəncamında qalan xalis mənfəəti, banklardan, eləcə də bank olmayan kredit təşkilatlarından cəlb edilmiş kreditləri, turizm fəaliyyəti nəticəsində turistlərin etdikləri ödənişləri, o cümlədən dövlət orqanlarının nəzarəti altında ayrılmış dotasiyaları aid edə bilərik [5, s.25]. Turizm sektorunun maliyyələşdirilməsində əsas məsələlərdən biri bu məsələyə yanaşmadır. Ümumiyyətlə turizm sektorunun maliyyələşdirilməsində biz 2 cür yanaşmanı qeyd edə bilərik. Bunlardan biri turizm sektorunun maliyyələşdirilməsinə makro yanaşma digəri isə mikro yanaşmadır. Turizm sektorunun maliyyələşdirilməsinə makro yanaşma özündə investisiya mühitini, ərzaq təhlükəsizliyini, biznes mühitini, təhlükəsizlik konsepsiyasını, turizmin ayrı-ayrı regionlar üzrə yerləşmə cəhətlərini, o cümlədən turizmin inkişafını təmin edə biləcək qanunvericilik bazasının təkmilləşdirilməsini, həm də təbii coğrafi mühitin əsas xarakterik cəhətlərinin

müəyyən edilməsini, onun əsas üstünlüklərinin üzə çıxarılmasını və təbii coğrafi şəraitdən və mövcud təbii coğrafi resurslardan səmərəli istifadə edilməsini özündə əks etdirir [3, s.109].

Turizm sektorunun maliyyələşdirilməsinə mikro yanaşma isə bu sektorun başlıca problemlərinin aşkar edilməsi, başqa bir ifadə ilə qeyd etsək problemlərin planlaşdırılmasının reallaşdırılması və bu problemlərin aradan qaldırılması sahəsində maliyyə proqnozlaşdırılmasının həyata keçirilməsini əks etdirir. Burada əsas məsələ biznes-planların tərtib olunması və onların dəqiqliyinin müəyyən olunmasıdır [3, s.110]. Ancaq qeyd etmək lazımdır ki, turizm sektorunun inkişafında əsas məsələlərdən biri onun effektiv maliyyələşdirilməsi məsələsidir. Hal-hazırda demək olar ki, bütün ölkələrdə turizm sektorunun cəlbediciliyini yüksəldən əsas amillərdən biri onun effektiv maliyyələşdirilməsi hesab olunur. Turizm sektorunun effektiv maliyyələşdirilməsi onun inkişafı üçün zəruri sayılan maliyyə resursları ilə tam və vaxtında təmin edilməsi kimi başa düşülür. Bu baxımdan maliyyə resurslarının vaxtında və tam şəkildə səfərbər edilməsi Azərbaycanda da turizm sektorunun maliyyələşdirilməsində başlıca amillərdən biri sayılır. Turizm sektorunun maliyyələşdirilməsində biz əsas 2 amili qeyd edə bilərik. Bu amillərdən biri turizm sektorunun maliyyələşdirilməsinin dövlət tərəfindən yerinə yetirilməsi, digəri isə bu maliyyələşdirilmənin turizm müəssisələrinin maliyyə resursları hesabına təmin edilməsidir. Turizm müəssisələrinin maliyyə resurslarını aşağıdakı cədvəldən görə bilərik.

Cədvəl 1. Turizm müəssisələrinin maliyyə resursları

Maliyyə resursları	**Maliyyə resurslarının mənbəyi**
Amortizasiya	Mənfəət
Xalis mənfəət	Gəlirlər-Xərclər
Turizm xidmətlərinin göstərilməsindən mənfəət	Turizm xidmətlərinin göstərilməsindən gəlirlər-xərclər
Bank kreditləri	Banklar və kredit təşkilatları
Ehtiyat fondu	Xalis mənfəət
Fəaliyyətdən kənar mənfəət	Fəaliyyətdən kənar gəlirlər-xərclər
Büdcədən ayırmalar və büdcədənkənar fondlardan daxilolmalar.	Büdcə maliyyələsdirilməsi və büdcədənkənar fondların aktivləri

Mənbə: [2] AR DSK. Müstəqil Azərbaycan 2018. Bakı, 2011.640 s

Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da turizm sektorunun maliyyələşdirilməsində dövlət dəstəyi mühüm əhəmiyyət kəsb edir. Turizm sektorunun maliyyələşdirilməsinin dövlət dəstəyi ilk növbədə onun regional

miqyasda aktivləşdirilməsinin mümkünlüyünün qiymətləndirilməsinə əsaslanmalıdır.

Turizm sektorunun dövlət səviyyəsində prioritetliyini nəzərə alaraq qeyd etmək olar ki, bu sekorun dövlət tərəfindən maliyyələşdirilməsi ilə birgə onun inkişafının təmin olunması məqsədilə müəyyən güzəştlərin tətbiq olunması faydalı ola bilər. Məsələn bir çox turizm müəssisələrinə vergi güzəştlərinin tətbiq edilməsi, aşağı faizli uzunmüddətli sahibkarlıq kreditlərinin banklar tərəfindən verilməsinin təmin edilməsi, dövlət subsidiyalarının bu sektora yönəldilməsi turizm sektorunun inkişafını təmin edə bilər. Ancaq hazırda bazar iqtisadiyatı şəraitində maliyyə resurslarının məhdud olmasına görə maliyyələşdirilmə prosesləri həm dövlət, həm də korporativ səviyyədə müvafiq idarəetmə və tənzimləmə tələb edir.

Azərbaycan Respublikası prezidenti cənab İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli sərəncamı ilə qəbul edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"-nə əsasən ümumilikdə turizm şirkətlərinin maliyyələşdirmə formalarına büdcədənkənar təxsisatlar, sahibkarlığın inkişaf fondunun vəsaitləri, dövlət gəlirləri, bələdiyyə büdcələri, yerli və xarici investisiyalar, qrantlar, bank kreditləri və beynəlxalq maliyyə təşkilatlarının kreditləri aid edilir [1].

Bu gün Azərbaycanda turizm sektorunun inkişaf etdirilməsi dövlətin qarşıya qoyduğu prioritet hədəflərdən biri hesab olunur. Çünki turizm Azərbaycanda ən aparıcı sektorlardan biri olmaqla bir sıra makroiqtisadi göstəricilərin artımında əvəzsiz rol oynayır.

Dünya təcrübəsindən də məlumdur ki, turizm sektorunun inkişafını effektiv maliyyələşdirilmə ilə reallaşdırmaq mümkündür.

Sirr deyil ki, turizm sektorunun maliyyələşdirilməsi Azərbaycanda məşğulluğun təmin edilməsinə, turizm müəssisələrinin rentabelliyinin, ödəmə və rəqabət qabiliyyətinin yüksəlməsinə, iqtisadi artımın təmin edilməsinə səbəb olur. Digər tərəfdən turizm sektorunun doğru zamanda və tam şəkildə maliyyələşdirilməsi bu sektorun cəlbediciliyini yüksəldir ki, bu da xarici investorların məhz turizm sektoruna investisiya qoyma ehtimalını daha da artırır.

Azərbaycanın turizm potensialının yüksək olduğunu nəzərə alaraq vurğulamaq olar ki, bu sektorun effektiv maliyyələşdirilməsi ölkəmizin iqtisadi inkişafını təmin edən mühüm amillərdən biridir. Bu baxımdan Azərbaycan iqtisadiyyatının əsas inkişaf istiqamətlərindən biri olaraq turizmin inkişafına istiqamətlənən maliyyə resurslarının artırılması və bu vəsaitlər hesabına turizm sektorunun iqtisadi inkişafda rolunun yüksəldilməsi dövlətin hədəflədiyi prioritet və aktual məsələlərindən biri hesab olunur [4].

1.2. Azərbaycanda turizm sektorunun inkişafının maliyyə proqnozlaşdırılması problemləri və aradan qaldırılması yolları

Turizm sektorunun maliyyələşdirilməsinin müasir bazar iqtisadiyyatı şəraitində böyük iqtisadi əhəmiyyəti vardır. Maliyyə resurslarının zamanında və tam şəkildə cəlb edilməsi turizm sektorunun maliyyələşdirilməsində əsas amillərdən biri hesab olunur. Turizm inkişaf etdirilməsi vacib sayılan sahələrdən biri olsa da, onun Azərbaycan iqtisadiyyatına müsbət təsiri hələ də

bir sıra ölkələrə nisbətən tam qənaətbəxş hesab olunmur. Bunun bir neçə səbəbini göstərmək mümkündür. Əsas səbəblərdən biri müasir bazar iqtisadiyyatı şəraitində turizm sektorunun maliyyələşdirilməsinin tam şəkildə kifayət etməməsidir. Maliyyə resurslarının tərkibi və strukturu turizm sektorunun effektiv maliyyələşdirilməsinə mane olan səbəblərdəndir. Müasir dövrdə turizm sektorunun maliyyələşdirilməsində investisiyalar əhəmiyyətli rol oynayır. Bu sektorun maliyyələşdirilməsində dövlət investisiyaları ilə yanaşı şəxsi investisiyalar da iştirak edə bilər. Əvvəla onu qeyd edək ki, turizm sektoruna dövlət investisiyasının yönəldilməsi üçün bu sektor dövlət tərəfindən prioritet sayılmalı və inkişafı daim diqqətdə saxlanılmalıdır.

Qeyd etdiyimiz kimi, turizm sektoruna şəxsi investisiyaların yönəldilməsi onun inkişafını təmin edən əsas vasitələrdən biri ola bilər. Turizm sektorunun inkişafının təmin edilməsi məqsədilə buraya şəxsi investisiyaların cəlb edilməsi üçün ilk növbədə turizmin cəlbediciliyi təmin edilməlidir. Təbii ki, bu məsələnin reallaşdırılması üçün dövlətin üzərinə böyük vəzifə düşür. Belə ki, investisiya cəlbediciliyinin yüksəldilməsi məqsədilə dövlət əvvəlcə turizm sektorunda azad rəqabəti inkişaf etdirməlidir. Bundan əlavə turizmin dövlət tərəfindən inkişaf etdirilməsinin zəruriliyini nəzərə alaraq bu sektorda vergi güzəştləri tətbiq olunmalıdır. Bu istiqamətdə dövlət siyasətinin, o cümlədən dövlət proqramlarının işlənib hazırlanması, təkmilləşdiriıməsi və tətbiqi turizm sektorunun investisiya cəlb ediciliyini yüksəldə bilər. Hüquqi və fiziki şəxslər investor kimi müəyyən həcmdə investisiya yatırmaqla, həm gəlir əldə edə, həm də turizm sektorunun inkişafını təmin edə bilər. Çünki investisiyalar maliyyə resursu kimi bir çox sektorlarla yanaşı həm də turizm sektorunun maliyyələşdirilməsində mühüm əhəmiyyətə malikdir. Bu səbəbdən yerli və xarici investorlar turizm sektorunun investisiya maliyyələşdirilməsində mühüm rol oynayır.

Müasir dövrdə turizm sektorunun maliyyələşdirilməsində əsas problemlərdən biri maliyyə proqnozlaşdırılması ilə bağlıdır. Ümumiyyətlə turizm sektorunda maliyyə proqnozlaşdırılması dedikdə, turizm müəssisələrinin yaxın gələcəkdə maliyyə vəziyyətinin dəyişdirilməsi, o cümlədən bu istiqamətdə müəyyən xərclərin maliyyələşdirilməsi üzrə maliyyə strategiyasının əsas istiqamətlərini özündə əks etdirən fəaliyyət başa düşülür. Bazar iqtisadiyyatı şəraitində Azərbaycanda fəaliyyət göstərən turizm müəssisələrində maliyyə proqnozlaşdırılmasının həyata keçirilməsi, o cümlədən onların maliyyə fəaliyyətinin effektiv idarə edilməsi prosesi mühüm əhəmiyyətə malikdir. Digər tərəfdən turizm müəssisələrində maliyyə resurslarından səmərəli şəkildə isifadə edilməsi maliyyə pronqozlaşdırılması ilə sıx bağlıdır. Əvvəla qeyd etmək lazımdır ki, maliyyə proqnozlaşdırılması turizm müəssisələrinin maliyyə fəaliyyətində zəruri fəaliyyət olmaqla, maliyyə göstəricilərinin inkişaf parametrlərinin işlənib hazırlanmasını əks etdirir.

Turizm müəssisənin cari və gələcək fəaliyyətində müflisləşmə təhlükəsinin qarşısının alınması, həm də müəssisənin fəaliyyətinə əlavə kapitalın cəlb edilməsi, bundan əlavə rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından maliyyə proqnozlaşdırılması böyük rol oynayır. Məhdud olan maliyyə resurslarından minimum həcmdə istifadə etməklə yüksək nəticənin əldə edilməsi və ümumilikdə bu prosesə çəkilən xərclər üzrə düzgün

proqnozların hazırlanması maliyyə proqnozlaşdırması prosesinin tərkib hissəsi kimi ortaya çıxır. Turizm müəssisələrində maliyyə proqnozlaşdırılması əsasən onların gələcəkdə istifadə edəcəyi maliyyə resurslarının çatışmazlığı, artıqlığı və buna müvafiq olaraq tələbatlarının müəyyənləşdirilməsi ilə bağlı olur. Müasir dövrdə bir çox müəssisələrlə yanaşı turizm müəssisələrində də maliyyə proqnozlaşdırılması zamanı bir sıra problemlər ortaya çıxır ki, əsasən bu problemlər bir çox hallarda maliyyə resurslarının çatışmazlığı ilə bağlı olur. Ancaq qeyd etmək lazımdır ki, turizm müəssisələrində maliyyə resurslarının çatışmazlığının bir sıra səbəbləri vardır. Biz bu səbəbləri aşağıdakı sxemdən görə bilərik.

Sxem 1. Maliyyə resurslarının çatışmazlığı səbəbləri

Əsas vəsaitlərə böyük həcmli investisiya qoyuluşlarının həyata keçirilməsi
Turizm müəssisələrində qeyri sabit maliyyə vəziyyəti zamanı divident ödənilməsi
Yüksək vergi dərəcələri
Turizm müəssisələrinin fəaliyyətində hesabat ili üzrə gözlənilməyən və keçmiş illər üzrə müəyyən olunan zərərlər
Fəaliyyət zamanı səhmlərin geri alınması və istiqrazların ödənilməsi

Qeyd edək ki, turizm müəssisələrində resurs çatışmazlığı onların və bütövlükdə turizm sektorunun maliyyələşdirilməsində böyük iqtisadi çətinliklər yaradır. Turizm müəssisələri maliyyə resursları çatışmazlığı halları ilə üzləşdiyi zaman əlavə cəlb olunmuş vəsaitlər vasitəsi ilə bu problemi ortadan qaldıra bilər. Belə ki, turizm müəssisələri sərəncamda qalan mənfəətin saxlanılması, istifadə olunmayan əmlakın satışı və lüzumsuz xərcləri azaltmaq yolu ilə bu məsələni reallaşdıra bilər. Bundan əlavə qeyd etməliyik ki, turizm sektorunun maliyyə proqnozlaşdırılması həmçinin dövlət səviyyəsində də həyata keçirilə bilər. Burada dövlətin əsas vəzifələrindən biri turizm sektorunun inkişaf etdirilməsinə dair proqramların və islahatların həyata keçirilməsindən ibarətdir.

Bazar iqtisadiyyatı şəraitində turizm müəssisələrinin maliyyə proqnozlaşdırılması zamanı əsas amillərdən biri onların maliyyə vəziyyətinin düzgün qiymətləndirilməsindən ibarətdir. Bu baxımdan maliyyə proqnozlaşdırılması zamanı müəssisənin cari maliyyə vəziyyətinin təhlili düzgün şəkildə həyata keçirilməlidir. Belə ki, müəssisənin maliyyə hesabatları illər üzrə təhlil edilməli, onun aktivləri, öhdəlikləri, pul axınları düzgün qiymətləndirilməlidir. Qeyd edək ki, turizm müəssisələrində maliyyə təhlili bir neçə metod üzrə aparıla bilər. Biz bu metodlara üfüqi təhlil, şaquli təhlil, trend təhlili və nisbət təhlili metodlarını göstərə bilərik. Turizm müəssisələrində

maliyyə təhlili aparılarkən maliyyə əmsallarından istifadə edilməsi təhlilin keyfiyyətini daha da yüksəldir. Belə ki, turizm müəssisələrində maliyyə təhlilini aparan şəxslər likvidlik əmsallarından, maliyyə strukturu ilə bağlı əmsallardan, fəaliyyət əmsallarından və mənfəətlilik əmsallarından istifadə edərək maliyyə təhlilinin effektiv aparılmasını təmin edə bilər. Qeyd olunan məsələləri nəzərə alaraq vurğulamaq lazımdır ki müasir dövrdə turizm sektorunun inkişafı onun effektiv maliyyələşdirilməsindən birbaşa asılıdır. Burada isə effektiv maliyyə proqnozlaşdırılmasının əhəmiyyəti unudulmamalıdır.

Nəticə

Turizm sektoru Azərbaycanda müasir dövrdə özünün unikallığı, cəlbediciliyi və prioritetliyi ilə fərqlənir. Qeyd etmək lazımdır ki, Azərbaycanda qeyri-neft sektoru içərisində turizm sektorunun özünəməxsus rolu vardır. Bu gün ölkəmizdə turizm inkişaf etdirilməsi zəruri olan sektorlardan birinə çevrilmişdir. Bu sektorun inkişafını reallaşdırmaq və davamlılığını təmin etmək üçün bir sıra tədbirlərin görülməsi vacibdir. İnkişaf etmiş dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın bütün sektorlarında inkişafın təmin edilməsi üçün əsas amillərdən biri maliyyələşdirilmədir. İqtisadiyyatın digər sektorlarında olduğu kimi turizm sektorunun düzgün idarə olunması və davamlı fəaliyyət göstərməyinin əsasında məhz onun effektiv maliyyələşdirilməsi dayanır.

Məlum olduğu kimi turizm başqa iqtisadi və sosial sektorlarla birbaşa əlaqəlidir. Bu səbəbdən, turizm sektorunun effektiv maliyyələşdirilməsi yalnız bu sektorun inkişafını deyil, həm də dövlətin sosial-iqtisadi inkişafını təmin edə bilər. Qeyd edək ki, bir sıra ölkələr turizm sektorunun inkişafını təmin etməkdə uğurlu olmamışdır. Bu problem bir çox hallarda turizm sektorunun qeyri effektiv maliyyələşdirilməsindən qaynaqlanır. Turizm sektorunun maliyyələşdirilməsi o sektorun inkişafının təmin edilməsi məqsədilə maliyyə resurslarının vaxtında və tam şəkildə səfərbər edilməsini əks etdirir.

Müasir bazar iqtisadiyyatı şəraitində turizm sektorunun inkişafını təmin edən mühüm amillərdən biri məhz maliyyə proqnozlaşdırılmasıdır. Qeyd etdiyimiz kimi, turizm sektorunda maliyyə proqnozlaşdırılması turizm müəssisələrinin yaxın gələcəkdə maliyyə vəziyyətinin dəyişdirilməsi, həm də bu istiqamətdə müəyyən xərclərin maliyyələşdirilməsi üzrə maliyyə strategiyasının əsas istiqamətlərini özündə əks etdirən fəaliyyətdir. Məlum olduğu kimi bütövlükdə turizm sektorunun inkişafı əvvəla turizm müəssisələrinin uğurlu fəaliyyətindən, rentabelliyindən və inkişafından başlayır. Bu baxımdan turizm sektorunun maliyyə pronqozlaşdırılması müəssisə səviyyəsində düzgün aparılmalıdır. Turizm müəssisələri yaxın gələcəkdə görüləcək işləri və fəaliyyət isitqamətlərini müəyyən etməli, bu fəaliyyətə istifadə olunacaq maliyyə resurslarının həcmini düzgün hesablamalıdır.

Maliyyə proqnozlaşdırılmasında təbii ki, müəssisənin cari maliyyə vəziyyəti də düzgün təhlil edilməlidir. Digər tərəfdən maliyyə təhlili müəssisənin maliyyə hesabatları əsasında aparılmalıdır. Bu istiqamətdə

müəssisədə maliyyə analitikləri, maliyyə menecerləri, o cümlədən auditorlar yaxından iştirak edə bilər. Onlar balans, mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişikliklər hesabatını illər üzrə təhlil etməklə maliyyə təhlilini həyata keçirə bilər. Bundan əlavə maliyyələşdirilmənin əhəmiyyətini nəzərə alaraq qeyd etmək olar ki, maliyyə resurslarının mövcud vəziyyətinin təhlil edilməsi son dərəcə önəmlidir. Bu istiqamətdə müəssisənin pul axınları təhlil edilməli və pul axınlarının hansı istiqamətlərdən daxil və ya xaric olduğu aşkarlanmalıdır. Təbii ki, maliyyə təhlilində maliyyə analitikləri üfüqi, şaquli, trend, nisbət təhlili metodlarından, o cümlədən maliyyə əmsallarından istifadə edirlər. Bu metodlar müəssisənin cari maliyyə vəziyyətinin təhlil edilməsində və qiymətləndirilməsində böyük rol oynayır.

Turizm sektorunun maliyyə proqnozlaşdırılmasında müxtəlif problemlər ortaya çıxır. Burada ortaya çıxan əsas problemlərdən biri maliyyə resurslarının çatışmazlığı ilə bağlıdır. Bu problemin aradan qaldırılması istiqamətində turizm müəssisələrinin əsas vəzifələrindən biri xərclərə qənaət etməkdən ibarətdir. Qeyd edək ki, turizm sektorunun effektiv maliyyə proqnozlaşdırılması onun inkişafına təkan verə bilər. Lakin maliyyələşdirilmə zamanı verilən səhv maliyyə proqnozları, zəruri maliyyə resurslarının çatışmazlığı, o cümlədən maliyyə təhlilinin düzgün aparılmaması turizm sektorunun maliyyələşdirilməsində böyük iqtisadi çətinliklərə səbəb olur. Turizm sektorunun maliyyələşdirilməsi təkcə ayrı-ayrı turizm müəssisələri tərəfindən təmin edilməməlidir. Çünki turizm sektorunun maliyyələşdirilməsi məsələsinin təkcə turizm müəssisələrinin öhdəliyinə buraxılması bir sıra problemlərə və hətta uğursuzluğa səbəb ola bilər. Qeyd etdiyimiz kimi, turizm iqtisadiyyatın üstün sektorlarından biri kimi daim dövlətin diqqət mərkəzində saxlanılmalıdır. Bir sıra ölkələrlə birgə Azərbaycanda da bu sektorun inkişafı hər zaman dövlətin prioritet hədəflərindəndir. Dövlət turizm sektorunun prioritetliyini nəzərə alaraq bu sektora dövlət investisiyalarını yönəltməlidir. Digər tərəfdən turizm sektorunun inkişafını təmin edən dövlət proqramları işlənib hazırlanmalı və islahatlar həyata keçirilməlidir. Belə olduğu halda turizm sektorunun maliyyələşdirilməsi həm turizm müəssisələrinin maliyyə resursları hesabına, həm də dövlətin maliyyə resursları hesabına reallaşmış olacaq. Ümumiyyətlə turizm sektorunun maliyyələşdirilməsində maliyyə proqnozlaşdırılmasının əhəmiyyətini nəzərə alaraq qeyd etmək olar ki, maliyyə proqnozlaşdırılması zamanı müxtəlif problemlər ortaya çıxa bilər. Bu problemlərin aradan qaldırılması həm müəssisə səviyyəsində, həm də dövlət səviyyəsində reallaşdırılmalıdır. Turizm sektorunun maliyyə proqnozlaşdırılması zamanı ortaya çıxan problemlərin aradan qaldırılması yollarını qısa şəkildə ümumiləşdirərək aşağıdakı kimi göstərə bilərik:

1. Turizm müəssisələri xərclərə qənaət etməlidir
2. Turizm müəssisələri maliyyə təhlilini düzgün aparmalı və öz cari maliyyə vəziyyətini düzgün qiymətləndirməlidir
3. Turizm müəssisələri maliyyələşdirilmənin effektivliyini təmin edilməsi məqsədilə əlavə maliyyə mənbəyi müəyyən etməlidir
4. Dövlət investisiyaları turizm sektoruna yönəldilməlidir
5. Dövlət turizm sektoruna vergi güzəştlərini tətbiq etməlidir

6. Turizm sektorunun maliyyələşdirilməsi və inkişafının təmin edilməsi məqsədilə dövlət tərəfindən lazımi vəsaitlər ayrılmalıdır
7. Dövlət müxtəlif islahatlar və proqramlar vasitəsilə turizm sektorunun cəlbediciliyini yüksəltməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, Bakı, 17 dekabr, 2016-cı il
2. AR DSK. Müstəqil Azərbaycan 2018. Bakı, 2011.640 s
3. Əlirzayev, Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi / Ə.Əlirzayev. – Bakı: - 2011.- 494 s.
4. Əlizadə Ş.N, Həsənov İ.C, Azərbaycanda turizm sektorunun maliyyələşdirilməsinin müasir vəziyyəti,// Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş Qlobal və Regional İnkişaf Beynəlxalq Konfransı, "Cənubi Qafqaz regionunun iqtisadi inkişafının prioritet istiqamətləri", Bakı, Azərbaycan, - 19-20 dekabr 2023, ss.37-39
5. Hüseynov İ.H, Əfəndiyeva N.T. Turizmin əsasları / İ.Hüseynov, N.Əfəndiyeva. – Bakı: - 2007. - 494 s.
6. http://www.anl.az/down/meqale/azerbaycan/2013/dekabr/340586.htm

Məqalənin redaksiyaya daxilolma tarixi: 09.02.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.02.2024
Məqalənin çapa qəbul olunma tarixi: 21.02.2024

DOI: doi.org/10.61226/12.2.2023/20241.1.1
UOT: 338.486
Orxan ƏLİLİ
Azərbaycan Turizm Bürosu PHŞ,
Statistika sektorunun müdiri
https://orcid.org/0000-0001-5339-1429
orkhan.alili@tourismboard.az

TURİZMƏ ƏSASLANAN İQTİSADİ ARTIM NƏZƏRİYYƏSİNİN XƏTTİLİYİNİN DİNAMİK PANEL HƏDD MODELİ İLƏ ANALİZİ

Xülasə: Bu tədqiqatın məqsədi ekonometrik modelləşdirmə ilə "Turizmə Əsaslanan İqtisadi Artım" nəzəriyyəsinin etibarlılığını yoxlamaq, turizmdə ixtisaslaşmanın iqtisadi artıma mümkün təsirlərini qiymətləndirmək, həmçinin, maliyyə inkişafının vasitəçilik rolunu və bu təsirlərin maliyyə inkişafının müxtəlif səviyyələrində olan ölkələrdə zamanla necə dəyişdiyini araşdırmaqdan ibarətdir. 2001-2018-ci illər üzrə müxtəlif maliyyə inkişaf səviyyələrinə malik 91 ölkənin məlumatları əsasında ekonometrik panel məlumat hədd modelindən istifadə edilməklə həyata keçirilən araşdırmada, aşağı səviyyələrlə müqayisədə orta maliyyə inkişaf göstəricilərinə malik ölkələrdə turizmdə ixtisaslaşmanın iqtisadi artıma daha güclü müsbət təsirə malik olduğu, lakin yüksək maliyyə inkişaf səviyyələrinə keçildikcə bu təsirin tədricən statistiki cəhətdən əhəmiyyətini itirdiyi müəyyənləşdirilmişdir. Beləliklə, tədqiqat nəticəsində, turizmdə ixtisaslaşmanın iqtisadi artıma təsirinin qeyri-xətti olduğu aşkar edilmişdir ki, bu da, turizmdə ixtisaslaşmanın böyüməyə təsirində ortaya çıxan fərqlərin altında yatan gizli dinamikanın, o cümlədən, iqtisadi, sosial və ekoloji təsirlərin zamanla dəyişə biləcəyini nəzərə almağın vacibliyini vurğulayır.

Açar sözlər: Turizmə əsaslanan iqtisadi artım, maliyyə inkişafı, klaster analizi, dinamik panel hədd modeli

Orkhan ALILI

AN EXAMINATION OF LINEARITY OF THE TOURISM-BASED ECONOMIC DEVELOPMENT HYPOTHESIS USING THE DYNAMIC PANEL THRESHOLD MODEL

Abstaract: The objective of this research is to empirically validate the "Tourism-Based Economic Growth" hypothesis using econometric modeling, assess the potential impact of specialization in tourism on economic growth, and explore the mediating role of financial development while examining how these effects evolve across countries with varying levels of financial development. Employing an econometric panel data threshold model, the study analyzes data from 91 countries with diverse financial development indicators

during the period of 2001-2018. The findings indicate that specialization in tourism exerts a more pronounced positive influence on economic growth in countries with moderate levels of financial development when compared to those with low levels. However, as financial development progresses to higher levels, the statistical significance of this impact gradually diminishes. Consequently, the research underscores the non-linear nature of the relationship between specialization in tourism and economic growth, emphasizing the significance of comprehending the underlying dynamics that contribute to disparities in these effects. This includes recognizing the potential temporal variations in economic, social, and environmental repercussions associated with tourism specialization.

Keywords: Tourism Driven Economic Growth, Financial Development, Cluster Analysis, Dynamic Panel Threshold Model

Орхан АЛИЛИ

ИССЛЕДОВАНИЕ ЛИНЕЙНОСТИ ГИПОТЕЗЫ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ, ОСНОВАННОГО НА ТУРИЗМЕ, С ИСПОЛЬЗОВАНИЕМ ДИНАМИЧЕСКОЙ ПАНЕЛЬНОЙ ПОРОГОВОЙ МОДЕЛИ

Абстракт: Цель этого исследования состоит в эмпирическом подтверждении гипотезы "экономического роста, основанного на туризме", с использованием эконометрического моделирования, оценке потенциального влияния специализации в туризме на экономический рост и изучении опосредующей роли финансового развития, одновременно изучая, как эти эффекты проявляются в странах с различным уровнем финансового развития. Используя пороговую модель эконометрических панельных данных, в исследовании анализируются данные из 91 страны с различными показателями финансового развития за период 2001-2018 годов. Полученные данные указывают на то, что специализация в сфере туризма оказывает более выраженное положительное влияние на экономический рост в странах с умеренным уровнем финансового развития по сравнению с странами с низким уровнем. Однако по мере того, как финансовое развитие достигает более высоких уровней, статистическая значимость этого влияния постепенно уменьшается. Следовательно, исследование подчеркивает нелинейный характер взаимосвязи между специализацией в туризме и экономическим ростом, подчеркивая важность понимания лежащей в основе динамики, которая способствует неравенству в этих эффектах. Это включает в себя признание потенциальных временных различий в экономических, социальных и экологических последствиях, связанных со специализацией туризма.

Ключевые слова: экономический рост обусловленный туризмом, финансовое развитие, кластерный анализ, динамическая панельная пороговая модель.

Giriş

Dövlətlərin ən əsas iqtisadi məqsədi məhdud resurslardan ən səmərəli şəkildə istifadə etməklə vətəndaşların onlardan maksimum faydalanmasını təmin etməkdir. Bu məqsədlərə nail olmaq üçün hansı amillərin daha çox inkişaf etdirilməsi, resursların necə və hansı sahələr üzrə istifadə edilməsi ilə bağlı müxtəlif yanaşmalar iqtisadi inkişaf üzrə yeni nəzəriyyələrin formalaşmasının əsasını təşkil etmişdir [13]. Bu mənada, iqtisadi artım strategiyasına qərar verilərkən resursların müəyyən bir sahədən digərinə yönəldilməsi nəticəsində itiriləcək fürsətlər, yeni investisiyaların yalnız müəyyən qrupların maraqlarına deyil, bütün maraqlı tərəflər üçün faydalı olması və bu təsirlərin zamanla necə dəyişəcəyi kimi sualların təhlil edilməsi və düzgün qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bunlara əlavə olaraq, iqtisadi artıma nail olmaq üçün digər komponentlərin də uyğun şəkildə bir araya gətirilməsi vacibdir ki, bu zaman müvafiq istedad və bacarıqlara malik əmək bazarı, geniş sərmayə qoyuluşu, texniki səriştə, araşdırma və inkişaf fəaliyyətləri, insan kapitalı imkanları, iqtisadi artım üçün uyğun siyasi və iqtisadi mühitin formalaşması kimi amillər nəzərə alına bilər.

1980-ci illərdən etibarən texnoloji inkişaf ilə başlayan yeni qlobal inkişaf mərhələsi, xarici ticarətin ölkələr arasında əlaqələri gücləndirməsi və maliyyə sistemləri arasındakı qarşılıqlı inteqrasiyanın sürətlənməsi ilə qısa müddət ərzində bütövlükdə bütün iqtisadi sistemi öz təsiri altına almağa müvəffəq olmuşdur. Qarşılıqlı əlaqələrin inkişafı, ağıllı texnologiyaların istifadəsinin geniş vüsət almasının istehsalatda məhsuldarlığı artırması qlobal rifah səviyyəsinin də yaxşılaşmasına təsirsiz ötüşməmiş, digər tərəfdən əhalinin sayında kəskin artım, konfliktlər, pandemiya, qlobal miqrasiya problemləri kimi sosial problemlərin də qısa müddət ərzində bütün dünyaya yayılması iqtisadi böyümənin daimi olaraq davam etməyəcəyi və rifaha dair narahatçılığın xüsusilə son illərdə yenidən müzakirə olunmasına səbəb olmuşdur. Baş verən qlobal tendensiyalar fonunda müxtəlif sektorların rifah səviyyəsinin yüksəldilməsinə və daha yaxşı həyat standartlarının təmin edilməsinə hansı töhfələr verəcəyi sualına cavab tapmaq daha vacib məsələyə çevrilmişdir.

Turizmə Əsaslanan İqtisadi Artım Nəzəriyyəsinin Tədqiqi

İnkişaf etməkdə olan ölkələrdə turizm sektorunun iqtisadi artım hədəflərinə nail olmaq üçün əhəmiyyətli rola malik olub-olmadığı müzakirə mövzusuna çevrilmişdir. Turizmin ən mühüm makroiqtisadi təsiri ölkənin tədiyə balansına verdiyi töhfədir. Turistlərin destinasiyalarda həyata keçirdikləri nəqliyyat, yerləşmə, iaşə məqsədli xərclərin tədiyyə balansına əsas, həmçinin birbaşa, dolaylı və induksiya edilmiş təsirlərinin tədiyyə balansına köməkçi təsirləri ölkələrin valyuta ehtiyatlarına daha çox qənaət etməyə, yeni məşğulluq imkanları yaratmağa və nəticədə iqtisadi artım məqsədlərinə nail olmağa imkan verir [4, s. 605]. Bununla yanaşı, turizm məhsullarının və xidmətlərinin ölkədaxili və beynəlxalq istehlakı üzrə xərclərdən əldə edilən vergilər, turizmdə istifadə məqsədilə xaricdən idxal edilən mallardan alınan gömrük vergiləri, habelə turizm müəssisələri tərəfindən ödənilən gəlir vergiləri dövlət gəlirlərinin artmasına da xidmət edir. Bundan əlavə, yerli və xarici

turistlərdən alınan şəhər vergiləri (city tax), xaricə gediş haqları, viza rüsumları, muzeylərə, tarixi məkanlara və milli parklara giriş rüsumları kimi vəsaitlər də iqtisadiyyata birbaşa müsbət təsir göstərir. Əldə edilən gəlirlərin əhəmiyyətli bir hissəsi destinasiyalarda infrastrukturun yaxşılaşdırılması, destinasiyanın tanıdılması və marketinqi, turizmin inkişafı üçün sənayeyə güzəştlər kimi məqsədlərlə yenidən turizm sənayesinə köçürülə bilər. Beləliklə, turizm dövlət xərclərinə töhfəsi ilə də iqtisadi artımın əsas lokomotivlərindən biri kimi qiymətləndirilə bilər [12].

Əlavə olaraq o da qeyd edilməlidir ki, iqtisadi sənaye sahələrində gerçəkləşən artım digər əlaqəli sənaye və ya sektorların da inkişafını təmin etməklə ümumi iqtisadi artımı stimullaşdıra bilər. Məsələn, bəzi sektorların zəif inkişafı digər sektor məhsullarına olan tələbatın da aşağı qalması ilə nəticələnsə də, artımla birlikdə resursların daha səmərəli istifadəsi əlaqəli sektorların daha dinamik struktur qazanmasına köməklik göstərəcək. Bunları nəzərə alaraq, turizm kimi çoxsayılı iqtisadi sənaye sahələri ilə irəli və geri əlaqəyə malik sektorlardakı canlanmalar müvafiq sənayelərdə də inkişafa təkan verməklə əmək bazarı və iqtisadi mühitin də inkişafına kömək edəcək, bu isə uzunmüddətli davamlı inkişafı dəstəkləyəcəkdir.

Beynəlxalq ədəbiyyata nəzər saldıqda, müvafiq yanaşmaların həqiqiliyinin həyata keçirilən ekonometrik modelləşdirmələr ilə də təsdiqləndiyi müşahidə olunur. Belə ki, kointeqrasiya və xətaların düzəldilməsi modelləri kimi ekonometrik üsullardan istifadə edərək İspaniyanın turizm sənayesinin iqtisadi inkişafa təsirini qiymətləndirən Balaguer və Cantavella-Jorda sənayenin valyuta daxilolmalarına verdiyi töhfələrlə iqtisadi inkişaf prosesində idxal xərclərini qarşıladığını və bu baxımdan İspaniyanın iqtisadi transformasiya prosesini sürətləndirdiyini müəyyənləşdirmişdir [2]. Cortes Jimenezin İspaniya və İtaliyanın turizm sektorları üzərində tədqiqatları nəticəsində isə, İspaniyada daxili turizmin, İtaliyada xarici turizmin iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi kimi qiymətləndiriləbiləcəyi aşkar edilmişdir [6].

Turizm həm milli gəlirə və ixraca verdiyi töhfə, həm də məşğulluğa dəstək baxımından xüsusilə son illərdə bir çox inkişaf etməkdə olan ölkələrin böyümə hədəflərinə çatmaqda aparıcı sektorlardan birinə çevrilmişdir. Beynəlxanlq təcrübədə turizm resursları ilə zəngin ölkələrin əlçatan nəqliyyat və uğurlu imic formalaşdırmaqla qısa zamanda diqqət mərkəzinə çevrilə biləcəyini göstərən bir çox nümunə mövcuddur. Bununla yanaşı, mexanikləşdirmə və avtomatlaşdırma imkanlarının məhdud olduğu əmək tutumlu sektorlardan biri olan turizmdə məşğulluğun özünəməxsus xüsusiyyətlərindən biri də bir çox yarı ixtisaslı və ixtisassız insanlara da məşğulluq imkanları təqdim etməsidir [10, s. 219]. Bu baxımdan, onun həm məşğulluğa, həm də istehsala verdiyi töhfə baxımından təsirləri nəzərə alınaraq, turizmdə müqayisəli üstünlüyə malik iqtisadiyyatların bu sahədə ixtisaslaşması halında rifah səviyyəsinin yüksələcəyi düşünülür. Digər tərəfdən, əmək dəyər nəzəriyyəsinə əsaslanaraq müqayisəli üstünlüklər modelində əməkdən başqa digər amillərin təsirinin nəzərə alınmaması, beləliklə, müqayisəli üstünlük mənbəyi kimi yalnız əmək məhsuldarlığının əsas faktor kimi qəbul edilməsi bəzi araşdırmalarda tənqid olunmuş, faktor zənginliyinə əsaslanan ixtisaslaşmanın qısamüddətli qazancları dəstəkləsə də, dinamik qazancları nəzərə almadığı vurğulanmışdır. Qeyd

edilənləri nəzərə alaraq, iqtisadi artım hədəflərinə nail olmaq üçün təkcə turizmdə ixtisaslaşmanın kifayət etməyəcəyi vurğulanmışdır [14]. Məsələn, turizmdə ixtisaslaşma və iqtisadi artım arasındakı əlaqəni araşdıran qabaqcıl nümunələrdən biri kimi qiymətləndirilən Lanza və Pigliarunun araşdırmasında, turizmdə ixtisaslaşmanın, xarici ticarətə veridiyi dəstəklə iqtisadi böyüməyə töhfə verəbiləcəyindən bəhs edilir, ancaq o da vurğulanır ki, sektordan uzunmüddətli asılılıq və təbii resursların optimal istifadə edilməməsi Holland Sendromuna bənzər nəticələri ortaya çıxara bilər ki, bu da, davamlı iqtisadi inkişaf üçün uğurlu təcrübə hesab edilmir [11].

İxtisaslaşma modelinin effektivliyini aradan qaldıran digər amil zamanla tələb və təklif şərtlərində baş verəcək dəyişikliklərdir. Son dərəcə həssas struktura malik turizmdə nisbi üstünlüyə malik iqtisadiyyatlar bu sahədə ixtisaslaşsalar belə, qlobal konyukturada baş verəcək dəyişikliklərdən təsirlənə və mövqelərini itirə bilərlər ki, bu baxımdan, ölkələrə müqayisəli üstünlüklər əldə etməyə imkan verən amillərin daim izlənilməsi, zövqlər, texnologiya və digər qlobal dəyişiklikləri nəzərə almaqla resursların bölüşdürülməsinin yenidən təşkili vacibdir.

Göründüyü kimi, ədəbiyyatda müsbət iqtisadi təsirləri nəzərə alaraq turizmdə ixtisaslaşmanın iqtisadi böyüməyə daima müsbət təsir göstərəcəyini bildirən və aralarında xətti əlaəqənin mövcudluğuna işarə edən müəlliflərlə birgə [7], bu əlaqənin xətti olmadığını müəyyənləşdirən araşdırmaların da sayının az olmadığı nəzərə çarpır [[8], [1]]. Beynəlxalq ədəbiyyatda müvafiq yanaşmaları nəzərə alaraq, bu araşdırmanın əsas məqsədi ekonometrik modellərdən biri kimi dinamik panel hədd metodundan istifadə etməklə turizmdə ixtisaslaşmanın uzunmüddətli perspektivdə ölkələrin rifah səviyyəsini yaxşılaşdırmağa mümkün təsirlərini araşdırmaq, həmçinin, ölkələrin müxtəlif maliyyə inkişaf səviyyələrinə görə bu göstəricilər arasında əhəmiyyətli fərqin olub-olmadığını müəyyənləşdirməkdən ibarətdir.

Empirik model çərçivəsində dəyişənlər arasında əlaqə Beynəlxalq Valyuta Fondunun (BVF, 2018) 2018-ci il məlumatlarından istifadə etməklə aparılan klaster təhlili nəticəsində aşağı maliyyə inkişaf göstəricilərinə malik 24, orta maliyyə inkişaf göstəricilərinə malik 42 və yüksək maliyyə inkişaf göstəricilərinə malik 25 ölkə olmaqla müvafiq məlumatları əldə edilən ümumilikdə 91 ölkənin 2001-2018-ci illər üzrə illik məlumatlarından istifadə etməklə turizm-iqtisadi artım əlaqəsi qurulan ekonometrik modellərlə təhlil edilmişdir.

Tədqiqat çərçivəsində iqtisadi artım və turizmdə ixtisaslaşma arasındakı xətti əlaqəni araşdırmaq üçün aşağıdakı dinamik panel modeli yaradılmışdır:

$$GDP_{it} = a_i + GDP_{it-1} + \beta_1 TOU_{it} + \beta_2 FND_{it} + \beta_3 TRD_{it} + \beta_4 GOV_{it} + \beta_5 CAP_{it} + \varepsilon_{it}$$

Gündüz və Hatemi turizmin ölkə iqtisadiyyatına təsirlərini qiymətləndirmədə tək bir göstərici əsasında qərar vermənin səhv nəticələrə səbəb ola biləcəyinə diqqət çəkir [9]. Belə ki, ölkələrin turizm üzrə göstəriciləri hesablanarkən vahid metodologiyanın tətbiq edilməməsi əldə edilən nəticələrin

əhəmiyyətli dərəcədə fərqlənməsinə səbəb olur ki, bu da, müqayisəni çətinləşdirir. Bunları nəzərə alaraq, ixtisaslaşmanı ifadə etmək üçün alternativ göstəricilər axtarılmağa başlanılmışdır. Bu mənada, Sequeira və Campos tək bir göstərici seçmək yerinə, beynəlxalq turizm gəlirlərinin ixrac gəlirlərinə (TRE), turizm gəlirlərinin real ÜDM-ə və turizm gəlirlərinin turistlərin sayına (TA) nisbətini turizmdə ixtisaslaşmanın göstəriciləri kimi istifadə etmişdir [15]. Digər tərəfdən, son illərdə müxtəlif göstəriciləri bir tənlikdə modelləşdirmək və ya hər bir dəyişən üçün ayrıca modellər yaratmaq əvəzinə, bu dəyişənlərin ümumi təsirini ölçməyə imkan verən statistik metodologiyanın tətbiqi də tövsiyə edilir. Qeyd edilənləri nəzərə alaraq, bu araşdırmada, ölkəyə səfər edən turistlərin sayı, illik turizm gəlirləri, turizm gəlirlərinin ümumi ixracda payı, turizm sektorunda kapital qoyuluşları, turizm gəlirlərinin ÜDM-də payı və turizmdə məşğulluğun ümumi məşğulluğa nisbəti kimi məlumatlardan istifadə edilərək əsas komponent təhlili metodu ilə turizmdə kompozit ixtisaslaşma indeksi yaradılmışdır. Müvafiq dəyişənin hazırlanması zamanı məlumatlar BMÜTT və Dünya Bankının məlumat bazalarından əldə edilmiş, yeni dəyişənin formalaşmasında təsir gücü daha aşağı olan parametrlərin müəyyənləşdirilməsi məqsədilə son illərdə maşın öyrənməsi modelləri arasında ən çox istifadə edilən Əsas Komponent Təhlili (PCA) analizindən istifadə edilmişdir. Bununla yanaşı, ekonometrik modelin qurulması zamanı turizmdə ixtisaslaşmanın iqtisadi artıma təsirini qiymətləndirmək üçün adambaşına düşən ÜDM-nin gecikməli dəyəri (GDP_{it-1}), investisiyaları göstərmək üçün ümumi kapital qoyuluşlarının ÜDM-ə nisbəti (CAP_{it}), ümumi dövlət xərcləmələri (GOV_{it}) və ticarət sərbəstliyi (TRD_{it}) kimi dəyişənlər də izahedici dəyişənlər kimi modelə daxil edilmişdir.

Ənənəvi qiymətləndirmə metodlarından istifadə etməklə həyata keçirilən ekonometrik təhlillərin asılı dəyişənin gecikmiş dəyəri (Y_{it-1}) ilə xəta termini arasındakı korrelyasiya nəticəsində yaranan endogenlik problemini nəzərə almaması, bu çatışmazlıqları korreksiya etməkdə daha uğurlu nəticələr verən dinamik panel modellərinin tətbiqinin genişlənməsi ilə nəticələnmişdir.

Bu araşdırmada, Arellano-Bond və Blundell-Bover tərəfindən hazırlanmış və dəyişənlər arasında xətti funksional əlaqəni qiymətləndirmədə uğurlu nəticələr göstərmiş sistem ümumiləşdirilmiş momentlər metodu (System GMM) istifadə edilmişdir. Qeyd edilməlidir ki, müvafiq model digər panel modelləri ilə müqayisədə ilk fərqlər əvəzinə ortoqonal kənarlaşmalar metodundan istifadə etməklə güclü fərziyyələr olmadan da kiçik nümunələrdə yaxşı qiymətləndirmə nəticələri verməsi baxımından daha qabaqcıl nümunələrdən biri hesab edilir [3]. Bu baxımdan, qabaqcıl ortoqonal kənarlaşmalar metodunda, dövrlər arasındakı fərq əvəzinə dəyişənin bütün mümkün gələcək dəyərlərinin orta fərqi götürülərək məlumat itkisinin qarşısı alınır. Bundan əlavə, digər panel modellərində instrumental dəyişənlərlə bağlı məhdudiyyətlər, dəyişənlərin səviyyə dəyərləri ilə yanaşı ilk fərqlərinin də instrumental dəyişənlər kimi istifadəsinə imkan verilməklə sistem

ümumiləşdirilmiş momentlər metodunda aradan qaldırılmağa çalışılaraq, daha effektiv qiymətləndirmə nəticələri əldə edilmişdir.

Nəticə

Tədqiqatın nəticələri hətta aşağı maliyyə inkişaf rejimində belə turizm üzrə ixtisaslaşmanın iqtisadi artımı dəstəklədiyini statistiki olaraq müəyyənləşdirsə də, maliyyə inkişafının müəyyən səviyyəsində bu təsirlərin daha qabarıq şəkildə özünü büruzə verdiyi məlum olmuşdur. Belə ki, daha inkişaf etmiş maliyyə sistemlərində informasiya asimmetriyasının aradan qalxması, maliyyə qaynaqlarına çıxış imkanlarının artması, turizm kimi investisiya xərcləri yüksək sektorların maliyyə vəsaitlərinə çıxışlarının daha əlçatan olması, əlavə olaraq, turizmdə yaradılan yeni iş yerlərinin birbaşa iqtisadi artımı dəstəkləməsi maliyyə inkişafının aşağı səviyyəsi ilə müqayisədə orta rejimdə daha əhəmiyyətli olacağını təsdiqləyir. Lakin empirik təhlil nəticələri göstərir ki, bu təsir daimi deyil və maliyyə həddi keçilərək maliyyə inkişafının yüksək səviyyəsinə daxil olduqda turizmdə ixtisaslaşmanın iqtisadi artıma təsiri xeyli azalır. Nəticələr göstərir ki, turizmdə ixtisaslaşmanın təsirləri ölkələrin maliyyə inkişaf səviyyələrindən asılı olaraq fərqlənə bilər və buna görə də qruplar arasında heterojenlik mövcuddur.

Təbii, tarixi və ya mədəni sərvətlərlə zəngin ölkələrdə aşağı texnologiya və əsasən yüksək ixtisaslı olmayan əmək bacarıqları tələb edən turizm sektorunun inkişafı, iqtisadi inkişafın ilkin mərhələsini yaşayan iqtisadiyyatlar üçün yaxşı fürsət ola bilər. Digər xidmət sektorlarından fərqli olaraq turizmdə təklif olunan yerləşmə, iaşə və nəqliyyat xidmətlərinin istehlakı üçün turistlər istehsalın həyata keçirildiyi ölkələrə getməyə məcburdurlar. Bu xidmətlərin əmək tutumlu olması səbəbindən turizmin ilk növbədə daha aşağı əlavə dəyər yaratdığı, aşağı ixtisaslı əhali üçün məşğulluq imkanları təklif etdiyi görünür ki, bunun ixtisaslaşmaya əsaslanan böyümənin davamlılığı üçün kifayət etməyə biləcəyi müasir iqtisadi inkişaf modellərində də öz əksini tapmışdır.

Vəziyyəti daha yaxşı başa düşmək üçün istehsal amilləri arasında mühüm yer tutan əmək amilinin xərclərə təsirinə də nəzər salmaq faydalıdır. Turizm ölkələri müvafiq sahədə ixtisaslaşmağa davam etdikcə, milli gəlirdə əməyin payının artacağı, beləliklə əmək ödənişlərində artımların qeydə alınacağı gözlənilir. Bu proses əmək tutumlu turizm investisiyalarında xərclərin artmasına da birbaşa təsir göstərir ki, bu da, digər ölkələrin daha aşağı qiymətə oxşar turizm məhsullarını təklif edərək öz turizm sektorlarını inkişaf etdirməyə başlamalarına stimul yaradacaq. Beləliklə, turizm sahəsində ixtisaslaşan ölkələrin iqtisadi artım mərhələlərini keçərkən rəqabət qabiliyyətini itirmək reallığı ilə qarşılaşacağı açıq-aydın görünür. Məsələn, İspaniya, Yunanıstan və Kipr kimi ənənəvi Aralıq dənizi hövzəsi ölkələrinin Xorvatiya, Türkiyə və Misir kimi nisbətən yeni destinasiyalarla rəqabət aparmasının çətinləşməsi qeyd olunan nəzəri çərçivənin də müşahidələrlə dəstəkləndiyini göstərir.

Onu da qeyd etmək lazımdır ki, turizmin inkişafı destinasiyalarda ətraf mühitə təzyiqi gücləndirir ki, bu da, yerli sakinlərin həyat keyfiyyətinə təsirsiz ötüşmür. Turistlər çox vaxt yerli əhali ilə müqayisədə daha yüksək və nizamsız resurs istehlakına səbəb olurlar. Məsələn, İordan çayı və ətraf ərazilərdə turizm

fəaliyyətinin artması, regionun su ehtiyatlarına təzyiqi gücləndirmiş, bunun nəticəsində son 50 ildə Ölü dənizin su səviyyəsi 40 metrə yaxın azalmışdır. Turizmin yaratdığı su böhranı nəticəsində İspaniya ölkənin cənubunda və Tayland isə Phuket şəhərində kənd təsərrüfatı fəaliyyətlərini məhdudlaşdırmalı olmuşdur ki, bu da, birbaşa iqtisadi inkişafa və rifah səviyyəsinə mənfi təsir göstərmişdir [5]. Turistik məkanlar daha çox məşhurlaşdıqca, ekoloji problemlər və izdiham yerli insanların həyat keyfiyyətini, təbii ekosistemlərin davamlılığını sual altında qoyacaqdır ki, bunun da yekun nəticəsi turistik məhsulun keyfiyyətinin azalması olacaqdır.

Əldə edilən nəticələr və mövzu ilə bağlı əvvəlki araşdırmaların nəticələrini nəzərə aldıqda, inkişaf yolunda bütün ölkə qrupları üçün vahid modelin qəbul edilməsi və müxtəlif inkişaf səviyyələrini nəzərə almadan turizmə əsaslanan böyümə hipotezinin izah edilməsinin uğurlu nəticələr verməyəcəyi ortaya çıxmışdır. Şübhəsiz yeni struktur dəyişiklikləri tətbiq edilərkən oxşar imkanlara və göstəricilərə malik ölkələrin inkişaf yollarının nəzərə alınması daha qısa müddətdə gözlənilən məqsədlərə nail olmaqda əhəmiyyətli rola malikdir. Tədqiqat nəticələri, turizmin inkişafı üzrə homogen xüsusiyyətlərə malik ölkə qruplarını da müəyyənləşdirməyə kömək etmişdir ki, əldə edilən nəticələr turizm strategiyası və siyasətini formalaşdıran maraqlı tərəflərin fəaliyyət planları və strategiyalar hazırlayarkən oxşar inkişaf proseslərinə malik ölkələri müəyyən etmədə nəzərə alına bilər.

Ədəbiyyat

1. Adamou, A., & Clerides, S. (2009). Tourism, development and growth: International evidence and lessons for Cyprus. *Cyprus Economic Policy Review*, *3*(2), 3-22.
2. Balaguer, J., & Cantavella-Jorda, M. (2002). Tourism as a long-run economic growth factor: the Spanish case. *Applied economics*, *34*(7), 877-884.
3. Blundell, R., Bond, S., & Windmeijer, F. (2001). Estimation in dynamic panel data models: improving on the performance of the standard GMM estimator. *Nonstationary panels, panel cointegration, and dynamic panels*, 53-91.
4. Brau, R., Lanza, A., & Pigliaru, F. (2007). How fast are small tourism countries growing? Evidence from the data for 1980–2003. *Tourism Economics*, *13*(4), 603-613.
5. Cooper, C. (2008). *Tourism: Principles and practice*. Pearson education.
6. Cortes-Jimenez, I., & Pulina, M. (2010). Inbound tourism and long-run economic growth. *Current Issues in Tourism*, *13*(1), 61-74.
7. De Vita, G., & Kyaw, K. S. (2017). Tourism specialization, absorptive capacity, and economic growth. *Journal of Travel Research*, *56*(4), 423-435.
8. Figini, P., & Vici, L. (2010). Tourism and growth in a cross section of countries. *Tourism Economics*, *16*(4), 789-805.

9. Gunduz, L., & Hatemi-J, A. (2005). Is the tourism-led growth hypothesis valid for Turkey?. *Applied Economics Letters*, *12*(8), 499-504.
10. İçöz, O., & Kozak, M. (1998). Tourism economics. *Ankara: Turhan Publication*.
11. Lanza, A., & Pigliaru, F. (2000). Why are tourism countries small and fast-growing?. In *Tourism and sustainable economic development* (pp. 57-69). Boston, MA: Springer US.
12. Mclntosh, R. W., Goeldner, C. R., & Ritchie, J. B. (1986). Tourism: Principles. *Practice and Philosophy. New*.
13. Nobbs, C. (2012). *Economics, sustainability, and democracy: Economics in the era of climate change*. Routledge.
14. Nowak, J. J., Petit, S., & Sahli, M. (2010). Tourism and globalization: the international division of tourism production. *Journal of Travel Research*, *49*(2), 228-245.
15. Sequeira, T. N., & Campos, C. (2007). International tourism and economic growth: A panel data approach. In *Advances in Modern Tourism Research: Economic Perspectives* (pp. 153-163). Heidelberg: Physica-Verlag HD.

Məqalənin redaksiyaya daxilolma tarixi: 03.03.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.03.2024
Məqalənin çapa qəbul olunma tarixi: 02.04.2024

DOI: doi.org/10.61226/12.2.2023/20241.2
UOT: 338.65
Şahnaz BAXIŞOVA
Azərbaycan Turizm və Menecment Universiteti, dissertant
shahnaz_baxisova88@yahoo.com
https://orcid.org/ 0000-0002-1993-4351

TEXNOLOJİ İNNOVASİYALARIN TURİZM MÜƏSSİSƏLƏRİNƏ TƏSİRİ

Xülasə: Müasir qloballaşan dünyada iqtisadiyyatın inkişafını texnologiyasız təsəvvür etmək qeyri-mümkündür. İnformasiyanın zamanında, dürüst və əsaslı şəkildə emalı müəssisələrdə qərar qəbulunda mühüm rol oynayır. Hazırda rəqabətqabiliyyətli bazar mühitində müəssisələrin bazarda mühüm yer tutması və tutduğu mövqedə qalması üçün müəssisələrin daxili mühitində aşağı və yuxarı idarəedici səviyyələr arasında innovativ texnologiyanın tətbiqi zərurətini artırır. Video konfrans, e-poçt, mesajlaşma və digər rəqəmsal vasitələrin yaranması ilə təşkilatlar arasında ünsiyyət daha sürətli, səmərəli, məhsuldar, təsirli və geniş yayılmışdır. Texnologiya inkişaf etdikcə informasiyanı toplamaq və analiz etmək asanlaşır. Müasir dünyanın sosial-iqtisadi göstəriciləri arasında turizm ön sıralardadır. Turizm sənayesinin inkişaf etməsi demək, istehlak mallarının, nəqliyyat, tikinti, ticarət, xidmət sahələrinin də inkişafı deməkdir. Turizm inkişafının yeni fazasına 21-ci əsrdən qədəm qoymuşdur. İnnovasiyaların insan həyatının bütün sahələrinə diffuziyası müəssisələrin böyüməsi naminə menecerlərin də bu axına adaptasiya olmağını tələb edir. Beləcə, turizmdəki yeniliyə doğru dəyişiklik zaman ötdükcə yeni, yüksək keyfiyyətli istehlak mallarının, xidmətlərinin təkmilləşdirilərək bazara çıxarılması deməkdir. Turizmdə innovativ texnologiyaların tətbiqinin əsas məqsədi müştərilərin həyat keyfiyyətlərini, məmnuniyyətlərini artırmaqdır.

Açar sözlər: innovasiya, informasiya, texnologiya, rəqəmsallaşma, avtomatlaşdırma, analiz.

Shahnaz BAKHISHOVA
THE AFFECT OF TECHNOLOGICAL INNOVATIONS ON TOURISM ESTABLISHMENTS

Abstract: In today's globalized world, it is impossible to imagine the development of the economy without technology. Timely, honest and reasonable processing of information plays an important role in decision-making in enterprises. Currently, in the competitive market environment, in order for enterprises to take an important place in the market and stay in their position, the need to apply innovative technology in the internal environment of enterprises between the lower and upper management levels increases. With the advent of video conferencing, e-mail, messaging and other digital tools, communication between organizations has become faster, more efficient, more

productive, more effective and more widespread. As technology advances, it becomes easier to collect and analyze information. Among the socio-economic indicators of the modern world, tourism is at the forefront. The development of the tourism industry means the development of consumer goods, transport, construction, trade, and services. Tourism has entered a new phase of development since the 21st century. Diffusion of innovations into all areas of human life requires managers to adapt to this flow for the sake of enterprise growth. Thus, the change towards innovation in tourism means the introduction of new, high-quality consumer goods and services into the market with the passage of time. The main goal of applying innovative technologies in tourism is to increase the quality of life and satisfaction of customers.

Keywords: innovation, information, technology, digitization, automation, analysis.

Шахназ БАХИШОВА

ВЛИЯНИЕ ТЕХНОЛОГИЧЕСКИХ ИННОВАЦИЙ НА ТУРИСТИЧЕСКИЕ ПРЕДПРИЯТИЯ

Абстракт: В современном глобализированном мире невозможно представить развитие экономики без технологий. Своевременная, честная и разумная обработка информации играет важную роль в принятии решений на предприятиях. В настоящее время в конкурентной рыночной среде для того, чтобы предприятия заняли важное место на рынке и удержались на своих позициях, возрастает необходимость применения инновационных технологий во внутренней среде предприятий между нижним и высшим уровнем управления. С появлением видеоконференций, электронной почты, обмена сообщениями и других цифровых инструментов общение между организациями стало более быстрым, эффективным, продуктивным, действенным и более распространенным. По мере развития технологий становится легче собирать и анализировать информацию. Среди социально-экономических показателей современного мира туризм находится на переднем плане. Развитие туристической отрасли означает развитие производства потребительских товаров, транспорта, строительства, торговли и услуг. Туризм вступил в новую фазу развития с 21 века. Распространение инноваций во все сферы человеческой жизни требует от менеджеров адаптации к этому потоку ради роста предприятия. Таким образом, переход к инновациям в туризме означает появление на рынке с течением времени новых, высококачественных потребительских товаров и услуг. Основная цель применения инновационных технологий в туризме – повышение качества жизни и удовлетворенности клиентов.

Ключевые слова: инновации, информация, технологии, цифровизация, автоматизация, анализ.

Giriş

Müasir dünyada gedən qloballaşma prosesi surətlə inkişaf edərək bütün sahələrin inkişafına birbaşa və dolayı yolla təsir göstərir. Texnologiyanın inkişafı nəticəsində onlayn platformalardan istifadə edərək işçi məmnuniyyətini daha effektli şəkildə yüksəltmək mümkün olmuşdur. İnformasiya texnologiyalarının geniş vüsət alması bütün dünyada biznesin idarə olunması üsullarında köklü dəyişikliyə səbəb olmuşdur [5, s.51]. Yaşadığımız pandemiya dövrü müəssisələrdə ənənəvi idarəetmə üsulundan rəqəmsallaşmış idarəetmə üsuluna keçidi sürətləndirmişdir. Texnologiyanın inkişafı sayəsində idarəetmənin, xidmətin təkmilləşdirilməsi, işə qəbul prosesinin, informasiya mübadiləsinin, müştəri xidmətləri və insan resurslarının idarə edilməsinin, xərclərin azaldılması istiqamətində səmərəlilik və effektivliyi artırmaq mümkün olmuşdur. Bütün sahələr üzrə xüsusilə biotexnologiya, nanotexnologiya kimi sahələrdə texnologiya sürətlə irəliləyir. Bu sahə çox diqqət tələb edən perspektivli tədqiqat sahəsidir[2, s.12]. Təşkilati innovasiya – müəssisə və heyət innovasiyasına əsaslanaraq, strateji innovasiya, davranış innovasiyası, proses innovasiyası, məhsul innovasiyasını həyata keçirərək gəliri, səmərəliliyi artırıb, xərcləri azaltmaqdır[4, s. 321]. Müasir dünyada idarəedicilər texnoloji yeniliklərə adaptə olmaqla yanaşı tətbiqi etməyi də bilməlidir. Əks halda 21-ci əsrdə qlobal bazarlarda rəqabətə davamlı olmadıqda uğursuzluqla qarşı- qarşıya qalacaqlardır.

Texnoloji innovasiya anlayışı

Texnologiya və innovasiya bir-biri ilə bağlı olan və bir-birini tamamlayan anlayışdır. Texnologiya nədir? İlk öncə bu sualın cavabını verməyə çalışaq. Texnologiya – Elmi və texniki biliklərdən istifadə edərək insan həyatının daha səmərəli, komfortlu şəkildə yaşamasına kömək edən yeni məhsul istehsalıdır. Yeni məhsulu istehsal etmək üçün istifadə olunan istehsal üsulları, avadanlıqlar, alətlər adıçəkilən texnologiya əsasında hasil edilir.

Bildiyimiz qədəri ilə texnologiyanın 3 əsas elementi var.

- Giriş texnologiyası (iş prosesində istifadə olunan material texnologiyası)
- Proses texnologiyası (iş prosesində proses ardıcıllığının təmini)
- İnformasiya texnologiyası (iş prosesi zamanı istifadə olunan informasiya)


Texnologiya anlayışını araşdırdıqdan sonra innovasiya anlayışını da müəyyən edib müqayisə etmək mümkündür. İnnovasiya– yeni fikirlər, üsullar, xidmətləri iqtisadi bir formada istehsal etməkdir. Buna görə də texnologiya və innovasiya anlayışlarını iqtisadi konsepsiya kimi başa düşürük. İnnovasiyayla texnologiya mütəmadi bir-biri ilə əlaqədə olan biri digərini tamamlayan məfhumdur. Texnologiya iqtisadi keyfiyyət qazandıqda innovasiyaya çevrilir və menecerlər innovativ üsulların tətbiqinə çalışmalıdırlar[3, s.3]. Texnologiya inkişaf etdikcə sosial həyata təsiri də önəmli dərəcədə artır. Bir müəssisənin ən önəmli tərəfi çatmaq istədiyi məqsədə gediləcək yolda istifadə etdiyi texnologiyadır. Hansı işlər görüləcək, bunları icra edəcək şəxslərə lazım olacaqlar, heyətin işdən məmnuniyyəti, istehsal miqdarı və keyfiyyəti, fərdi və ya qrup şəklində çalışmaq, informasiya mübadiləsi və s. kimi mövzular texnologiya ilə qarşılıqlı nüfuz içindədirlər[3, s.4]. Texnologiya fərdi, qrup,

təşkilati əlaqələrinə, idarəetmə texnikalarına bilavasitə təsir edir. İnsanın fiziki əməyinə ehtiyac qalmadan həyata keçən fəaliyyətlərdə texnologiyadan ən səmərəli şəkildə istifadə olunur. Çünki texnologiyadan istifadə müəssisələrdə işçi xətalarını, xərclərini, maraq toqquşmalarını xeyli azaldır. Dəyişən və inkişaf edən dünyada texnologiyanın təsiri ilə iqtisadiyyatda 3 yeni balans formalaşmışdır. Bunlar:

- Sənaye iqtisadiyyatının ənənəvi məhsul istehsalından ayrılması;
- Sənaye iqtisadiyyatı daxilində istehsalın məşğulluqdan ayrılması;
- Ticarətdən çox kapital axınının dünya iqtisadiyyatının hərəkətverici qüvvəsinə çevrilməsidir.

Şəkil 1. Müəssisələrin internetdən istifadə məqsədlərinə görə bölgüsü, faizlə

Müəssisələrin internetdən istifadə məqsədlərinə görə bölgüsü, faiz göstəricisi yuxarıdakı cədvəldə qeyd edilmişdir[6]. Müəssisələrin daha



səmərəli, məhsuldar hala gəlməsi üçün idarəedicilər texnoloji innovasiyalardan istifadə edir. İdarəedicilərin qarşılaşdığı ən böyük və önəmli problemlərdən biri işçilərlə bağlı olan problemdir. Çünki texnologiya və innovasiyanın təsiri nəticəsində əmək informasiya əsaslı bir elementə keçdiyindən təhsilli işgücünə ehtiyac artmışdır. Texnoloji inkişaf və müəssisələrdə innovasiyanın tətbiqi idarəedicilərin öhdəliklərini daha asan və qısa zamanda yerinə yetirməsinə kömək edir. Yüksək texnologiya nəticəsində idarəedicilər güvənilir, dəqiq datalar əldə edərək effektiv çalışır və daha çox məhsuldarlıq əldə edirlər.

İdarəedicilər innovasiyanı tətbiq edərkən müəssisədəki artıq məsrəflərin və münaqişələrin qarşısını asanlıqla almaq üçün bunlara diqqət etməlidirlər:

- İnsan münasibətlərinin zəruriliyinə;
- Tabeliliyindəkilərlə kommunikasiyaya;
- Müəssisənin maliyyə vəziyyətinin diqqətli və detallı şəkildə gözdən keçirilməsinə.

Texnoloji yenilikləri tətbiq edərkən yaranan müqavimətin qarşısını almaq üçün menecerlərin istifadə etdiyi üsullar:

a) Texnoloji innovasiyanı uyğun zamanda tətbiq etmək;
b) İşdən çıxarılma qorxusunun aradan qaldırılması;
c) Qarşılıqlı informasiya mübadiləsinin təmini;
d) Texnoloji innovasiyalar üzərində təlimlərin keçirilməsi;
e) Birlik, vəhdət şəklində fəaliyyət göstərmək;
f) Təhsil, təlim və inkişafa əhəmiyyət vermək.

Turizmdə innovativ dəyişikliklərə təsir edən texnoloji amiləri sadalayarkən ilk növbədə informasiya-kommunikasiya texnologiyalarını və nəqliyyat imkanlarını qeyd etmək lazımdır. Turizm sahəsində innovasiya intellektual fəaliyyətin, əvvəlkilərə bənzəməyən təxəyyülün, yaradıcılığın rasiomallaşdırılmış nəticədidir[5, s.50]. Elektron turizm – innovativ dəyişikliklərin bir başqa istiqamətidir. İnsanlar getmək istədikləri ölkələrdəki məkanlar, gəzməli-görməli yerlər, qidalanma, gecələmə, xidmətlər haqqında məlumatı internet vasitəsilə müxtəlif sosial şəbəkələr, online platformalar üzərindən əldə edirlər. Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük vətən müharibəsindən sonra işğal altında olan ərazilərimizin bərpası ilə əlaqədar olaraq, 2 fevral 2021-ci il tarixində imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamına əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 əsas Milli Prioritetin reallaşdırılması üzrə müəyyən edilmiş sahələrdən biri kimi azad olunmuş ərazilərə Böyük Qayıdış proqramının icrası bu baxımdan mühüm əhəmiyyət kəsb edir[1, s.84-85]. İşğaldan azad olunmuş ərazilərimiz eko-turizmi inkişaf etdirmək üçün çox gözəl şəraitə sahibdirlər. Kəlbəcər, Şuşa, Xankəndi şəhərlərində sanatoriya turizmini inkişaf etdirmək üçün turizm zonaları yaradılır. Bu da rayonun, kəndin ümumilikdə ölkənin gəlirinin artmasına səbəb olacaq. Bu yöndə təbliğatın aparılması üçün texnoloji innovasiyaların turizm müəssisələrinə və eləcədə insanlara təsiri əvəzsizdir.

Nəticə. Texnoloji innovasiya menecerləri yaxından maraqlandıran faktorlardandır. Onlar sürətlə dəyişən və inkişaf edən rəqabət mühitində üstünlük əldə etmək üçün texnologiyanı və innovasiyanı izləməli, eləcə də daima uzaqgörən olmaqla yanaşı yeniliklərə açıq olmalıdırlar. İdarəedicilərin texnoloji yeniliklərdən qorxmaları və turizm sektorunun ayrı-ayrı müəssisələrində tətbiq etməkdən çəkinmələri məhsuldarlığı aşağı salır. Heyətin yeniliklərə açıq olmaması, innovasiyaya adaptə olmaqda çətinlik çəkməsi menecerlər üçün müxtəlif problemlər yaradır. Hərşeydən əvvəl menecerlər özləri innovasiyaları qəbul etməli və ona ilk onlar uyğunlaşmalıdırlar. Bunu təmin etdikdən sonra heyət üzvlərinin məlumatlandırılması, təlimatlandırılması, öyrədilməsi daha asan olacaqdır.

Ədəbiyyat

1. Sultanova R.P. "Azərbaycanda turizmin inkişafının dövlət tənzimlənməsi.Müasir
dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda respublika konfransının materialları. Azərbaycan Turizm və Menecment Universiteti, Bakı-2021, səh.84-85.
2. Marlon Fernandes Rodrigues Alves, Simone Vasconcelos Ribeiro Galina, Silvio
Dobelin "İnnovation and Management Review", 2016, səh.12
3. Mehmet Akif Demircioğlu, Organizational İnnovational, School of Public and
Environmental Affairs, İndiana University-Bloomington, Bloomington, İN, USA, 2016, səh 1-5.
4. M.Kürşat Timuroğlu, Büşra Yılmaz, Atatürk Unniversiteti, İktisadi ve İdari İlimler
Dergisi, 2021, cild: 35, səh. 321
5. О. В. Никулина, Ю.К.Якунина, Экономический анализ: Теория и практика,
Инновационные технологии в сфере развития туризма в России и за рубежом, 9(312), 2013, стр-50-53
6. https://www.stat.gov.az/source/information_society/

Məqalənin redaksiyaya daxilolma tarixi: 01.04.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.04.2024
Məqalənin çapa qəbul olunma tarixi: 11.04.2024

DOI: doi.org/10.61226/12.2.2023/20241.3
UOT 33. 338
Əlirza ABDULLAYEV
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant
elibeyaqil066@mail.ru
https://orcid.org/0009-0000-3638-506X

BEYNƏLXALQ TURİST AXINLARININ DAYANIQLI İNKİŞAFDA MƏŞĞULLUĞA TƏSİRİ

Xülasə: Beynəlxalq turist axınının davamlı inkişafda məşğulluğa təsiri müasir qloballaşan dünyada mühüm əhəmiyyət kəsb edən mövzudur. Ölkələr iqtisadi artımı ətraf mühitin mühafizəsi və sosial ədalətlə balanslaşdırmağa çalışdıqca, turizmin dayanıqlı inkişafın təşviqində rolu müzakirələrin və tədqiqatların mərkəzinə çevrilib.

Turizm sektoru, mühüm bir iqtisadi güc olaraq, bir çox regionlarda iş yerlərinin yaradılmasına töhfə vermə potensialı ilə tanınır. Beynəlxalq turist axını, turizm sənayesinə çox asılı olan regionlarda ciddi iş imkanları yaradır və bu da sosial-iqtisadi mənzərənin formalaşmasına və inkişafına yardım edir. Bu, yerli icmaların dolanışıq vasitələrini də daxil olmaqla, destinasiyaların ümumi davamlılığına də təsir göstərir.

Turizmin dayanıqlı inkişafının təşviqi məsələsi, dünyanın bütün ölkələrində aktiv bir mövqedə müzakirə olunur. Bir çox ölkə, turizm sənayesinin inkişafına dəstək verir və bu sahədə yeni imkanlar yaradır. Turist axınının davamlı artması, ölkələrin sosial və iqtisadi əməkdaşlıq sahəsində daha yaxşı siyasət aparmasın imkan yaradır.

Beynəlxalq turist axınının artması, ölkələrin iqtisadi inkişafına səbəb olur və bu da sosial vəziyyətinin yaxşılaşmasına kömək edir. Turizm, yerli səfərlərin və xarici turistlərin ölkəni ziyarət etməsi ilə iş sahələri yaratma imkanı yaradır. Bu da işsizlik problemini həll etməyə kömək edir və əhalinin gəlir səviyyəsini artırır.

Beynəlxalq turist axınına təsir edən əsas amillərdən biri də səyahət və turizmi tənzimləyən hüquqi baza və qaydalardır. Viza siyasəti, sərhədlərin qəbul qaydaları, təhlükəsizlik tədbirləri beynəlxalq turizmin və məğulluğun böyüməsini ya asanlaşdıra, ya da əngəlləyə bilər. Məhdudlaşdırıcı viza tələbləri, təhlükəsizlik problemləri və ya geosiyasi qeyri-sabitliyi olan ölkələr turistlərin gəlişində azalma, açıq viza siyasətləri, güclü turizm infrastrukturu və canlı mədəni görməli yerləri olan ölkələrdə isə ziyarətçilərin sayı arta bilər.

Turizm sektoru həmçinin ölkələrin mədəniyyəti və tarixi ilə bağlı olan mühüm bir hissəsini əhatə edir. Turistlərin ölkəni ziyarəti, ölkənin mədəni və turistik məkanlarının tanıdılmasına və təbii ehtiyatların qorunmasına da kömək edir. Bu da turizm sənayesinin davamlı inkişafına və turizmin sürətli artımına səbəb olur.

Açar sözlər: regionlar, beynəlxalq turizm, məşğulluq, bölgü, əhali, təmin edilmə, turizm sektorunun inkişafı

Alirza ABDULLAYEV

IMPACT OF INTERNATIONAL TOURIST FLOWS ON EMPLOYMENT IN SUSTAINABLE DEVELOPMENT

Abstract: The impact of international tourist flows on employment in sustainable development is an important topic in the modern globalized world. As countries seek to balance economic growth with environmental protection and social justice, the role of tourism in promoting sustainable development has become the focus of discussions and research.

The tourism sector, as an important economic power, is known for its potential to contribute to the creation of jobs in many regions. The international tourist flow creates serious job opportunities in regions heavily dependent on the tourism industry, which contributes to the formation and development of the socio-economic landscape. This also affects the overall sustainability of destinations, including the livelihoods of local communities.

The issue of promoting sustainable development of tourism is being discussed in an active position in all countries of the world. Many countries support the development of the tourism industry and create new opportunities in this area. The continuous increase in the tourist flow allows countries not to pursue better policies in the field of social and economic cooperation.

The increase in the flow of international tourists leads to the economic development of countries, which contributes to the improvement of their social status. Tourism provides an opportunity to create business areas with local visits and foreign tourists visiting the country. This also helps to solve the problem of unemployment and increases the income level of the population.

One of the main factors affecting the international tourist flow is the legal framework and rules governing travel and tourism. Visa policies, border acceptance rules, security measures can either facilitate or hinder the growth of international tourism and prosperity. Countries with restrictive visa requirements, security issues or geopolitical instability may experience a decline in tourist arrivals, while countries with open visa policies, strong tourist infrastructure and vibrant cultural attractions may see an increase in the number of visitors.

The tourism sector also covers an important part of the country's culture and history. Visiting the country by tourists also contributes to the promotion of the country's cultural and tourist attractions and the conservation of Natural Resources. This also leads to the sustainable development of the tourism industry and the rapid growth of Tourism.

Keywords: regions, international tourism, employment, distribution, population, provision, development of the tourism sector

Алирза АБДУЛЛАЕВ

ВЛИЯНИЕ МЕЖДУНАРОДНЫХ ТУРИСТИЧЕСКИХ ПОТОКОВ НА ЗАНЯТОСТЬ В УСТОЙЧИВОМ РАЗВИТИИ

Абстракт: Влияние международного туристского потока на занятость в устойчивом развитии является важной темой в современном

глобализированном мире. Поскольку страны стремятся сбалансировать экономический рост с защитой окружающей среды и социальной справедливостью, роль туризма в содействии устойчивому развитию стала предметом дискуссий и исследований.

Сектор туризма, как важная экономическая сила, известен своим потенциалом способствовать созданию рабочих мест во многих регионах. Международный туристский поток создает серьезные возможности трудоустройства в регионах, сильно зависящих от индустрии туризма, что способствует формированию и развитию социально-экономического ландшафта. Это также влияет на общую непрерывность направлений, включая средства к существованию местных сообществ.

Вопрос содействия устойчивому развитию туризма обсуждается с активной позиции во всех странах мира. Многие страны поддерживают развитие индустрии туризма и создают новые возможности в этой сфере. Устойчивый рост туристского потока позволяет странам проводить более эффективную политику в области социального и экономического сотрудничества.

Увеличение международного туристского потока ведет к экономическому развитию стран, что способствует улучшению их социального положения. Туризм создает возможности для создания рабочих зон с местными визитами и иностранными туристами, посещающими страну. Это также помогает решить проблему безработицы и повышает уровень доходов населения.

Одним из основных факторов, влияющих на международный туристский поток, является правовая база и нормативные акты, регулирующие путешествия и туризм. Визовая политика, правила приемки границ, меры безопасности могут либо способствовать, либо препятствовать росту международного туризма и занятости. Страны с ограничительными визовыми требованиями, проблемами безопасности или геополитической нестабильностью могут столкнуться с сокращением прибытия туристов, в то время как страны с открытой визовой политикой, сильной туристической инфраструктурой и яркими культурными достопримечательностями могут увеличить количество посетителей.

Сектор туризма также включает в себя значительную часть стран, связанных с их культурой и историей. Посещение страны туристами также способствует продвижению культурных и туристических достопримечательностей страны и сохранению природных ресурсов. Это также приводит к устойчивому развитию индустрии туризма и быстрому росту туризма.

Ключевые слова: регионы, международный туризм, занятость, распределение, население, предоставление, развитие туристического сектора

Məqsəd və metodologiya: Aparılan bu tədqiqat işi ilə davamlı inkişaf çərçivəsində beynəlxalq turizm və məşğulluq arasında çoxşaxəli əlaqələri araşdırır. Bu əlaqənin iqtisadi təsirlərdən tutmuş sosial-mədəni mülahizələrə qədər müxtəlif ölçülərini araşdıraraq, turizmin müsbət dəyişiklik üçün bir

qüvvə rolunu oynamasını təmin etmək üçün əldə edilməli olan mürəkkəb tarazlığa işıq salmağı hədəfləyirik.

Empirik tədqiqat nəticələrinə görə, bir ölkəyə gələn turistlərin sayının artırılması həmin ölkənin iqtisadiyyatına, xüsusən də ümumi daxili məhsul (ÜDM), məşğulluq imkanları, gəlirlər və valyuta gəlirləri baxımından bir sıra faydalı təsirlər göstərə bilər.

Tədqiqatın nəticləri: Tədqiqat işimdə beynəlxalq turizm axınlarını yaradan əsas turizm bazarlarını vurğulayır və turizmin iqtisadiyyata birbaşa, dolayı və induksiya olunmuş töhfələrini ortaya qoyur. Faktlar sübut etdi ki, əhalinin məşğulluğunun təmin edilməsində turizm və səyahət sektorunun əhəmiyyəti böyükdür. İnkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlar üçün, yeni turizm mənbələrinin kəşfi, turizm sənayesinin inkişafı çox əlverişlidir.

Tədqiqatın əhəmiyyəti əldə edilən məlumatların və nəticələrin öyrənilməsi, insanlara məsələnin əhəmiyyəti və araşdırma ehtiyacı barədə məlumat verməkdir.

Giriş

Müasir dünya iqtisadiyyatında mühüm məsələlərdən biri davamlı iqtisadi inkişafın təmin edilməsidir. Buna görə də əksər iqtisadi ədəbiyyatda "dayanıqlı inkişaf" və ya "dayanıqlı iqtisadi inkişaf" anlayışından geniş istifadə olunur. Hazırda "dayanıqlı inkişaf" termini ilə bağlı müxtəlif anlayışlar olsa da, bütün hallarda ortaq məqam ondan ibarətdir ki, dünyada və müxtəlif ölkələrdə baş verə biləcək iqtisadi, sosial və ekoloji böhranların vaxtında qarşısının alınması böyük ölçüdə iqtisadi artımın davamlılığından asılıdır. "Dayanıqlı inkişaf" iqtisadi inkişafa köhnə, ənənəvi yanaşmaya qarşı çıxmaq və təbii ehtiyatlardan, enerjidən, rekreasiya resurslarından və biomüxtəliflikdən təkcə indiki nəslin ehtiyaclarını ödəmək üçün deyil, həm də gələcək nəsillərin rifahı üçün istifadə etmək deməkdir. Başqa sözlə, "dayanıqlı inkişaf" anlayışı təbiətin ekoloji böhranına cəmiyyətin özünün böhranı kimi yanaşır. [2,4,6]

Mətn

Azərbaycanda Turizmi təhlil edərkən, şahidi olurq ki, Azərbaycan, şərqin və qərbənin kəsişdiyi coğrafi mövqeyi ilə təbii möczələr, tarixi və mədəni irs ilə dünya turizm bazarında öz yerini möhkəmləndirir. Qeyri-neft sektorunun, bir qolu olan və yeni formalaşma yolunda olan turizm sənayemiz, son illərdə turist axınında bəzi dəyişikliklər yaşamışdır. 2017-ci ildə başlayan və 2022-ci ilə qədər davam edən bu prosesdə xüsusi yer tutan beş əsas ölkədən gələn turistlərin sayında müşahidə etmək mümkündür.

Ümumdünya Turizm Təşkilatının araşdırmaları göstərir ki, son illər qlobal iqtisadi və maliyyə böhranları dünyanın bir çox turizm mərkəzlərində obyektiv çətinliklər və qeyri-sabit siyasi vəziyyətlər yaratmışdır. Son zamanlar qlobal turizm vəziyyəti ümumilikdə sabit olsa da, ən çox dünya iqtisadiyyatına təsir edir. Ən böyük, yüksək gəlirli və sürətlə inkişaf edən sahələrdən biri kimi mövqeyini qorumaq. Məqalədə Azərbaycan beynəlxalq turistlərin qəbuluna görə orta və aşağıda ilk beşlikdə yer alır. 2017-2022-ci illərdə aşağıdakı ölkələrdən gələn turistlərin ümumi sayı Rusiya turistlərin sayında xüsusi çəkisini hesablayaraq ilk beşliyə daxil olub. Yarışlar Gürcüstan, Türkiyə, İran və Birləşmiş Ərəb Əmirliklərində də keçirilib. Bu ölkələrin 2017-ci ildəki

xüsusi çəkiləri 2022-ci ildə Rusiyada 3,8%, Gürcüstanda 15,0%, İranda 2,8%, Birləşmiş Ərəb Əmirliklərində 1,5% təşkil edir. Azalmaya baxmayaraq, yalnız Türkiyə 8,4% artıb. [12, 13]

Rusiya Federasiyası, coğrafi yaxınlığı və ən əsası ölkələr arası yaxşı qonşuluq münasibətləri sayəsində Azərbaycan üçün ən böyük turist mənbəyidir. Ölkəmiz ərazisində bir çox mədəni və tikinti abidələri, gözəl təbiət mənzərələri, muzeylər və müəssisələr yer alır ki, rusiyalı turistlərin diqqətini cəlb etmək üçün idealdır. Rusiyalı turistlərin Azərbaycana gəlməsinin bir səbəbi də, artıq bir neçə ildir davam Rusiya-Ukraniya müharibəsinin nəticəsidir ki, rus vətəndaşlarının ən çox maraqlandırılan turistlər qrupunu təşkil edir. 2017-ci ildə 854,331 min nəfər rusiyalı turist ölkəmizi ziyarət etmişdir və bu say 2022-ci ildə 446,712 min nəfərə qədər düşmüşdür. Bu, turist sayında 50%-dən çox azalma deməkdir.

Gürcüstan və Türkiyə də Azərbaycanın ən böyük beynəlxalq turist axını mənbəyidir. Gürcüstanla sərhədə olması və yaxın məsafəsi səbəbində turist axını bu ölkədən daim yüksəkdir. Türkiyə isə təbii turizm mövqeyi, mədəni irs və xidmət keyfiyyəti ilə turistləri cəlb etməkdə heç vaxt geri qalmır. 2022-ci ildə Tükiyədən gələn turistlərin sayında 9,87 min nəfər artım olmuşdur ki, bu da daima inkişaf etməkdə olan turizm sektorunun vacib göstəricilərindən biridir.

Lakin, İran və BƏƏ də Azərbaycan üçün ən az gəlir əldə edilən turist mənbəyidir. İranda iqtisadi və siyasi məhdudluqlar, BƏƏ isə coğrafi yaxınlıq və daha ucuz alternativ turlar səbəbi ilə bu ölkələrdən gələn turist sayı müəyyən azalış nümayiş etmişdir. 2022-ci ildə bu iki ölkədən gəlmiş turist sayında aşağı istiqamət müşahidə olunsa da, bu ölkələrin turist potensialını qaldırmaq və novator turlar təklif etmək mümkündür. Qeyd edək, 2022-ci il ilə müqayisədə 2017-ci ildə BƏƏ-dən 102,498 nəfər təşkil etsə də, bu rəqəm 2022-ci ildə 2.5 dəfə azalmışdır.

Azərbaycan elə bir coğrafi məkanda yerləşir ki, burada təbiətin demək olar ki, bütün gözəlliklərinə rast gəlinir. Azərbaycanın turistik bölgəyə çevrilməsi üçün burada çox geniş imkanlar var. Turizmin inkişafı iqtisadiyyatımızın güclənməsi, gəlirlərin xeyli artması və ən əsası, regionların sosial-iqtisadi inkişafının əsasını təşkil edə bilər. Ümumiyyətlə, Azərbaycan turizm sektorunda daim inkişaf etməkdir və bu sahədə yuxarıda təhlil olunan və göstərilən ölkələrdən gələn turistlərin əhəmiyyəti vacibdir. Bununla birlikdə digər əsas turist mənbəylərinin də mövcud vəziyyətini inkişaf etdirmək, yaxşı xidmət keyfiyyəti təqdim etmək və turistləri cəlb etmək üçün strateji tədbirlər görməliyik. Azərbaycanın turizm potensialını artırmaq üçün qonşu və viza tədbiq olunmayan ölkələrdən turistləri cəlb etməkdən başqa, digər beynəlxalq turist mənbəylərini əhəmiyyətini bilərək onları kənara qoymamalıyıq. Bu, turizm sektorunda sürətli və inkişafçı bir yolda gedəcəyimizə dair bir isbatdır. [5,8] Aşağıdakı cədvəl 1-də təhlil olunmuş ölkəmizdə Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər diqqət yetirək.

Cədvəl 1. Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər

	2017	***2018***	***2019***	***2020***	***2021***	***2022***
Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər	*46837*	*53222*	*58972*	*49019*	*53717*	*63109*
Turizm üçün xarakterik sahələrdə yaradılımış əlavə dəyər, milyon manat	*3151.2*	*3405.5*	*3704.9*	*1386.7*	*1939.7*	*3917.8**
Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə %	*4.5*	*4.3*	*4.5*	*1.9*	*2.1*	*2.9**
Turizm üçün xarakterik sahələrə yönəldilən investisiyalar, milyon manat	*267.3*	*229.7*	*133.7*	*45.8***	*242.4*	*99.3**

**ilkin məlumat*
***məlumat dəqiqləşdirilmişdir*

Cədvəl 1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin verdiyi göstəricilər əsasında müəllif tərəfindən hazırlanmışdır.[1, 13]

Azərbaycanda turistlərin yerləşdirmə biznesi dinamik surətdə inkişaf edir. Əvvəlki illərlə müqayisədə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 4 dəfədən çox artmışdır ki, bu da turistləri qəbul edilməsi baxımından əhəmiyyətə malikdir. Turizm zonalarına gələnlərin sayında artım müşahidə olunmaqdadır. Turizm sektorunda olan bu artım, ölkəmizə daha çox turist gətirməkdə və turizm sahəsində daha böyük bir möhtəşəmlik yaratmaqda göstərici olaraq qarşımıza çıxır. [14, 16]

Bir sıra tədqiqatlarda turizm və mehmanxana biznesinin mənzil, iaşə və içki müəssisələri, nəqliyyat xidmətləri, turizm agentlikləri, turizm şirkətləri, təbii və mədəni turistik kimi sektorlarda müxtəlif iş imkanları yaratdığı qənaətinə gəlinmişdir.

Belə ki, turistlərin yerləşdirilməsi (yaşaması) və ictimai iaşə (qidalanma) sahələrində müvafiq olaraq nəhəng mehmanxana və restoran zəncirlərini formalaşdırmışdır. Aşağıdakı cədvəl 2-də Mehmanxana (hotel) və memanxana tipli obyektlərdə içilərin sayı göstərilmiş və təhlil edilmişdir.

Cədvəl 2. Mehmanxana (hotel) və memanxana tipli obyektlərdə içilərin sayı

nəfər

	2017	**2018**	**2019**	**2020**	**2021**	**2022**
İşçilərin sayı - cəmi O cümlədən mülkiyyət növləri üzrə:	**10015**	**11407**	**12481**	**10731**	**11143**	**12314**
dövlət	899	996	1012	1012	1044	1239
qeyri-dövlət	9116	10411	11469	9719	10099	11075
xüsusi	8052	9193	10190	8568	8896	9822
xarici	530	575	593	539	591	618
Birgə	534	643	612	612	612	635

Mənbə: ***Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin verdiyi göstəricilər əsasında müəllif tərəfindən hazırlanmışdır.*** [1, 13, 16]

Qəbul olunmuş Dövlət Proqramının başlıca məqsədi Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsidir. Bu proqram, turizm sahəsindəki potensialın tam şəkildə işlənməsi və mövcud imkanların mümkün qədər effektiv istifadə edilməsinə yönlənmişdir. Artıq bu sahədə irəliləyişlər görülməkdə olaraq, Azərbaycan turizm sahəsində dünya sıralamasında daha yüksək bir konuma çatmağa nail olmuşdur. [2,3]

Cədvəl 3. Dünya ölkələri üzrə ən çox turist qəbul edən ölkələr, mln.nəfər

№	**Ölkələr**	Ölkəyə gələn beynəlxalq turistlərin sayı				
		2019	2020	2021	2022	2019-cu ilə görə 2022-ci ildə artma və ya azalma,%
1	Fransa	90.9	41.7	48.4	79.4	-12,7
2	İspaniya	83.5	18.93	31.2	71.7	-14,0
3	ABŞ	79.4	19.2	22.1	50.9	-35,9
4	Türkiyə	51.2	15.9	29.9	50.5	-1,5
5	İtaliya	64.5	25.2	26.9	49.8	-21,8
6	Meksika	45	24.3	31.9	38.3	-14,9
7	Böyük Birtaniya	39.4	10.7	6.3	30.74	-22,0
8	Almaniya	35.2	10.9	11.7	28.5	-19,1
9	Yunanıstan	31.3	7.4	14.7	27.8	-11,1
10	Avstirya	22.7	9.6	12.7	26.2	+15,0

Mənbə. "*UNWTO Global and regional tourism performance****" əsasında müəllif tərəfindən tərtib edilmişdir*** [11]

Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar yenidən ciddi narahatçılığını ifadə edərək,

Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

1.Ağdam rayonunun və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal olunmuş rayonlarının işğalını pisləyir;

2.Bundan başqa regionda bütün düşmənçilik hərəkətlərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayonların bombardman edilməsini pisləyir;

3.Bütün hərbi əməliyyatların dərhal dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının

digər bu yaxınlarda işğal edilmiş rayonlarından dərhal, tam və qeyd-şərtsız çıxarılmasını tələb edir;

4.Tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır;

5.Yuxarıdakı 3 və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını bir daha təkrar edir.

6.822 saylı (1993) qətnamənin həyata keçirilməsi səyləri də daxil olmaqla, ATƏM-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həllinə nail olmaq üzrə davam edən səylərini bəyənir, və hərbi əməliyyatların genişlənməsinin bu cəhdlər üçün doğurmuş dağıdıcı nəticələri ilə bağlı ciddi narahatçılığını ifadə edir;

7.Yerləşdirilməsi cədvəli ilə ATƏM-in müşahidə missiyasının hazırlanmasını, həmçinin Müşavirənin regionda iştirakının təmin edilməsi təklifinin Müşavirə çərçivəsində nəzərdən keçirilməsini alqışlayır;

8.Tərəfləri münaqişənin sülh yolu ilə həllinə mane olan hər cür hərəkətlərdən çəkinməyə, və ATƏM-in Minsk qrupu çərçivəsində, həmçinin birbaşa əlaqələr vasitəsilə məsələnin qəti həllinin əldə edilməsi məqsədilə onlar arasında danışıqları davam etdirməyə təkidlə çağırır;

9.**Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 saylı (1993) qətnamənin və hazırkı qətnamənin müddəalarına riayət edilməsi və bu tərəfin ATƏM-in Minsk qrupunun təkliflərini qəbul etməsi məqsədilə Ermənistan Respublikasının hökumətini öz təsirini göstərməkdə davam etməyi təkidlə çağırır;**

10.Dövlətləri münaqişənin intensivləşməsinə və ya ərazi işğalının davam etdirilməsinə apara biləcək hər hansı silahın və hərbi sursatın təchiz edilməsindən çəkinməyə təkidlə çağırır;

11. Mülki əhalinin artan əzablarını yüngülləşdirmək məqsədilə, regionda, xüsusilə münaqişəyə məruz qalmış bütün rayonlarda, humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz təmin edilməsinə bir də çağırır, və bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir;

12.Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi və qaçqın düşmüş şəxslərin öz evlərinə qayıtmalarına kömək göstərməyi xahiş edir;

13. Baş Katibdən ATƏM-in Fəaliyyətdə olan Sədri, həmçinin Minsk qrupunun Sədri ilə məsləhətləşmədə vəziyyət barədə Şuraya məruzələr təqdim etməsinin davam etdirilməsini xahiş edir;

14.Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır. [9]

BMT-nin Təhlükəsizlik Şurasının 874 saylı Qətnaməsi
Qətnamə 874 (1993)
14 oktyabr 1993-cü il
Təhlükəsizlik Şurası,

30 aprel 1993-cü il tarixli 822 saylı (1993) və 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə

Təhlükəsizlik Şurası Sədrinin Şuranın adından verdiyi bəyanata (S/26326) əsaslanaraq,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Dağlıq Qarabağ üzrə Minsk konfransının Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına müraciətlənmiş 1 oktyabr 1993-cü il tarixli məktubunu (S/26522) nəzərdən keçirərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin regionda sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyi ilə əlaqədar dərin narahatçılığını ifadə edərək,

8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilən görüşləri qeyd edərək, və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə həll edilməsinə töhfə verəcəyinə dair ümidlərini ifadə edərək,

Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Münaqişə üzündən insanların məruz qaldığı əzablar və regionda ciddi fövqəladə humanitar vəziyyətlə əlaqədar, və xüsusilə Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi ilə əlaqədar özünün ciddi narahatçılığını bir daha ifadə edərək,

1.Maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi effektiv və daimi etməyə çağırır;

2.ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini və Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini yenidən bəyan edir;

3.28 sentyabr 1993-cü il tarixində ATƏM-in Minsk qrupunun iclasında üzə çıxarılan və Minsk qrupunun doqquz digər üzvünün hərtərəfli dəstəyi ilə Qrupun Sədri tərəfindən maraqlı tərəflərə təqdim olunan "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların yeniləşdirilmiş cədvəli"ni alqışlayır və tərəflərin diqqətinə çatdırır, və tərəfləri onu qəbul etməyə çağırır;

4.Münaqişədən irəli gələn və Yeniləşdirilmiş cədvəldə bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll olunmamış məsələlərin Minsk prosesi kontekstində sülh danışıqları vasitəsilə tezliklə həll edilməsi vacibliyinə əmin olduğunu ifadə edir;

Bu yaxınlarda işğal edilmiş ərazilərdən qoşunların çıxarılması və rabitə və nəqliyyat üçün bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk qrupunun Yeniləşdirilmiş cədvəlində nəzərdə tutulan qarşılıqlı və təcili addımların dərhal həyata keçirilməsinə çağırır;

6.ATƏM-in Nazirlər Şurasının 24 mart 1992-ci il tarixli mandatına uyğun olaraq, Yeniləşdirilmiş cədvəldə nəzərdə tutulduğu kimi münaqişənin

danışıqlar yolu ilə həll edilməsinə nail olmaq məqsədilə tezliklə Minsk konfransının keçirilməsinə çağırır;

7.Baş Katibdən ATƏM-in Minsk konfransında iştirak etmək üçün nümayəndə göndərmək dəvətinə müsbət cavab verməyi və Konfransın açılmasından sonra mətləbə dair başlanan danışıqlara bütün mümkün kömək göstərməyi xahiş edir;

8.ATƏM tərəfindən yaradılmış müşahidəçilər missiyasını dəstəkləyir;

9.Bütün tərəfləri beynəlxalq humanitar hüququ pozmaqdan çəkinməyə çağırır və münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinin təmin edilməsinə dair 822 (1993) və 853 (1993) saylı qətnamələrindəki çağırışlarını təkrar edir;

10.Regionda bütün dövlətləri münaqişənin genişlənməsinə gətirib çıxaran və regionda sülh və təhlükəsizliyi pozan hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə təkidlə çağırır;

11.Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardımın göstərilməsini və qaçqınlara və məcburi köçkünlərə təhlükəsiz şəraitdə və ləyaqətlə öz evlərinə qayıtmağa köməklik edilməsini xahiş edir;

12.Baş Katibdən, ATƏM-in Fəaliyyətdə olan Sədrindən və ATƏM-in Minsk Konfransının Sədrindən.

Minsk prosesinin gedişi və yerdə vəziyyətin bütün aspektləri və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrin verilməsini davam etdirməyi xahiş edir;

13.Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır. [10]

BMT-nin Təhlükəsizlik Şurasının 884 saylı Qətnaməsi

Qətnamə 884 (1993)

12 noyabr 1993-cü il

Təhlükəsizlik Şurası,

30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993) saylı qətnamələrini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həyata keçirilən sülh prosesi, və ATƏM-in Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini təsdiq edərək,

ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının Fəaliyyətdə olan Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına müraciətlənmiş 9 noyabr 1993-cü il tarixli məktubunu və ona əlavələri (S/26718) nəzərə alaraq,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı gərginliyin regionda sülh və təhlükəsizliyi təhlükə altına atması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək,

Atəşkəsin pozulması və buna cavab olaraq gücün həddindən artıq tətbiq edilməsi, xüsusilə Azərbaycan Respublikasında Zəngilan rayonunun və

Horadiz şəhərinin işğalı nəticəsində hərbi əməliyyatların genişlənməsini həyəcanla qeyd edərək,

Azərbaycan Respublikasının və regionda digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etmək məqsədilə gücün tətbiqinin yolverilməzliyini bir daha təsdiq edərək,

Son zamanda böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək,

1.Tərəflər arasında əldə edilmiş atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların yenidən başlanmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikasının ərazisinin bombardman edilməsini pisləyir;

2.**Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun ermənilər tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə** və hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır;

3.ATƏM-in Minsk qrupunun doqquz üzvünün 4 noyabr 1993-cü il tarixli Bəyannaməsini1 alqışlayır və onun tərkibində atəşkəsin dayandırılması haqqında olan birtərəfli bəyanatlarla bağlı təklifləri yüksək qiymətləndirir;

4.Maraqlı tərəflərdən ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü tarixində Vyanada keçirilən iclasında edilən düzəlişlərlə "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların "Yeniləşdirilmiş cədvəlinə" uyğun olaraq hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, Zəngilan rayonundan və Horadiz şəhərindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş başqa rayonlarından işğalçı qüvvələrin çıxarılmasını tələb edir;

5.Maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi təcili bərpa, onu effektiv və daimi etməyə, və ATƏM-in Minsk prosesi və Minsk qrupunun 2-8 noyabr 1993-cü il tarixli iclasında edilmiş düzəlişlərlə birlikdə "Yeniləşdirilmiş cədvəl" kontekstində münaqişənin danışıqlar vasitəsilə həllinin axtarılmasına təkidlə çağırır;

6.Regionda olan bütün dövlətləri münaqişənin genişlənməsinə və regionda sülh və təhlükəsizliyin pozulmasına gətirib çıxara biləcək hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə bir daha çağırır;

7.Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədinin əhalisi də

daxil olmaqla zərər çəkmiş əhaliyə təcili humanitar yardım göstərməyi, və qaçqın və məcburi köçkünlərə təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmaqda köməklik etməyi xahiş edir;

8.Baş Katibdən, ATƏM-in Fəaliyyətdə olan Sədrindən və ATƏM-in Minsk Konfransının Sədrindən Minsk prosesinin gedişi və yerlərdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi, və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrintəqdim olunmasının davam etdirilməsini xahiş edir;

9.Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır. [11]

Ədəbiyyat

1. "Azərbaycan BMT TŞ-nın 4 qətnaməsinin icrasını təmin etdi" 525-ci qəzet 24.09.21
2. Bədəlov Ə. BMT Təhlükəsizlik Şurasının qətnamələri Ermənistan hakimiyyətini ifşa edir. Bu ölkə rəsmilərinin "Qətnamələrdə Ermənistan haqqında heç nə yoxdur" fikri reallıqdan uzaqdır. "Xalq qəzeti".-2014.-8 noyabr.-N 244.-S.1.
3. Cəfərli R., BMT platformasında Qarabağ zəfəri "Azərbaycan" qəz. 26 Sentyabr 2021
4. İslamoğlu R. Azərbaycan diplomatiyasının BMT qələbəsi. "Azərbaycan" qəz. 2009.- 18 iyun.- S. 1,2.
5. Ömərov V. BMT-nin Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair 874 və 884-cü qətnamələri. "Səs" qəz. 11 İyul 2013
6. Rais Ə, BMT-nin 4 qətnaməsinin ömrü nə qədərdir? " Yeni müsavat" 02.02.2019
7. Səfərov M. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını özü təmin etdi. "Yeni Azərbaycan" qəz. 20.10.2022
8. https://idp.gov.az/z/law/84/parent/15
9. https://idp.gov.az/az/law/85/parent/15
10. https://idp.gov.az/az/law/86/parent/15
11. https://idp.gov.az/az/law/87/parent/15
12. Гулузаде В. Среди врагов и друзей. Статьи ,интервью, выступления. Баку 2002, 231 с.

Məqalənin redaksiyaya daxilolma tarixi: 22.02.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.03.2024
Məqalənin çapa qəbul olunma tarixi: 07.03.2024

DOI: doi.org/10.61226/12.2.2023/20241.9
UOT: 33
Maqsud QULİYEV
Azərbaycan Kooperasiya Universiteti, doktorant
maqsud226@mail.ru
https://orcid.org/0009-0009-5973-394X

TÜRKDİLLİ DÖVLƏTLƏRİN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN TƏHLİLİ

Xülasə: Tədqiqat türkdilli dövlətlərin – Türkiyə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstanın xarici ticarət əlaqələrini, idxal ixracında ilk beşliyinin təhlilini özündə ehtiva edir. Bundan əlavə türk cümhuriyyətlərində işsizliyin səviyyəsi, əhali sayı, minimum əməkhaqqı və Dünya Bankı tərəfindən hazırlnan Doing Business (biznesin həyata keçirilməsi mühitinin qiymətləndirilməsi) hesabatları bu araşdırmada öz əksini tapmışdır. Beynəlxalq Valyuta Fondu tərəfindən hazırlanan proqnoz göstəricilər 2028-ci il üzrə əhali sayında artımın olacağını proqnozlaşdırır və əhali artımı eyni zamanda yeni iş yerlərinin yaradılmasını diktə edir. Buna görə də işsizliyin 2028-ci il səviyyəsi əhali sayı ilə kombinasiyalı şəkildə təhlil olunmuşdur. Tədqiqatda statistik, müayisəli təhlil metdolarından istifadə edilmişdir. Qlobal İnfrastruktur Habı tərəfindən hazırlanan 2024-2040-ci illər üzrə dövlətlərin investisiya trendi və ehtiyacı proqnozları türk dövlətlərindən Türkiyə, Azərbaycan və Qazaxıstanı əhatə etdiyinə görə yalnız bu ölkələrin göstəriciləri tədqiqatda göstərilmişdir. Həmçinin qeyd edilmişdir ki, 2040-cı ilədək olan investisiya ehtiyacı proqnoz göstəricidən daha yüksək ola bilər. Buna səbəb dövlətlərin hazırda yürütdəkləri iqtisadi siyasət və geosiyasi məsələlərdir. Türkdilli dövlətlər böyük təbii ehtiyatlara, iri neft və qaz resurslarına sahibdir və xüsusilə vurğulansa, Azərbaycan, Qazaxıstan və Türkmənistan bu sahədə liderlərdir. Tədqiqat zamanı çətinlik yaradan məqam Türkmənistan tərəfindən dövri statistik məlumatların nəşr olunmaması və xarici ticarət aparılan ölkələr üzrə statistik məlumatların olmamasıdır. Ona görə ixrac və idxal həcmləri əsas götürülərək ilk beşliyə daxil olan ölkələr ümumi səviyyədə götürülmüşdür.
Açar sözlər: ticarət, ixrac, idxal, saldo, türk dövlətləri, Aİ

Magsud GULIYEV
ANALYSIS OF FOREIGN TRADE RELATIONS OF TURKISH SPEAKING COUNTRIES

Abstract: The study includes the analysis of the foreign trade relations of Turkic-speaking countries - Türkiye, Azerbaijan, Kazakhstan, Turkmenistan, Uzbekistan and Kyrgyzstan, and the top five in import and export. In addition, the level of unemployment in the Turkish republics, the population, the minimum wage and the Doing Business (business environment assessment) reports prepared by the World Bank are reflected in this study. Forecast

indicators prepared by the International Monetary Fund predict an increase in population by 2028, and population growth also dictates the creation of new jobs. Therefore, the level of unemployment in 2028 was analyzed in combination with the population. Statistical and quantitative analysis methods were used in the research. Since the investment trend and need forecasts of the states for 2024-2040 prepared by the Global Infrastructure Hub include Türkiye, Azerbaijan and Kazakhstan from the Turkish states, only the indicators of these countries are shown in the study. It was also noted that the need for investment until 2040 may be higher than the forecast indicator. The reason for this is the economic policy and geopolitical issues that the states are currently conducting. Turkic-speaking countries have large natural resources, large oil and gas resources, and Azerbaijan, Kazakhstan and Turkmenistan are the leaders in this field. The point of difficulty during the research is that Turkmenistan does not publish periodic statistical data and there is no statistical data on foreign trade countries. Therefore, the countries included in the top five are taken at the general level based on export and import volumes.

Keywords: trade, export, import, saldo, Turkic states, EU

Магсуд Гулиев

АНАЛИЗ ВНЕШНЕТОРГОВЫХ ОТНОШЕНИЙ ТУРКОЯЗЫЧНЫХ СТРАН

Абстракт: Исследование включает в себя анализ внешнеторговых связей тюркоязычных стран – Турции, Азербайджана, Казахстана, Туркменистана, Узбекистана и Кыргызстана, а также пятёрки лидеров по импорту и экспорту. Кроме того, в данном исследовании отражены уровень безработицы в турецких республиках, численность населения, минимальная заработная плата и отчеты Doing Business (оценка деловой среды), подготовленные Всемирным банком. Прогнозные показатели, подготовленные Международным валютным фондом, прогнозируют увеличение численности населения к 2028 году, при этом рост населения также диктует создание новых рабочих мест. Поэтому уровень безработицы в 2028 году анализировался в сочетании с численностью населения. В исследовании использовались статистические и количественные методы анализа. Поскольку инвестиционный тренд и прогнозы потребностей государств на 2024-2040 годы, подготовленные Глобальным инфраструктурным хабом, включают Турцию, Азербайджан и Казахстан из турецких государств, в исследовании показаны только показатели этих стран. Также было отмечено, что потребность в инвестициях до 2040 года может оказаться выше прогнозного показателя. Причиной тому является экономическая политика и геополитические вопросы, которые в настоящее время проводят государства. Тюркоязычные страны обладают большими природными ресурсами, большими ресурсами нефти и газа, а лидерами в этой области являются Азербайджан, Казахстан и Туркменистан. Сложность исследования заключается в том, что Туркменистан не публикует периодические статистические данные и отсутствуют статистические данные по

внешнеторговым странам. Поэтому страны, входящие в пятерку лидеров, взяты на общем уровне по объемам экспорта и импорта.


Ключевые слова: торговля, экспорт, импорт, баланс, турецкие государства, ЕС

Giriş

Türk cümhuriyyətlərinin xarici ticarətinin, xüsusilə idxal və ixracda ilk 5-liyə daxil olan ölkələrin təhlil olunması əhəmiyyətlidir. Hər bir dövlətin xarici ticarəti ayrı-ayrı qrafiklərdə əks olunacaqdır. Təhlilə keçməzdən əvvəl qeyd edək ki, Azərbaycan və Qazaxıstanın ixracda əsas tərəfdaşı İtaliya, Türkmənistanın Çin, Türkiyənin isə Almaniyadır. Türk dövlətlərindən Türkiyə, Özbəkistan və Qırğızıstanın xarici ticarətində saldo mənfi, qalanlarında müsbətdir. Türkiyə, Azərbaycan və Qazaxıstanın idxalında ilk yerdə, Özbəkistan və Qırğızıstanda isə Çindən sonra II yerdə Rusiya dominantdır. Eyni zamanda Rusiya Özbəkistan və Qırğızıstanın ixracında I yer (müvafiq olaraq 24 və 44%), Qazaxıstanın ixracında isə III yerdədir. Qeyd etmək lazımdır ki, Rusiya-Ukrayna müharibəsindən sonra Orta Asiya türk respublikalarının Rusiyaya ixracı artmışdır. Bu da təbiidir çünki, Qərb dövlətləri sanksiyalardan sonra Rusiyaya ixraca stop qoymuşlar və bu hal Rusiya bazarında boşluq, digər ölkələr üçün isə fürsət yaratmışdır.

Əsas hissə

Türk dövlətlərinin xarici ticarətinin təhlilinə ilk öncə müstəqilliyinin I yüzilliyini 2023-cü ildə tamamlamış və artıq beynəlxalq səviyyədə gedən proseslərdə nüfuzlu söz sahibinə çevrilən Türkiyə Cümhuriyyətindən başlanması məqsədəuyğundur. Türkiyənin ixracında ilk 5-likdə Avropa ölkələrinin payı 18.3%-dir (bax qrafik 1).




Qrafik 1. Türkiyənin xarici ticarəti 2022, mlrd ABŞ dolları ilə [6, 13, 23, 24, 26]

Qrafik 1-ə əsasən 2022-ci ildə 254.1 mlrd ABŞ dollarlıq ixrac həyata keçirən Türkiyənin ilk beşlik ixrac ölkələrinə müvafiq olaraq Almaniya (21.14 mlrd), ABŞ (16.88 mlrd), İraq (13.75 mlrd), Birləşmiş Krallıq (13 mlrd) və İtaliya (12.38 mlrd) daxildir. İdxal göstəricilərində isə 58.8 mlrd ABŞ dolları ilə Rusiya birincidir. Sonrakı yerlərdə 41.35 milyardla Çin, 24.03 milyardla Almaniya, 15.33 milyardla İsveçrə və 15.22 milyardla ABŞ-dir. Qeyd etmək lazımdır ki, Türkiyə Avropa İttifaqı (Aİ) ilə geniş əlaqələrə sahibdir 1963-cü ildə imzalanan Assosiasiya sazişi, 1995-ci ildə Vahid Gömrük Birliyi ilə bu əlaqələr daha da möhkəmlənmişdir.

1999-cu ildən Türkiyə Aİ-yə daxil olmaq üçün artıq namizəd statusu almışdır amma uzun illərdir davam edən danışıqlarda siyasi məsələlərdən dolayı ittifaqa üzvlük masa üzərində qalmışdır. Siyasi məsələlərə gah coğrafiyanı, gah da Aİ-nin xristian mədəniyyətinə dəyəcək zərərləri, miqrasiya məsələləri göstərilmişdir. Unutmaq olmaz ki, ittifaq üzvlərinin əksəriyyəti Türkiyə ilə Şimali Atlantika Alyansı (NATO) çərçivəsində müttəfiqdir. Əgər Türkiyə Aİ-yə üzv olarsa burada qazanclı tərəf tək Türkiyə deyil, NATO-nun II ən böyük ordusuna sahib Türkiyə ittifaqın xarici siyasəti üzrə masada əlini gücləndirə bilər. Bütün bunlarla bərabər Aİ-nin 2022-ci il üzrə 6-cı ən böyük ticarət tərəfdaşı Türkiyədir (Türkiyənin ixracının 41%-i, idxalının 26%-i Aİ-yə məxsusdur) [6]. Türkiyənin xarici ticarətində ən çox ixrac edən III ən böyük şirkətsə Socar Petrol Ticarətdir.

Bütün türk dövlətlərinin 2023-cü ilin aprel-may ayları üzrə statsitik məlumatlarının təhlili əsasında qeyd edilə bilər ki, Türkiyə həm valyuta ehtiyatlarının görə (114.9 milyard) həm də ümumi xarici borcun həcminin böyüklüyünə görə (459.03 milyard-yalnız Türkiyə hökümətinin borcu isə 231 milyard ABŞ dollarıdır) liderdir [4]. Valyuta ehtiyatlarına toxunsaq o zaman türk dövlətləri üzrə azalan ardıcıllıq milyard ABŞ dolları ilə belədir: Qazaxıstan (94.3), Azərbaycan (65), Özbəkistan (35.2) və Qırğızıstan (2.33). Türkmənistan dövləti valyuta ehtiyatları barədə məlumatı açıqlamadığından onun 2017-ci ildə təsdiqlənən ehtiyatları nəzərə alınmışdır-27 milyard ABŞ dolları. Əsas indikator kimi xarici borcun ÜDM-ə nisbətinin %-lə ifadəsidir ki, burada Qazaxıstan 73.28% (160.5 milyard), Türkiyə 50.69%, Qırğızıstan 46.96% (5.1 milyard), Özbəkistan 33.6% (26.1 milyard), Azərbaycan 8.49% (6.69 milyard) və Türkmənistan 6.1%-dir (3.43 milyard) [7, 12, 17, 20, 22, 28]. Qeyd etmək lazımdır ki, Türkmənistanın daxili borclanması yoxdur, yalnız xarici borcu vardır. Türk dövlətləri içərisində Azərbaycan, Türkmənistan və Özbəkistanın valyuta ehtiyatları xarici borcu üstələyir. Dövlətlər xarici borcun idarə edilməsi ilə bağlı müəyyən strategiyalar qəbul etmişlər. Qazaxıstan hökuməti xarici borcun ÜDM-ə nisbətini maksimum 53%, Qırğızıstan isə 60-65% həcmində saxlanması yönündə addımlar atmaqdadır. Azərbaycan hökuməti isə borclanmaları həm aşağı səviyyədə saxlamağı həm də daxili borclanmaya üstünlük verməyi hədəfləyir.

Azərbaycan və Qazaxıstanın xarici ticarəti qrafik 2-də göstərilmişdir. Qeyd etmək lazımdır ki, bu iki türk dövlətinin ixracında təbii ehtiyatların (neft və qaz) xüsusi çəkisi olduqca böyükdür.



Qrafik 2. Azərbaycan və Qazaxıstanın xarici ticarətində ilk 5 ölkə mlrd ABŞ dolları ilə, 2022 [5, 13, 26]


Yuxarıdakı qrafikə əsasən Azərbaycan və Qazaxıstanın ən çox ixrac həyata keçirdiyi ölkə İtaliya (müvafiq olaraq 17.78 və 13.85 mlrd ABŞ dolları), ən çox idxal isə Rusiyadır (müvafiq olaraq 2.73 və 17.3 mlrd ABŞ dolları). Türkiyə Azərbaycanın II, Qazaxıstanın isə V ən iri ixrac ölkəsidir. Azərbaycanın ümumi ixrac və idalı müvafiq olaraq 41.67 və 14.53 mlrd, Qazaxıstanda bu rəqəm 84.39 və 50.04 mlrd ABŞ dolları təşkil etmişdir. Saldo Azərbaycanda müsbət 27.13 mlrd, Qazaxıstanda müsbət 34.35 mlrd ABŞ dollarıdır.

Azərbaycan-Aİ ticari münasibətləri 1999-cu il Tərəfdaşlıq və Əməkdaşlıq sazişinin bünövrəsi üzərində qurulmuşdur. Bu saziş tariflərlə bağlı məsələləri əhatə etməsə də kvotanın ləğvini ehtiva edir. Həmçinin 2004-cü ildən Aİ-nin Avropa Qonşuluq Siyasəti çərçivəsində yaradılan Şərq Tərəfdaşlığına Azərbaycan daxil edilmişdir. 2017-ci ildə tərəflər hərtərəfli saziş barəsində danışıqlara başladılar və 2018-ci ildə Tərəfdaşlıq Prioritetlərinin formalaşdırılmasını razılaşdırdılar. Ən əsas tərəfdaşlıq isə əlbəttə ki, neft-qaz ticarəti üzrədir və tərəflər 2022-ci ildə enerji sahəsində strateji tərəfdaşlıq haqda memoranduma imza atmışlar. 2022-ci il üzrə Azərbaycanın ixracının 51%-i, idxalının isə 16%-i ittifaqın payına düşür [5].

Qazaxıstanla Aİ 1999-cu ildə Azərbaycanla imzalanan eyni adlı müqavilə bağlamışdılar. 2020-ci ildə Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə münasibətlər daha da dərinləşmişdir. Qazaxıstan Aİ-dən Mərkəzi Asiya regionu üzeə ən böyük investisiyanı cəlb edən ölkədir-müstəqillik dönəmində 2022-ci ilə qədərki dövr ərzində 160 milyard ABŞ dolları. Təkcə 2022-ci ildə Aİ-nin Qazaxıstana investisiyası 12 milyard ABŞ dollarından çox olmuşdur [16]. 2022-ci ildə tərəflər yaşıl hidrogenin istehsalı

və paylanması üzrə habın yaradılmasına razılaşdılar. Təxmini hesablamalara görə 32-42 milyard ABŞ dolları olan külək, günəş stansiyalarının inşasını ehtiva edən yeni layihəyə əsasən Qazaxıstan 2030-cu ildən etibarən 2 milyon ton hidrogen istehsal edə biləcək. Bu rəqəm ittifaqın ehtiyaclarının 1/5-ni ödəmək iqtidarında olacaqdır [16]. Ümumilikdə Aİ Qazaxıstanın xarici ticarətində iri tərəfdaşdır (30%-dən yuxarı).

Özbəkistan və Qırğızıstanın xarici ticarət həyata keçirdiyi ilk 5 ölkə qrafik 3-də göstərilmişdir.



Qrafik 3. Özbəkistan və Qırğızıstanın xarici ticarətində ilk 5 ölkə mlrd ABŞ dolları ilə, 2022 [13, 15, 26] ***(müəllif tərəfindən hazırlanıb)***

Qrafik 3-ə əsasən 2022-ci il üzrə Özbəkistanın ticarət saldosu mənfi 11.39 (ixrac 19.30, idxal 30.69 mlrd), Qırğızıstanın isə mənfi 7.44 mlrd ABŞ dollarıdır (ixrac 2.18 mlrd, idxal 9.62 mlrd).Özbəkistanın ixracında top 5-lik azalan ardıcıllıqla Rusiya (2.6 mlrd), Çin (1.75 mlrd), Türkiyə (1.46 mlrd), Qazaxıstan (1.25 mlrd) və Qırğızıstandır (0.926 mlrd). Eyni ardıcıllıqla idxal ölkələri Çin 6.3 mlrd, Rusiya 6.05 mlrd, Qazaxıstan 3.22 mlrd, Cənubi Koreya 2.17 mlrd və Türkiyədir 1.67 mlrd. Qırğızıstanın ixrac ölkələrinin ilk 5-liyində Rusiya 44% (963.51 mln), Qazaxıstan 20% (438.15 mln), Özbəkistan 11% (236.63 mln), Türkiyə 6.4% (139.35 mln) və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) 4.6% (100.83 mln ABŞ dolları) paya sahibdir. İdxal ölkələrinin siyahısının top 5-liyi isə Çin 4.27 mlrd, Rusiya 2.27 mlrd, Qazaxıstan 749.5 mln, Türkiyə 487.3 mln və 362.6 mln dollarla Özbəkistandır.

Türkmənistanın ticari dövriyyədə ilk 5 tərəfdaşı Çin, Türkiyə, İtaliya, BƏƏ və Əfqanıstandır. 2022-ci ildə 15.6 milyardlıq ixracının 11.181 milyard ABŞ dolları Çinə məxsusdur. Türkmənistanın 2022-ci il idxalı 8.5 milyard ABŞ dolları, idxalda I yer isə Türkiyəyə məxsusdur [8].


Türk dövlətlərinin beynəlxalq təşkilatlar çərçivəsində ticarəti

çoxşaxəlidir və ona görə bir neçə əsas beynəlxalq təşkilatda onların fəaliyyətinin təhlili önəmlidir.

Türkiyə istisna olmaqla digər türkdilli dövlətlər iqtisadi birlik kimi tanınan Müstəqil Dövlətlər Birliyi (MDB) təşkilatında təmsil olunurlar. 1991-ci ildə yaradılan MDB əslində keçmiş sovetlərin daxil olduğu respublikaları əhatə edir (Gürcüstan 2009-cu ildə və Ukrayna 2014-cü ildə üzvlükdən çıxıb). Təşkilata üzv ölkələr üçün ticarətin asanlaşdırılması öz növbəsində idxal və ixrac prosesinə müsbət təsir edir. Nümunə üçün deyək ki, Azərbaycan bütün MDB üzvləri ilə (Ermənistan istisna olmaqla) ikitərəfli Azad Ticarət Müqaviləsi imzalamışdır [1]. Eyni müqavilənin türkdilli dövlətlər arasında imzalanması mümkün ticari bariyerlərin aradan qalxmasına və dövriyyənin yüksəlməsinə səbəb olar.

2014-cü ildə yaradılan Avrasiya İqtisadi Birliyi (AİB) adlanan təşkilata isə türkdilli dövlətlərdən Qazaxıstan və Qırğızıstan üzv olmuşdur. Bu təşkilatın cəmi 5 üzvü var və adları qeyd olunan dövlətlərdən əlavə Belarus, Rusiya və Ermənistan iqtisadi birlikdə yer alırlar. AİB-də ticarətin, hərəkətin sərbəstləşdirilməsi, asanlaşdırılması prioritetdir və bu vəziyyət Qırğızıstan və Qazaxıstanın Rusiya ilə daha dərin ticarət əlaqəsi yaratmasına imkan yaratmışdır. Bu yanaşmadan bənzətmə olaraq AİB-ə baxsaq onun Avropa İttifaqına bənzədiyini görə bilərik.

Türk dövlətlərinin xarici ticarətinin təhlili aparılarkən minimum əməkhaqqı, demoqrafik vəziyyət, işsizliyin səviyyəsi və bu ölkələrdəki biznes mühiti nəzərə alınmalıdır. Qeyd olunan göstəricilər qrafik 4-də müfəssəl şəkildə əks etdirilmişdir.



Qrafik 4. Türkdilli dövlətlərdə minimum əməkhaqqı, əhalinin sayı, işsizliyin səviyyəsi və Doing Business reytinqi[1] [2, 3, 18, 19, 21, 26, 29, 30] *(müəllif tərəfindən hazırlanıb)*

[1] Valyutalar 16.05.2023 tarixli məzənnəyə əsasən ABŞ dollarına çevirilib

Qrafik 4-ə əsasən görünür ki, minimum əməkhaqqı göstəricisi üzrə I yer Türkiyə (507.49 ABŞ dolları), II yer Türkmənistandır (332.04 ABŞ dolları). Sonrakı ardıcıllıqla bu rəqəm Azərbaycanda 202.94 ABŞ dolları, Qazaxıstanda 155.55 ABŞ dolları, Özbəkistanda 94.25 ABŞ dolları və Qırğızıstanda 26.71 ABŞ dollarıdır. Dövlətlər dünyada baş verən iqtisadi proseslərin əhaliyə təsirini azaltmaq üçün minimum əməkhaqqını davamlı surətdə artırmışlar.

Demoqrafik göstəricilərinə nəzər saldıqda Beynəlxalq Valyuta Fondunun (BVF) 2028-ci il üzrə proqnozu türk dövlətləri üçün müsbətdir. Ən çox artımın Türkiyədə (85-dən 90.9 milyon nəfərə çatacaq) və Özbəkistanda (36 milyondan 39.7 milyona) olması, Azərbaycan və Qazaxıstanda əhalinin sayı müvafiq olaraq 11 milyon və 21 milyona yüksəlməsi proqnozlaşdırılır. Bu sırlamada Qırğızıstanda 1 milyona yaxın artım, Türkmənistanda isə digər türk dövlətləri ilə müqayisədə ən az artımın olacağı gözlənilir (6.4-dən 6.71 milyona).

Əhali artımı gözlənilirsə təbii ki, ölkələrdə işsizlik səviyyəsinin tədqiqi vacibdir. 2022-ci il göstəricilərinə əsasən türk dövlətləri arasında işsizlik səviyyəsi ən az Qazaxıstanda (4.9%), ən böyük isə Türkiyədədir (10.4%). BVF-in proqnozlarına əsasən 2028-ci ildə Türkiyədə işsizlik səviyyəsində cüzi artım (10.4%-dən 10.5%-ə), Özbəkistanda 3% azalma (8.85-dən 5.85%-ə) olacaqdır Azərbaycan və Qazaxıstanda işsizlik səviyyəsində azalma–müvafiq olaraq 5.5% və 4.8%, Qırğızıstanda isə səviyyənin dəyişməyəcəyi proqnozlaşdırılmışdır-9.1%. Türkmənistan barədə proqnoz hazırlanmamışdır, lakin qeyd edək ki, 2022-ci ildə bu göstərici 5.1% təşkil etmişdir.

Dünya Bankı tərəfindən hazırlanan, 190 ölkədə biznes fəaliyyətinin yaradılması və həyata keçirilməsi üzrə reytinq hesab olunan Doing Business-in sonuncu 2019-cu ilin dekabr nəşrində Türkmənistan istisna olmaq digər türk dövlətləri də yer almışlar. Türk dövlətləri arasında Qazaxıstan reytinqdə liderdir-25-ci yerə sahibdir və bu göstərici ilə Avstriya, Yaponiya, İspaniya və Fransanı qabaqlayır. Türkiyə və Azərbaycan müvafiq olaraq bu reytinqdə 33 və 34-ci yerdə qərarlaşmışdır. Bu iki dövlət yüksək gəlirli hesab olunan İsveçrə, Niderland, Belçika və İtaliya kimi ölkələrlə müqayisədə reytinqdə irəlidədir. Türk dövlətləri arasında bu siyahıda Özbəkistan 69-cu Qırğızıstan isə 80-ci yerdədir [3]. Sonuncu iki türk dövlətinin retyinqdə irəliləməsi üçün iqtisadi tədbirlər həyata keçirməsi, investisiyalar cəlbetməli və yatırmaları, Türkmənistanın isə xarici investorlarda cəlbedicilik yaratması üçün statistik məlumatları nəşr etməsi məqsədəuyğundur.

Türk dövlətlərinin investisiya trend və ehtiyacı

İnvestisiya amili dövlətlərin inkişafı üçün mühüm rol oynayır. Türk dövlətlərinin gələcək inkişafı da əlbəttə ki, investisiyalardan, qarşılıqlı olaraq iqtisadi ticarətin intensivləşdirilməsindən asılıdır. Xüsusilə Orta Dəhliz üzərində yerləşən türkdilli dövlətlərin infrastruktur xərclərinin böyük olması şübhə doğurmur. Bu xüsusda Qlobal İnfrastruktur Hab (GİH) tərəfindən hazırlanan dövlətlərin hazırki dövrlə irəliləyən investisiya trendi və gələcək dövr üzrə investisiyaya ehtiyacı proqnozlaşdırılmışdır. Bu siyahıda yer alan türkdilli Orta Dəhliz dövlətləri Azərbaycan, Türkiyə və Qazaxıstandır (bax: cədvəl 1).

Cədvəl 1

2024-2040-cı illərdə Türkiyə, Azərbaycan və Qazaxıstanın investisiya trend və ehtiyacı, mlrd ABŞ dolları ilə

	Türkiyə	**Azərbaycan**	**Qazaxıstan**
İnvestisiya trendi	413	67	153
İnvestisiya ehtiyacı	726	73	218
Defisit	313	6	65

Mənbə: [9, 10, 11]

GİH-in hesablamaları cədvəl 1-də göstərir ki, 2024-2040-ci illərdə Türkiyə (413 milyard), Qazaxıstan (153 milyard) və Azərbaycan (67 milyard) ardıcıllıqla ən çox infrastruktura yatırım edəcəklər. Türkiyənin hazırki trendlə ayıracağı gözlənilən 413 milyardın 43%-i (177.3 milyardı) Qazaxıstanın isə 153 milyarddan 36.5%-lik hissəni enerji sektorunda infrastruktura yönəldəcək. Hər iki dövlətdə əvvəllərdə aparılan təhlil zamanı da vurğulanmışdır qazlaşma prosesi prioritetdir. Qazaxıstanda əsas investisiya qoyulacaq sahə quru yol şəbəkəsinin, telekommunikasiya sahəsinin təkmilləşdirilməsidir. Azərbaycanda infrastruktura yatırılacaq investisiya trendi GİH proqnozlarına görə 67 milyard ABŞ dollarıdır. Amma qeyd edək ki, Azərbaycan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını minalardan təmizləyib yenidən inşa edir, bütövlükdə ölkənin infrastrukturunu yeniləyir, o zaman bu rəqəmin yüksəlməsi ehtimalı daha da artma meyilindədir.

Bununla belə yatırılacaq investisiyalar tam surətdə ehtiyacları ödəmir. Cədvəl 1-də Türkiyənin 313, Qazaxıstanın 218 və Azərbaycanın 6 milyard ABŞ dolları investisiya ehtiyacı olduğu görünür. 2024-2040-cı illəri əhatə edən dövr üçün Azərbaycan üzrə göstərilən 6 milyard investisiya ehtiyacı hələ azdır.

Nəticə

Türk dövlətlərinin xarici ticarəti üzrə ilk 5-liyə daxil olan ölkələr və ticarətin həcmi geniş şəkildə təhlil olunmuşdur. Ümumi qənaətə əsasən Aİ, Rusiya və Çin türk dövlətlərinin sıx ticarət tərəfdaşlarıdır. Doing business hesabatı isə Qazaxıstan, Türkiyə və Azərbaycanda biznes iqliminin nisbətən yaxşı olduğunu, Özbəkistan və Qırğızıstanda bu sahədə ciddi problemlərin olduğunu və islahatların vacibliyini üzə çıxarmışdır. Əhalinin sayında müsbət dinamikanın müşahidə olunacağı Beynəlxalq Valyuta Fondunun proqnozlarından bəlli olmuşdur və bu tendensiya olduqca müsbət dəyərləndirilməlidir ancaq paralel olaraq işsizliklə bağlı dövlətlər öz siyasətlərini səylə davam etdirməlidirlər. Türk dövlətlərinin xarici ticarətində öz aralarında ticarət həcmini artırmaları və bu istiqamətdə tədbirlər həyata keçirmələri gələcəkdə idxal və ixracda ilk 5-likdə qardaş respublikaların yer tutmasına rəvac verə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti. Beynəlxalq əlaqələr: MDB: [Elektronik resurs] URL:https://competition.gov.az/az/page/haqqimizda/beynelxalq-elaqeler/beynelxalq-teskilatlarla-emekdasliq/musteqil-dovletler-birliyi-mdb
2. 2023 asgari ücret ne kadar? Brüt asgari ücret ne kadar? [Elektronik resurs] / TRT Haber. – 18 aprel 2023. URL: https://www.trthaber.com/haber/guncel/2023-asgari-ucret-ne-kadar-brut-asgari-ucret-ne-kadar-761388.html
3. Ease of Doing Business rankings: [Electronic resource] / World Bank. – 2019. - https://archive.doingbusiness.org/en/rankings
4. Ergocun G. Türkiye's gross external debt stock at $459B at end-2022: [Electronic resource] / Anadolu Ajansi. – March 31, 2023. – URL: https://www.aa.com.tr/en/economy/turkiyes-gross-external-debt-stock-at-459b-at-end-2022/2860456
5. EU trade relations with Azerbaijan. Trade: [Electronic resource] / European Comission. - 2023. – URL: https://policy.trade.ec.europa.eu/eu-trade-relationships-country-and-region/countries-and-regions/azerbaijan_en
6. EU trade relations with Türkiye. Trade: [Electronic resource] / European Comission. – January 11, 2024. – URL: https://policy.trade.ec.europa.eu/eu-trade-relationships-country-and-region/countries-and-regions/turkiye_en#:~:text=In%20addition%20to%20the%20Customs,Mauritius%2C%20South%20Korea%2C%20Malaysia%2C
7. Gross int'l reserves of Kazakhstan grow by USD 3.5 bln in Jan: [Electronic resource] / Kazinform. – Februrary 14, 2023. URL: https://en.inform.kz/news/gross-int-l-reserves-of-kazakhstan-grow-by-usd-3-5-bln-in-jan_a4035493/
8. IMF: Türkmenistan'ın ihracatı 2023'te $15,6 milyarı bulacak: [Elektronik resurs] / Business Türkmenistan. – 15 Mayıs 2023. – URL: https://business.com.tm/tr/post/10235/imf-turkmenistan%C4%B1n-ihracat%C4%B1-2023te-156-milyar%C4%B1-bulacak
9. Infrastructure Outlook: [Electronic resource] / Global Infrastructure Outlook Azerbaijan. – URL: https://outlook.gihub.org/countries/Azerbaijan
10. Infrastructure Outlook: [Electronic resource] / Global Infrastructure Outlook Kazakhstan. – URL: https://outlook.gihub.org/countries/Kazakhstan
11. Infrastructure Outlook: [Electronic resource] / Global Infrastructure Outlook Türkiye. – URL: https://outlook.gihub.org/countries/Turkey
12. International reserves of Kyrgyzstan decrease by $459.9 million in 2023: [Electronic resource] / 24.KG. – May 6, 2023. URL:

https://24.kg/english/265011_International_reserves_of_Kyrgyzstan_decrease_by_4599_million_in_2023/
13. İnternet mənbə: https://tradingeconomics.com/
14. Khitakhunov A. The Risks of the High Government Debt for Central Asia: [Electronic resource] / Eurasian Research Institute. – URL: https://www.eurasian-research.org/publication/the-risks-of-the-high-government-debt-for-central-asia/
15. Kyrgyzstan imports by country: [Electronic resource] / Trading Economics. – 2022. - URL: https://tradingeconomics.com/kyrgyzstan/imports-by-country
16. Quliyev, M.A. Qazaxıstanın yaşıl ixracı: inkişaf imkanları və problemlər // - Bakı: İqtisadi İslahatlar Elmi-Analitik jurnalı, - 2023, № 3 (8), - səh. 66-76.
17. Məhərrəm A. Azərbaycanın xarici borcu azalıb: [Elektronik resurs] / Modern.az. – 17 Mart 2023. – URL: https://modern.az/iqtisadiyyat/401275/azerbaycanin-xarici-borcu-azalib/
18. Minimum Wage – Turkmenistan: [Electronic resource] / WageIndicator Foundation. – 2023. – URL: https://wageindicator.org/salary/minimum-wage/turkmenistan
19. Minimum wage increased in Kyrgyzstan: [Electronic resource] / WageIndicator Foundation. - March 22, 2023. URL: https://wageindicator.org/salary/minimum-wage/minimum-wages-news/2023/minimum-wage-increased-in-kyrgyzstan-march-22-2023#:~:text=The%20minimum%20wage%20has%20been,as%20KGS2%2C337.00%20per%20month
20. Ministry of Finance unveils detailed information on Uzbekistan' national debt: [Electronic resource] / The Tashkent Times. – November 23, 2022. - URL: http://tashkenttimes.uz/finances/10046-ministry-of-finance-unveils-detailed-information-on-uzbekistan-national-debt
21. New Minimum Wages In Kazakhstan In 2023: [Electronic resource] / Leinonen Kazakhstan. - April 20, 2023. – URL: https://leinonen.eu/kaz/news/new-minimum-wages-in-kazakhstan-in-2023/
22. Tarıverdiyev R. Azərbaycanın strateji valyuta ehtiyatları bir ildə 10 mlrd. dollardan çox artıb: [Elektronik resurs] / Apa.az. – 18 aprel 2023. URL: https://apa.az/az/finance/azerbaycanin-strateji-valyuta-ehtiyatlari-bir-ilde-10-mlrd-dollardan-cox-artib-759923
23. Turkey exports by country: [Electronic resource] / Trading Economics. – 2022. - URL: https://tradingeconomics.com/turkey/exports-by-country
24. Turkey imports by country: [Electronic resource] / Trading Economics. – 2022. - URL: https://tradingeconomics.com/turkey/imports-by-country
25. Turkey unemployment rate: [Electronic resource] / Trading Economics. – 2022. -

URL:https://tradingeconomics.com/turkey/unemployment-rate#:~:text=Steady%20at%2010%25-,The%20unemployment%20rate%20in%20Turkey%20was%20unchanged%20at%2010%20percent,women%20(at%2013.8%20percent)
26. Türk İqtisadi İcmalı: yanvar-dekabr 2022 / İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyinin birgə xüsusi buraxılışı – Bakı – 2023. – 28 səh.
27. Türkmenistan: Genel Ülke Profili: [Elektronik resurs] / T.C. Çalışma ve Sosyal Güvenlik Bakanlığı. – URL: https://www.csgb.gov.tr/digm/contents/dis-temsilciliklerimiz/yabanci-ulke-bilgileri/turkmenistan/
28. Uzbekistan's international reserves shrank by $230 million in April: [Electronic resource] / Gazeta.uz. – May 11, 2023. URL: https://www.gazeta.uz/en/2023/05/11/reseerves/
29. Wages, pensions and allowances to increase twice in 2023: [Electronic resource] / Kun.uz. - April 1, 2023. – URL: https://kun.uz/en/news/2023/04/01/wages-pensions-and-allowances-to-increase-twice-in-2023
30. World Economic Outlook Database April 2023: [Electronic resource] / International Monetary Fund. – URL: https://www.imf.org/en/Publications/WEO/weo-database/2023/April/weo-report?c=911,912,915,429,439,916,443,917,925,927,&s=TM_RPCH,TMG_RPCH,TX_RPCH,TXG_RPCH,LUR,LP,GGR,GGR_NGDP,GGX,GGXWDN,GGXWDN_NGDP,GGXWDG,GGXWDG_NGDP,&sy=2021&ey=2028&ssm=0&scsm=1&scc=0&ssd=1&ssc=0&sic=0&sort=country&ds=.&br=1

Məqalənin redaksiyaya daxilolma tarixi: 16.04.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.04.2024
Məqalənin çapa qəbul olunma tarixi: 19.04.2024

DOI: doi.org/10.61226/12.2.2023/20241.8
UOT: 94 (479.24)
Əli FƏRHADOV
Milli Azərbaycan Tarixi Muzeyi, tarix üzrə
fəlsəfə doktoru, dosent
ali_farhadov@yahoo.com
https://orcid.org/0000-0002-9322-3670

MİRABBAS MİRBAĞIRZADƏNİN YARADICILIĞINDA TÜRK-İSLAM MƏDƏNİYYƏTİNƏ DAİR

Xülasə: Böyük Azərbaycan mütəfəkkiri Mirabbas Mirbağırzadə irəvanlıdır. Kitab ticarəti ilə məşğul olan mütəfəkkir ictimai-siyasi həyatda aktiv olmuş, Naxçıvanda və İrəvanda daşnak separatçılığına qarşı mübarizə aparmışdır. M. Mirbağırzadə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təmsilçisi kimi Naxçıvanda fəaliyyət göstərmişdir. O, ingilislərə və ermənilərə qarşı siyasi mübarizə apararaq, Naxçıvanın AXC-yə inteqrasiyasına nail olmuşdur. Onun yaradıcılığında Azərbaycan, türk-islam, osmanlı mədəniyyətinin tədqiqi əsas yer tutur. Müəllifi olduğu və tərcümə etdiyi əsərlərdə Azərbaycanın, türklərin tarixini, türk-islam mədəniyyətini araşdırmış, türklərin öz tarixini və mədəniyyətini öyrənməsinə və təbliğ edilməsinə nail olmuşdur. M.Mirbağırzadə publisist, etnoqraf, iqtisadçı kimi də fəaliyyət göstərmişdir. Onun həm sovet dövründən əvvəl və daha sonra yazdığı məqalələrdə azərbaycanlıların, müxtəlif etnik qrupların mədəniyyəti, məişəti ətraflı işıqlandırılmışdır. Bu məqalələrdə müəllifin etnoqraf və mədəniyyətşünas kimi türk-islam mədəniyyəti sahəsindəki biliyi xalqa nümunə göstərilə bilər. M.Mirbağırzadə öz əsərlərində türk-islam birliyini təbliğ etmiş, təfriqəçiliyə qarşı mübarizə aparmışdır. O, həm də ədəbiyyatla yaxından maraqlanırdı. Onun müxtəlif qəzetlərdə çap olunmuş məqalələri müasir ədəbiyyatşünaslığımız, dilçiliyimiz üçün çox əhəmiyyətlidir. M.Mirbağırzadə müəllim olaraq çalışmasa da pedaqogika sahəsində də ciddi məqalələr yazmışdır. M.Mirbağırzadənin ən böyük uğuru Azərbaycan, Türkiyə, Misir, islam tarixi mövzularında yazdığı əsərlər olub. O, bu əsərləri yazarkən ilk mənbələrdən, nadir qaynaqlardan istifadə etmişdir. M.Mirbağırzadənin yaradıcılığının araşdırılması Azərbaycan və türk-islam tarixinin və mədəniyyətini dərindən öyrənilməsinə səbəb olacaqdır və daim təbliğ edilməlidir.

Açar sözlər: Mirabbas Mirbağırzadə, Azərbaycan, osmanlı, türk-islam tarixi, mədəniyyət

Ali FARHADOV
ABOUT TURKIC-ISLAMIC CULTURE IN THE WORKS OF MIRABBAS MIRBAGIRZADEH

Abstract: The great Azerbaijani thinker Mirabbas Mirbagirzadeh is from Yerevan. The Thinker engaged in the sale of books took an active part in

socio-political life, fought against Dashnak separatism in Nakhchivan and Yerevan. M.Mirbagirzade acted in Nakhchivan as a representative of the Government of the Azerbaijan Democratic Republic. Waging a political struggle against the British and Armenians, he achieved the integration of Nakhchivan into the ADR. The main place in his work is occupied by the study of Azerbaijani, Turkic-Islamic, Ottoman culture. In the works he wrote and translated, he explored the history of Azerbaijan, the Turks, Turkic-Islamic culture, allowing them to learn and promote the history and culture of the Turks. M. Mirbagirzade also worked as a publicist, ethnographer, and economist. In the articles he wrote both before and after the Soviet era, the culture and everyday life of Azerbaijanis and various ethnic groups were covered in detail. In these articles, the author's knowledge in the field of Turkish-Islamic culture as an ethnographer and cultural scientist can be shown as an example to the people. M. Mirbagirzade promoted Turkish-Islamic unity in his works and fought against separatism. He was also closely interested in literature. His articles published in various newspapers are very important for our modern literary studies and linguistics. Although M. Mirbagirzade did not work as a teacher, he also wrote serious articles in the field of pedagogy. The greatest success of M. Mirbagirzade was the works he wrote on the history of Azerbaijan, Turkey, Egypt, and Islam. When writing these works, he used the first sources, rare sources. The study of M.Mirbagirzade's work will lead to an in-depth study of the history and culture of Azerbaijan and Turkic Islam, and it must be constantly promoted.

Keywords: Mirabbas Mirbagirzadeh, Azerbaijan, Ottoman, Turkish-Islamic history, culture

Али ФАРХАДОВ

О ТЮРКО-ИСЛАМКОЙ КУЛЬТУРЕ В ТВОРЧЕСТВЕ МИРАББАСА МИРБАГИРЗАДЕ

Абстракт: Великий азербайджанский мыслитель Мираббас Мирбагирзаде-уроженец Еревана. Занимаясь книготорговлей, мыслитель активно участвовал в общественно-политической жизни, боролся против дашнакского сепаратизма в Нахчыване и Ереване. М.Мирбагирзаде действовал в Нахчыване в качестве представителя правительства Азербайджанской Демократической Республики. Ведя политическую борьбу против англичан и армян, он добился интеграции Нахчывана в АДР. Основное место в его творчестве занимает изучение Азербайджанской, тюрко-исламской, Османской культуры. В произведениях, которые он написал и перевел, он исследовал историю Азербайджана, турок, тюрко-исламскую культуру, добился того, чтобы турки изучали и пропагандировали свою историю и культуру. М.Мирбагирзаде также работал публицистом, этнографом, экономистом. В написанных им статьях как до, так и после советской эпохи подробно освещались культура и образ жизни азербайджанцев и различных этнических групп. В этих статьях знания автора в области тюрко-исламской культуры как этнографа и культуролога могут быть показаны в

пример народу. М.Мирбагирзаде в своих произведениях пропагандировал турецко-исламское единство, боролся с сепаратизмом. Он также внимательно интересовался литературой. Его статьи, опубликованные в различных газетах, имеют большое значение для нашего современного литературоведения и языкознания. Хотя М.Мирбагирзаде не работал учителем, он также писал серьезные статьи в области педагогики. Наибольшим успехом М. Мирбагирзаде стали написанные им труды по истории Азербайджана, Турции, Египта и ислама. При написании этих произведений он пользовался первоисточниками, редкими источниками. Изучение творчества М.Мирбагирзаде приведет к углубленному изучению истории и культуры Азербайджана и тюркского-Ислама, и его необходимо постоянно пропагандировать.

Ключевые слова: Мираббас Мирбагирзаде, Азербайджан, Османская империя, турецко-Исламская история, культура

Giriş

İrəvanlı Mirabbas Mirbağırzadə 1880-1885-ci illərdə anadan olmuş [10], İrəvan gimnaziyasını bitirmiş, əsasən kitab ticarətilə məşğul olmuşdur. Onun "Ümid mağazası" adı ilə İrəvanda və Bakıda kitab mağazaları var idi. Publisistik fəaliyyətlə də aktiv məşğul olan mütəfəkkir öz kitabları daxil, yalnız türk milli qürurunu coşduran, Azərbaycan – Türkiyə münasibətlərini daha da qardaşlaşdıran, Türkiyəyə sevgi aşılayan ədəbiyyat satırdı [10]. O, "M.Nadi, M.İrəvani, Mir Abbas" imzaları ilə "İrşad", "Tazə həyat" və s. qəzetlərlə yaxından əməkdaşlıq edirdi [5, s.73]. O, AXC dövründə hökumətin tapşırığı ilə Naxçıvanda erməni separatçılığına və ingilis işğalına qarşı siyasi mübarizə aparmış, Naxçıvanın AXC-yə inteqrasiyasına və İrəvan müsəlmanlarının hüquqlarının qorunmasına yardımçı olmuşdur [6, s.205-206]. Sovet işğalından sonra bir müddət "Kommunist", "Xalq maarifi", "Maarif və mədəniyyət" və s. mətbu orqanlarında publisist kimi fəaliyyət göstərən mütəfəkkirin 1930-cu ildə ailəsi ilə birlikdə Türkiyəyə köçdüyü ehtimal edilir [2, s.182]. Mütəfəkkirin bir sıra kitabları və tərcümə əsərləri günümüzə gəlib çatmışdır. Bunlara nümunə olaraq onun "Osmanlı tarixinin mühüm səhifələri" [8], "Osmanlı hökumətinin qüdrətli günləri" [7], "Tarix səhifələri. I. İslam pulları. II. Misir ölkəsi və tarixi" [9], "Cənab Yusif və macərayi-məşhuru", "Osmanlı marşları. Vətən və millət nəğmələri" [10] və ərəb müəllifi Corci Zeydandan tərcümə etdiyi "İslamın mədəniyyət tarixi" [12] və s. əsərlərini göstərə bilərik. M**.Mirbağırzadənin elmi-publisist irsi yalnız ana dilimizdə və əsasən ərəb qrafikasında olduğundan, təkcə rus dilini və kirillitsanı bilən bəzi alimlərimiz onun yaradıcılığından demək olar ki, xəbərsiz qalıb**. Bu baxımdan akademik Ə.Sumbatzadənin "XIX-XX yüzillər Azərbaycan tarixşünaslığı" kitabı istisnadır. O, M.Mirbağırzadənin əsərlərindən ötəricə söz açaraq tarix və etnoqrafiyaya dair bir sıra məqalələrinin adını qeyd etmiş və onu "geniş profilli peşəkar alim" adlandırmışdır. Ə.Tahirzadə isə M.Mirbağırzadənin **iqtisadçı, tarixçi, etnoqraf, coğrafiyaçı, sənətşünas, ədəbiyyatşünas, dilçi alim, pedaqoq, ictimai xadim, yazıçı, jurnalist** kimi qoyub getdiyi olduqca zəngin irsi üzə çıxarmış və mütəfəkkirin "Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat" əsəri haqqında ilk

dəfə geniş məlumat verərək onu nəşr etdirmişdir [10].

1.M.Mirbağırzadənin yaradıcılığında Azərbaycan tarixinə və mədəniyyətinə baxış

Türk-islam tarixini və mədəniyyətini tədqiq və təbliğ etməyi qarşısına məqsəd qoyan M.Mirbağırzadə türkçü olduğu qədər Azərbaycançılıq ideologiyasının da qatı tərəfdarı idi. O, bu mövzuda belə yazırdı: "Kitabımızı *mümkün olduğu qədər asan və* **öz Qafqaz dilimizdə** *yazdım ki, hər kəs oxuyub anlaya bilsin. Biz camaatımız ilə danışmaq istədiyimiz üçün onların anlaya biləcəyi dildə yazı yazmağı özümüzə məslək etdik. Camaatımız bu xüsusda bizdən razı qalarlarsa dünyavü axirət bəsimizdir" [10].*

M.Mirbağırzadənin ərəb müəllifi C.Zeydandan tərcümə etdiyi "İslam mədəniyyəti tarixi" əsəri də azərbaycanlıların, xüsusilə XX əsrin əvvəllərində ərəbcə bilməyən yerli müsəlmanların islam tarixini və mədəniyyətini qaynağından öyrənməsi baxımından əhəmiyyətli olmuşdur. Əsərdə ərəblərin islam öncəsi tarixi, Əməvi, Abbasi, Fatimi, Əndülüs Əməviləri dövlətlərinin tarixi və islam məzhəbləri, islam mədəniyyəti tarixi kimi mövzulardan bəhs olunur. Corci Zeydan (1861-1914) ərəb tarixi roman janrının banilərindən biri olub Beyrutda, bəzi mənbələrə görə Misir əsilli xristian bir ailədə dünyaya gəlmişdir. O, Misir Universitetinin islam tarixi üzrə professoru olmuşdur [2, s.177]. Əsərin osmanlı dövründə tərcüməsi "Mədəniyyəti-islamiyyə tarixi" adı ilə osmanlı xristianlarından Zəki Müğamizə məxsusdur. Bu əsərin Azərbaycan türkcəsinə tərcüməsi isə XX əsrin əvvəllərində Mirabbas Mirbağırzadə tərəfindən edilmişdir. M.Mirbağırzadə əsərin tərcüməsinə yazdığı müqəddimədə C.Zeydanı "fazili-möhtərəm" (möhrərəm fəzilətli-Ə.F.), bu əsəri "aləmi-islam üçün bir töhfə" adlandırmış, "indiyə qədər islamiyyətə dair bu qədər geniş məlumatlar verən, bu mərtəbədə əhəmiyyətli bir əsər görmədik, eşitmədik" deyə bildirmişdi [12, s.7].

M.Mirbağırzadənin fəaliyyətində azərbaycanlıların, xüsusilə İrəvan müsəlmanlarının milli-mədəni hüquqlarının publisistika vasitəsilə qorunması əsas yer tuturdu. Onun *"Həyat"* qəzetində dərc edilmiş *"Təbrik"* adlı məktubunda yazırdı: "*İslam camaatı, xüsusən İrəvan müsəlmanları xarici millətlərin əlində mövcud olan qəzetələrin müsəlmanlar haqqında olan iftira və böhtanlarının altında az qalmışdı ki, isim və namusları əzilib bərbad ola. Lakin belə vaxtda tovfiqi-rəbbani (ilahi yardım) ilə "Həyat" qəzetəsi nəşrə başlayıb öz müsəlman qardaşlarına kömək edib və bunlar xüsusunda olan iftira və böhtanları həqqaniyyət ilə rədd və təkzib etdi. Yaşasın "Həyat" qəzetəsi! Yaşasın "Həyat" müəssisləri olan ərbabi-həmiyyət Bakı müsəlmanları!"* [10]. Onun *"İrəvan xəbərləri"və "İrəvandan"* başlıqlı saysız-hesabsız yazıları **İrəvanın o dövrkü tarixini öyrənməkçün əhəmiyyətli bir qaynaqdır.** Bakıdakı bir sıra mətbuat orqanlarının **İrəvanda vəkili** olan M.Mirbağırzadə həm onlara bu şəhərdə abunə yazdırır, həm də onları öz kitab mağazasında satırdı. M.Mirbağırzadə **həm "Füyuzat"ın, həm də "Kaspi" qəzetinin** İrəvanda vəkili idi [10].

M.Mirbağırzadə İrəvan müsəlmanlarının inkişafı üçün xeyriyyə cəmiyyətlərinin yaradılmasını tələb edirdi. Onun "Cəmiyyəti-xeyriyyə təsisi və

lüzumu" adlı yazısında İrəvanda müsəlman xeyriyyə cəmiyyəti yaratmağın vacibliyinə toxunub. Tez-tez Rusiyanın və Türkiyənin ən müxtəlif şəhərlərinə gedən, dünyanın böyük mədəniyyət mərkəzlərində bulunan, ümumən müsəlmanların, o sıradan Qafqaz türklərinin dünya inkişafından necə və nə qədər geri qaldığını öz gözləriylə görərək bunun səbəblərini də özüyçün aydınlaşdırmış mütəfəkkir Quranın xeyriyyəçiliyi əmr etdiyini yazaraq İrəvan müsəlmanlarını Qurandan və dünya millətlərindən nümunə götürməyə çağırırdı. İrəvan müsəlmanlarının hüquqlarını qorumaq üçün daim mübarizə aparan M.Mirbağırzadə "İrşad" qəzetində yazırdı ki, "h**ökumət əmriylə zor ilə yurdlarını uçurub biçarə kəndliləri yersiz-avara buraxdılar". O,** heç nəyi ört-basdır etmədən barmağını birbaşa hadisənin səbəbkarına – hökumətə tuşlayıb və onun siyasətinə etiraz edirdi [10]. AXC dövründə İrəvan müsəlmanlarının hüquqlarının qorunması və daşnak terroruna qarşı mübarizədə M.Mirbağırzadə ən ön sıralarda idi. **Onun "İrəvan: erməni-müsəlman məsələsi",** "**İrəvan hadisələri", "İrəvan əhvalından", "Erməni cümhuriyyətində müsəlmanların halı", "Erməni cümhuriyyətində müsəlmanların yaşayışı", "Erməni cümhuriyyətində. İrəvan və ətrafında",** "**Qaçqınlara mənzil köməyi", "Erməni cümhuriyyətində", "Zəngibasar və Eçmiədzin mahalı müsəlman kəndlərinə ermənilərin hücumu", "Erməni cümhuriyyətində nələr oluyor?" və s.** məqalələri sözügedən bölgədə o çağda baş vermiş proseslərin ən doğru-düzgün salnaməsidir. Bu yazılarda o, vay-şivən qoparmır, durumu ən qısa vaxtda hansı yollarla düzəltmək haqqında təkliflər verir, bəzən hətta Azərbaycan hökumətini astagəllikdə, Xarici İşlər Nazirliyini İrəvandakı nümayəndəliyini unutmaqda kəskin tənqid edir. Ancaq heç bir siyasi partiyanın üzvü olmayan M.Mirbağırzadə Azərbaycanın azadlıq və müstəqilliyini olduqca yüksək dəyərləndirən alovlu vətənpərvərdi, bu üzdən də Azərbaycan Cümhuriyyətiylə fəxr edir, onunla əməkdaşlığa, dövlətimizin tərəqqisinə əlindən gələn yardımda bulunmağa ürəkdən can atırdı [10].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə İrəvanla yanaşı Naxçıvan müsəlmanlarının da taleyi qaranlıq idi. Daşnaklar Naxçıvanı da AXC-dən ayırmaq istəyirdilər. 1919-cu il yanvarın 5-də Parlamentin binasında keçmiş İrəvan quberniyasında, o cümlədən Naxçıvanda yaşayan azərbaycanlıların nümayəndələrinin fövqəladə iclası keçirildi, bölgədəki mövcud vəziyyət müzakirə olundu və İrəvan müsəlmanlarının həmyerlilər cəmiyyəti yaradıldı. İdarə heyətinin iclasında yerlərdəki vəziyyətlə yaxından tanış olmaq və müəyyən tövsiyələr hazırlamaq məqsədilə M.Mirbağırzadəni Naxçıvana göndərmək qərara alındı [6, s.205-206].

1919-cu ilin 20 fevralında Naxçıvana gələn M.Mirbağırzadənin rəhbərlik etdiyi nümayəndələr heyəti naxçıvanlılara Azərbaycanın dövlət həyatı, İrəvan Müsəlmanlarının Həmyerlilər Cəmiyyətinin yaradılması haqqında məlumat vermişdilər. Nümayəndələr Naxçıvanda ingilis general-qubernatoru ilə görüşərək, AXC Hökumətinin Naxçıvanla bağlı mövqeyini onun diqqətinə çatdırdılar. M.Mirbağırzadənin yerli hökumətin sədri Cəfərqulu xan və ingilis general-qubernatoru ilə görüşündə Naxçıvanın Azərbaycana məxsus olması və bölgənin idarəçiliyi, ingilislərin bu işdə iştirakı məsələləri müzakirə edildi. Azərbaycanlı nümayəndələrə - "Siz kimsiniz və nə üçün

gəlmisiniz? Bu ərazi hələlik Azərbaycanın tərkib hissəsini təşkil etmir, burada ingilis qubernatorluğu mövcuddur, sizin hökumətin buraya adam göndərmək hüququ yoxdur" deyən ingilis generalına M.Mirbağırzadə etiraz etmişdi. O, kiçik xalqların Avropa millətləri, xüsusilə də ingilislər tərəfindən etiraf edilən öz müqəddəratını təyinetmə prinsipini, general Tomsonun və C.Milnin Azərbaycan dövlətçiliyinə müsbət münasibətini xatırlatmış, bölgənin tamamilə müsəlmanlardan ibarət əhalisinin Azərbaycan Hökumətinə xüsusi rəğbət bəslədiyini, generalın da yerli camaatın rifahı naminə çalışacağına və türk-müsəlman əhalinin erməni hərbi dəstələri tərəfindən qırılmasına imkan verməyəcəyinə əmin olduğunu söyləmişdi. Naxçıvanda hakimiyyətin sonrakı taleyi ilə bağlı Cəfərqulu xanın iqamətgahında keçirilən görüşdə Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti ilə yanaşı, ingilis general-qubernatoru da iştirak edirdi. İngilis general-qubernatoru - "biz sizin daxili işlərinizə qarışmaq niyyətində deyilik və buraya əmin-amanlığı bərpa etmək və qoruyub saxlamaq üçün gəlmişik" deyərək Naxçıvandakı milli hökumət nümayəndələrini tanıdığını bildirdi. Elə həmin gün iclasda qərara alındı ki, Naxçıvandakı mövcud milli hökumət AXC-nin təmsilçiləridir. Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri Cəfərqulu xanın başçılıq etdiyi hökuməti tanıdıqlarını bildirdilər. Həmin görüşdə Naxçıvanın könüllü olaraq Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi haqqında akt tərtib olundu. Aktm mətninin hazırlanması üçün yaradılan komissiyanın üzvlərindən biri də Mirbağırzadə idi. Naxçıvanda İrəvan Müsəlmanlarının Həmyerlilər Cəmiyyətinin fəaliyyəti, xüsusilə M.Mirbağırzadənin missiyası müəyyən nəticələr verdi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919-cu il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qubernatorluğu yaradıldı. M.Mirbağırzadənin məruzəsində qaldırılan məsələlər Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və Parlamentinin iclaslarında müzakirə olunaraq, müvafıq qərarlar qəbul edildi və tədbirlər görüldü. Cəmiyyətin çoxşaxəli fəaliyyəti və missiyanın yekunları nəticəsində Naxçıvan erməni və ingilis işğalından xilas edilərək AXC-nin tərkib hissəsinə çevrildi [6, s.205-206].

M.Mirbağırzadə etnoqraf, mədəniyyətşünas kimi də güclü qələm sahibi idi. Onun sovet hakimiyyəti dövründə yazdığı **"Əqvami-qədimə arasında dini etiqadlar və ictimai adətlər", "Tarix və coğrafiya qismi. Qafqas və qafqaslılara aid tarixi bəzi məlumat. I. Etnoqrafiya", "Şuralar Azərbaycanında. Talışlar", "Şuralar Azərbaycanında yaşayan millət və tayfalar haqqında etnoqrafi məlumat. I. Yengiloylar", "Şuralar Azərbaycanında yaşayan millət və tayfalar haqqında etnoqrafi məlumat. II. Udilər" və s.** məqalələri Azərbaycan etnoqrafiya elminin ilk və ən uğurlu örnəkləridir. **M.Mirbağırzadənin "Əski türklərdə mədəniyyət əsərləri. İslamiyyətdən əvvəl", "Qədim musiqi və nəğmələr. I. İrani-qədimdə", "Krım türklərində musiqi", "Şərq musiqisində yeni ixtiralar" və s. məqalələri müəllifin türk-islam mədəniyyəti sahəsindəki tədqiqatlarına nümunə göstərilə bilər.** M.Mirbağırzadə həm də türk ədəbiyyatının dərin bilicisidir. Onun "Yeni yol" və "Kommunist" qəzetlərində çap olunmuş "**El ədəbiyyatı ana dilinin köküdür", "Əski türk ədəbiyyatı nümunələrindən. 1. Ulu Tenqriyə sığınma", "Türk ədibə və şairələri. Ağabəyim ağa", "Türk ədibə və şairələri. Cahan xanım", "Türk ədibə və şairələri. Fitnət xanım",**

"Türk ədibə və şairələrimiz. Zibeydə xanım", "Xalq ədəbiyyatı" və s. məqalələri müasir ədəbiyyatşünaslığımız üçün də mühüm elmi əhəmiyyət daşıyır. Hələ sovet dövründən çox-çox qabaq təmiz dildə yazmağı təbliğ edən və bu dili öz kitablarında sərgiləyən M.Mirbağırzadənin xüsusən yazının tarixi, əlifba, imla problemlərinə aid araşdırmaları indi də ciddi maraq doğurur. **Onun "Yeni türk əlifbasının həyata tətbiqi", "Dilimizin düzəlişməsi", "Danışıq dilimiz, yazı dilimiz", "Yazının tarixi", "Yeni əlifba və savad məktəbi"**, "**Lənkəran talışlarına yeni türk əlifbası lazımdır"** və b. məqalələri yüksək peşəkarlıqla yazılıb [10].

M.Mirbağırzadənin məktəbdəsə dərs deməsi, müəllimlik etməsi haqqında əlimizdə heç bir fakt yoxdur, ancaq **onun "Azərbaycan məktəblərində yeni dərs proqramları", "Çocuqların təbii hüququ" adlı** məqalələri onun pedaqogikaya da yetərincə bələdliyini göstərir. Başqa elm sahələrində nə qədər uğurları olsa da M.Mirbağırzadəni biz daha çox tarixçi kimi tanıyırıq. Hələ 1913-14-də çox ciddi tarix kitabları və məqalələr nəşr etdirməyi bacarmış Mirabbas ağa 1912-14 tarixləri arasında **"Tarixi fəqərələr. I. Bulğarların mazisi", "Tarixi fəqərələr. II. Serblər və mazisi"**, "**Trakya", "Əhval və qəraib. Qədim misirlilərdə ibadət", "Tarixi məqalə. İslamiyyətin zühurundan qabaq ərəb arvadları", və** b. tarixi məqalələrinə də həyat vermişdi. Yeri gəlmişkən, "tarixdə qadın" mövzusunda araşdırmalarını o, Cümhuriyyət və sovet dövründə də davam etdirərək **"Analarımız nə tövr olmalıdırlar?", "Əski türklərdə qadın hüququ" kimi** sanballı yazılarını da ortaya qoymuşdu. M.Mirbağırzadənin **"Azərbaycanda elmi cəmiyyətlər və türk ziyalıları", "Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat", "Şəkidə xanlıq zamanında məmləkət idarəsi" adlı məqalələri** elmi baxımdan yüksək dəyərə malikdir [10].

M.Mirbağırzadənin qaynaqlar əsasında yazdığı "Şəki qəzası" adlı silsilə məqalələri "Maarif işçisi" jurnalının 1926-cı il nömrələrində, "**Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat" adlı silsilə məqalələri isə "***Maarif işçisi"* jurnalının 1927-1928-ci il saylarında dərc edilmişdir [11, s.135, 175. Şəki haqqında indiyədək yazılmış əsərlərin heç birində bu əsərlərə istinad edilməmişdir. Bu dəyərli tarixi yazarkən M.Mirbağırzadə şəxsi kitabxanasındakı bir çox nadir əlyazmalardan yararlanıb. Bunlara nümunə olaraq Mustafa Ağa Şuxinin "Kərim Ağa Fatehin tərcümeyi-halı" və "Nuxu xanlarının keçmiş əhvalatının hekayəti", Kərim Ağa Fatehin "Şəki xanlarının ixtisar üzrə tarixi", Hacı Seyid Əbdülhəmidin "Şəki xanları və onların nəsilləri" və s. göstərmək olar.

M.Mirbağırzadə Mirzə Heydər Dərbəndinin "Höccətüt-təvarix" ("Tarixin sübutu"-Ə.F.) əsərinə əsaslanaraq və başqa heç bir qaynaqda rast gəlmədiymiz yeni faktları ortaya qoyur. Buna nümunə olaraq o, yazır ki, "Hacı Çələbi *məmləkətini mümkün olduğu qədər genişlətməyə çalışdı. Bu çalışma sayəsində İran Azərbaycanına qədər nüfuz yetirib* **Təbriz vilayətini də öz hökuməti altına aldı və Sədrəddin adında birisini öz tərəfindən Təbriz şəhərinə naib qoydu"**. *Halbuki bu fakta* başqa heç bir qaynaqda rast gəlmirik. Mütəfəkkirin niyə məhz Şəki tarixiylə maraqlanması, onun tarixini qələmə alması səbəbi də qaranlıq içindədir. Gümanımızca, onun Şəkiylə sıx ticarət

ilişkiləri bu əsərin yazılmasına təsir etmişdir [11, s.76]. Əsərdə Şəkinin eradan əvvəlki alban dövründən başlayaraq Sasanilər, ərəblər, səlcuqlular, monqollar, teymurilər və s. imperiyaların dövründəki tarixi və iqtisadiyyatı təsvir edilmiş, Şəkinin xanlıq və çarizm dövrü, Hacı Çələbinin gürcülərlə müharibə edib Qazax və Borçalını işğaldan azad etməsi, Azərbaycan xanlarını əsirlikdən qurtarması, şəkililərin daşnaklara qarşı mübarizəsi, AXC və sovet hakimiyyəti dövrü haqqında məlumat verilmişdir.

2. M.Mirbağırzadənin yaradıcılığında türk (Osmanlı) tarixinə və mədəniyyətinə baxış

Osmanlı tarixini araşdıran mütəfəkkirə görə Altay dağı ətrafında məskun olan Qayı xan qəbiləsi türk və tatarların o biri mənsubları kimi müsəlman olmayıb bütpərəst idilər [8, s.5]. M.Mirbağırzadə yazır ki, 50 min nəfərlik Qayı xan qəbiləsi Çingiz xanın hücumundan qorxub Anadoluya köçüb yerləşəndən sonra o zamanın böyük müsəlman padşahlığı olan səlcuqilər vasitəsilə islamiyyəti qəbul etmişlər, müsəlman olmuşlardı [8, s.5]. Osmanlılar Qayı xan qəbiləsindən törəmişdir [8, s.5]. Türkiyə tarixçilərinə görə isə osmanlıların mənsub olduğu Qayı boyu qolu Horasanda ikən artıq müsəlman idi və monqol hücumları nəticəsində oradan Anadoluya köç etmişdilər [4]. Anadoluda Konya şəhərində Səlcuqlu padşahlarından Sultan Əlaəddin Keyqubadın tabeliyinə keçən osmanlı tayfa başçısı Ərtoğrul monqollarla müharibədə sultana kömək etdi və onun razılığı ilə Anadoluda daimi məskunlaşıb səlcuqilərin sərhəd gözətçiliyi vəzifəsini icra etməyə başladılar [8, s.7-8]. Ərtoğrulun oğlu Osman bəy Səlcuqlu dövlətinin XIII əsrin sonunda monqollar tərəfindən süqutundan sonra müstəqil Osmanlı dövlətinin ilk hökmdarı sayılır [3, s.443-453].

M.Mirbağırzadə osmanlı hakimiyyətinin islam xəlifəliyini necə ələ keçirməsi haqqında da dəyərli məlumatlar verir. Ona görə Bağdadda ən axırıncı Abbasi xəlifəsi olan Mutəsim Billah zamanında məşhur "moğol" (monqol-Ə.F.) padşahı Çingiz xanın nəvəsi Hülakü xan Bağdadı zəbt eyləyib [8, s.78] Abbasi xəlifəliyini məhv etdikdən sonra Abbasilərdən biri olan əl-Mütəsərrif peyğəmbərin əmanətlərini götürüb Misirə getdi. Məmlük padşahlarından Məlik Zahir əl-Mütəsərrifin adına xütbə oxutdurub sikkə kəsdirdi, Misirdə Abbasi xəlifəliyi təzədən başladı. Sultan Səlim zamanında bu Abbasi xəlifələrinin on dördüncüsü xəlifə Mütəvəkkil aləllah idi [8, s.79]. 1516-cı ildə Hələb yaxınlığındakı Mərcidabiq bölgəsində Misir qoşunu ilə olan müharibədə osmanlı ordusu qalib gəlidi, Məmlük sultanı Qansu Qavir öldürüldü [8, s.80-81].

I Sultan Səlim Misirdəki çərkəz padşahlığını dağıdıb Misiri aldığı zaman Abbasi xəlifələrindən Mütəvəkkil Aləllah adında bir xəlifə qalmış idi. Çərkəz padşahlarının köməyi və hörməti sayəsində Misirdə xəlifəlik edirdi. Sultan Səlimin əliylə çərkəz padşahlığı pozulandan sonra daha bu xəlifəliyin köməyi qalmamış, gücsüz, aciz bir alim kimi qalmış idi. Sultan Səlim Misirdən İstanbula qayıtdığı zaman xəlifə Mütəvəkkil Aləllahı yanınca götürüb İstanbula gətirdi. İstanbulda Ayasofya məscidində böyük və cəllalı bir məclis qurub Mütəvəkkil Aləllahı minbərə çıxartdı. Mütəvəkkil Aləllah minbərə çıxıb Sultan Səlimin adına bir xütbə oxudu. Xəlifəlik nişanəsi olan əynindəki "fəracə"ni (enli üst paltar-Ə.F.) çıxardıb Sultan Səlimin əyninə geydirdi və orada I Sultan Səlimi islam aləminin xəlifəsi adlandırdı. Bu hadisədən sonra Osmanlı

padşahları müsəlmanların xəlifəsi adlandırıldı [8, s.97-98]. Lakin Sultan Səlimin İstanbulda Ayasofiyada təşkil edilən bir mərasimdə xəlifə elan edilməsinin və xəlifə adlanmasının tarixi bir qaynağı yoxdur. O, bəzi qaynaqlarda "xilafət taxtının sultanı", rəsmi sənədlərdə isə "Məkkə və Mədinənin mühafizi" ("Xadimül-Hərəmeyn") adıyla qeyd edilib [1, s.407-414].

Abbasi xəlifəsi Mütəvəkkil Aləllahdan Sultan Səlimə təhvil verilən və İstanbulda Topqapı sarayında gümüş qutularda qorunan müqəddəs əmanətlər bunlardır: "Cənab Peyğəmbərin iki ədəd nəleyni (ayaqqabı), xirqəsi (cübbəsi), səccadəsi, qılınc qəbzəsi, ələmi-şərifi (bayraq-Ə.F.), iki ədəd əsası, ilk dörd xəlifənin – hz. Əbu Bəkir, hz. Ömər, hz. Osman və hz. Əlinin əmmamələri, ələmləri, təsbehləri və qılıncları, peyğəmbərin nəvələri - Həsən və Hüseynin ələmləri, hz. Osman və hz. Əlinin yazdığı Quran nüsxələri" və s. əmanətlər [8, s.85-86].

Hz. Peyğəmbərin ona qəsidə həsr etmiş şair Kəb ibn Züheyrə bağışladığı cübbəsinin qorunduğu otaq osmanlılar tərəfindən "xirqeyi-səadət dairəsi" adlanırdı. Xirqeyi-şərif otağını hər il ramazan ayının 15-i Osmanlı sultanları xüsusi ziyarət edərdi. Bu ziyarət "xirqeyi-şərif alayı" adlanırdı [8, s.86-87]. Xirqeyi-şərif otağında müqəddəs əmanətlərin qorunmasına xüsusi qulluqçular ayrılmışdı və ilk qulluqçu Sultan Səlim özü olmuşdur [8, s.87]. Osmanlı padşahları hər il ramazan ayının 15-də sübh namazını xirqeyi-şərif otağında saray əhli ilə qılardı [8, s.88].

M.Mirbağırzadə osmanlı sikkələri haqqında qiymətli məlumatlar verir. Ona görə sikkənin bir üzündə ərəbcə kufi xətti ilə "La ilahə illəllah. Muhəmmədur-rəsulullah", bəzən ilk dörd xəlifənin – hz. Əbu Bəkir, hz. Ömər, hz. Osman və hz. Əlinin adları, sikkənin digər üzündə isə Osmanlı sultanının adı, zərb yeri və tarixi yazılırdı [8, s.26-28].

M.Mirbağırzadəyə görə osmanlılar islam birliyinə və həmrəyliyinə böyük əhəmiyyət verirdilər. Anadoluda osmanlılara qarşı torpaq iddiasında olan Ağqoyunlu Uzun Həsənə osmanlı sultanı Məhəmməd Fateh belə yazmışdı: "Bizim məmləkətimiz müsəlman məmləkətidir. Əgər müsəlman əhlinə qəsdin var isə şəriət düşmənisən. Tövbə elə!" [7, s.215-216]. M.Mirbağırzadə qeyd edir ki, Sultan Fateh "elmi və elmli adamları sevərdi". Bu baxımdan o, sultanın Uzun Həsənin elçisi olmuş Əli Quşçu adlı azərbaycanlı bir alimə olan hörməti və qayğısı haqqında geniş məlumat verir. Sultan ona İstanbulda qalmağı təklif etmiş, onun Təbrizdən İstanbula səfər etdiyi hər gün üçün 1000 axça vermişdi. Dini və dünyəvi elmlərin tədrisinə böyük əhəmiyyət verən sultanın tikdirdiyi Fateh mədrəsəsi də osmanlı elmi-dini mühitində, xüsusilə ilahiyyat sahəsində çox məşhur idi [7, s.213].

Nəticə

Son olaraq deyə bilərik ki, M.Mirbağırzadənin yaradıcılığının tədqiqi Azərbaycan və Türkiyə tarixinin, xüsusilə türk-islam mədəniyyətinin tədqiqi və təbliği baxımından əhəmiyyətlidir. Bu əsərlərdə Azərbaycanın tarixi və mədəniyyəti, etnoqrafiyası, ədəbiyyatı, osmanlı türklərinin ortaya çıxması, Anadoluya gəlməsi, xristianlarla və monqollarla apardığı müharibələr, islam xəlifəliyini ələ keçirmələri, Osmanlı – Azərbaycan münasibətləri və s. tarixi məlumatlar geniş əks olunub. Bu da azərbaycanlı oxucular üçün qardaş

Türkiyə xalqının tarixinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Onun C.Zeydandan etdiyi tərcümələr isə azərbaycanlıların islam mədəniyyətini yaxından öyrənməsi baxımından mühüm bir addımdır. Təəssüf ki, M.Mirbağırzadə Azərbaycan elmində uzun zaman unudulmuş bir alim olmuşdur. Bunun səbəbi onun Stalin repressiyasının qurbanı olması idi. 1930-cu ildə "proletar yazıçısı" Əjdər Süleymanzadənin *"İstiqraz vərəqəsi №01, seriya 101121" adlı hekayəsi dərc edilmiş, orada* **Mirabbas** adlı bir obrazın timsalında o, M.Mirbağırzadəni "Amerika sistemli gözlük" taxan, "qara dəniz dalğaları kibi əsəbi" bir pulgir kimi təsvir etmişdi [10]. Bütün bu baş verənlər M.Mirbağırzadəyə qarşı yeni repressiyanın xəbərçisi idi və bunu başa düşən M.Mirbağırzadə güman ki, elə o il təzyiq və təqiblərdən qaçmaq üçün ölkəni tərk edir və Türkiyəyə mühacirət etməyə məcbur olur. Onun adı və əsərləri isə repressiya qurbanı olaraq bir daha xatırlanmır.

Ədəbiyyat

1. Emecen, F. Selim I // TDV İslam Ansiklopedisi: [46 cilddə]. – İstanbul: TDV yay., – c.XXXVI. – 2006. – s.407-414.
2. Fərhadov, Ə. Bir daha Corci Zeydanın həyat və yaradıcılığına dair (MATM-in materialları əsasında) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi-2017, – 2017. – s.177-185.
3. İnalcık, H. Osman I // TDV İslam Ansiklopedisi: [46 cilddə]. – İstanbul: TDV yay., – c.XXXIII. – 2007. – s.443-453.
4. Kayı Obası nerede ve nasıl kuruldu? Kayı Boyu'nun ilk göçü nereye oldu? İşte tarihi // Sabah. – 2019, 20 noyabr. – s.2-3.
5. Məmmədli, Q. İmzalar / Q.Məmmədli. – Bakı: Xatun Plyus, – 2010. – 146 s.
6. Mirabbas Mirbağırov // Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə]. – Bakı: Lider, – c. 2. – 2005. – s. 205-206.
7. Mirbağırov, M. Osmanlı hökumətinin qüdrətli günləri / M.Mirbağırov. – Bakı: Orucov qardaşları, – 1913. – 216 s.
8. Mirbağırov, M. Osmanlı tarixinin mühüm səhifələri / M.Mirbağırov. – Bakı: Orucov qardaşları, – 1913. – 98 s.
9. Mirbağırov, M. Tarix səhifələri. I. İslam sikkələri tarixi. II. Misir ölkəsi və tarixi / M.Mirbağırov. – Bakı: Orucov qardaşları, – 1913. – 79 s.
10. Tahirzadə, Ə. Şəkinin tarixi qaynaqlarda. – Bakı, 2005. Mənbə: https://tahirzade.shaki.info/arxiv/%C5%9F%C9%99kinin-tarixi-qaynaqlarda
11. Tahirzadə, Ə. Şəkinin tarixi qaynaqlarda / Ə.Tahirzadə. – Bakı: Master, – 2005. – 256 s.
12. Zeydan, C. İslamın mədəniyyət tarixi: [5 cilddə] / C.Zeydan, tərc. ed: M. Mirbağırov. – Bakı: M.Ə.Ələkbərov nəşr., – c. I. – 1913. – 256 s.

Məqalənin redaksiyaya daxilolma tarixi: 04.04.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 09.04.2024
Məqalənin çapa qəbul olunma tarixi: 19.04.2024

Məqalə yazma qaydaları

1. Jurnala təqdim edilən məqalələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu tələblərə və Azərbaycan Turizm Menecment Universitetinin qaydalarına cavab verməlidir;
2. Jurnalda çap olunan hər bir məqaləyə Rəqəmsal Obyekt İdentifikatoru (DOI – Digital Object Identifier) təyin olunur ;
3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar göstərilməlidir;
4. Müəllif ORCİD kodunu qeyd etməlidir;
5. Məqalə müəllifinin adı, soyadı, iş yeri, e-mail adresi yuxarıda sağda yazılmalıdır;
6. Azərbayacan dilində olan məqalələrin xülasəsi azərbaycan, ingilis və rus dillərində, rus dilində olan məqalələrin xülasəsi rus, azərbaycan və ingilis dillərində verilməlidir, ingilis dilində olan məqalələrin xülasəsi azərbaycan, ingilis və rus dillərində verilməlidir (minimum 200 söz);
7. Xülasələrin yazıldığı dillərdə açar sözlər verilməlidir;
8. Hər bir xülasədə məqalənin adı, müəllif(lər)in tam adı göstərilməlidir;
9. Məqalə "Giriş", "Mətn" (yarımbaşlıqlara bölmək şərtilə), "Nəticə" və "İstifadə edilmiş ədəbiyyat siyahısı"ndan ibarət olmalıdır;
10. Məqalə "Times New Roman"-da, 12 şriftilə yazılmalı, mətn Microsoft Word proqramında (2003/2007) və A4 kağız formatına görə tərtib edilməlidir;
11. Yuxarıdakı şərtlər nəzərə alınmaqla məqalələr 7-12 səhifə həcmində olmalıdır;
12. Məqalənin yazılışı zamanı iddiaçı istifadə etdiyi materialların mənbələrinə və müəlliflərinə mütləq istinad etməlidir. Mətndəki istinaddan sonra kvadrat mötərizədə əsərin ədəbiyyat siyahısındakı nömrəsi, cild (çoxcildli əsərlər üçün) və müvafiq səhifə(lər) verilir. Məsələn, [54, s.162], [155, c.2, s.82-83], [54, s.162; s.23], və s. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin tələbləri əsas götürülməlidir. "İstifadə edilmiş ədəbiyyat" siyahısında qeyd edilənlər aşağıdakı nümunələrdə göstərilən qaydada verilməlidir:

    Kitabın təsviri: Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.

    Jurnal məqaləsi: Həbibbəyli, İ.Ə. Maarifçilik və realizm // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. №1, – s. 3-10.

    Konfrans, simpozium və digərləri: Gatys, L.A., Ecker, A.S., Bethge, M. Image style transfer using convolutional neural networks // IEEE Conference on Computer Vision and Pattern Recognition. Las Vegas, Nevada, USA, – 2016, – p. 2414-2423.

    Dissertasiyalar və avtoreferatlar: Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 151 s.

Arxiv mənbələri: Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1.

Qəzet mənbələri: Abdullayev, F. Azərbaycanı Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il keçir // Respublika. – 2019, 9 noyabr. – s. 2.

Müəlliflik şəhadətnamələri və patentlər: Səfərov, A.R., 1,4 – Butandiolun alınma üsulu, İxtira i2017 0005, Azərbaycan Respublikası / Əliyev A.M., Əliyev F.V., Mətiyev K.İ. [və b.].

İnternet mənbələri: Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm.

Mənbə: https://aak.gov.az/single/492

13. Ədəbiyyatlara istinad edərkən son 10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir. Mətndə istifadə edilməyən mənbələr "İstifadə edilmiş ədəbiyyat" hissəsində göstərilməməlidir;
14. Əvvəllər çap olunmuş əlyazmaların jurnala təqdim edilməsi yolverilməzdir;
15. Elmi dərəcəsi olan müəlliflər istisna olmaqla, hər məqalə üçün müvafiq elm sahəsi üzrə elmlər doktorunun rəyi təqdim edilməlidir;
16. Məqalələr redaksiyanın aşağıdakı elektron ünvanına (th.journal@atmu.edu.az) göndərilməlidir;
17. Jurnala məqalə il ərzində mütəmadi olaraq 4 dildə -Azərbaycan, Türk, İngilis və Rus dillərində qəbul edilir.
18. Jurnal ildə 4 dəfə olmaqla-**yanvar, aprel, iyul və oktyabr** aylarında çap olunur. Jurnalın elektron versiyasını(http://atmu.edu.az/az/arxiv) universitetin saytından əldə etmək olar.

Guidelines for articles

1 The articles submitted to the journal must meet the requirements set by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for periodical scientific publications and the rules of Azerbaijan Tourism Management University;
2 Digital Object Identifier (DOI - Digital Object Identifier) is assigned to each article published in the journal;
3 UOT indexes or PACS type codes must be indicated on each article;
4 The author must record the ORCID code;
5 The name, surname, workplace, e-mail address of the author of the article should be written on the upper right;
6 Abstracts of articles in Azerbaijani language should be given in Azerbaijani, English and Russian languages, abstracts of articles in Russian language should be given in Russian, Azerbaijani and English languages, abstracts of articles in English should be given in Azerbaijani, English and Russian languages (minimum 200 words);
7 Key words should be given in the languages in which summaries are written;
8 Each abstract must include the title of the article, the full name of the author(s);
9 The article should consist of "Introduction", "Text" (provided it is divided into sub-headings), "Conclusion" and "Reference list";
10 The article should be written in "Times New Roman", 12 font, the text should be compiled in Microsoft Word program (2003/2007) and A4 paper format;
11 Taking into account the above conditions, articles should be 7-12 pages long;
12 When writing the article, the claimant must refer to the sources and authors of the materials used. The reference in the text is followed by the number in the bibliography of the work, the volume (for multivolume works), and the corresponding page(s) in square brackets. For example, [54, p.162], [155, c.2, p.82-83], [54, p.162; p. 23], etc. When providing a bibliographic description of the cited source, the requirements of the "Referenced literature" section of the current instruction of the High Attestation Commission under the President of the Republic of Azerbaijan on the "Rules of

Dissertations" should be taken as a basis. What is mentioned in the list of "used literature" should be given in the order shown in the following examples:

Book: Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.

Journal: Həbibbəyli, İ.Ə. Maarifçilik və realizm // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. №1, – s. 3-10.

Conference, symposium and others: Gatys, L.A., Ecker, A.S., Bethge, M. Image style transfer using convolutional neural networks // IEEE Conference on Computer Vision and Pattern Recognition. Las Vegas, Nevada, USA, – 2016, – p. 2414-2423.

Dissertations and abstracts: Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 151 s.

Archival sources: Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1.

Newspaper sources: Abdullayev, F. Azərbaycanı Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il keçir // Respublika. – 2019, 9 noyabr. – s. 2.

Copyright certificates and patents: Səfərov, A.R., 1,4 – Butandiolun alınma üsulu, İxtira i2017 0005, Azərbaycan Respublikası / Əliyev A.M., Əliyev F.V., Mətiyev K.İ. [və b.].

Internet sources: Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm.

Source: https://aak.gov.az/single/492

13 When citing literature, scientific articles, monographs and other reliable sources of the last 10 years should be preferred. Sources not used in the text should not be indicated in the "Literature used" section;

14 Submission of previously published manuscripts to the journal is not allowed;

15 Except for authors with a scientific degree, the opinion of a doctor of science in the relevant field of science must be submitted for each article;

16 Articles should be sent to the following e-mail address of the editorial office (th.journal@atmu.edu.az);
17 Articles to the journal are regularly accepted throughout the year in 4 languages - Azerbaijani, Turkish, English and Russian.
18 The journal is published 4 times a year - in January, April, July and October. The electronic version of the journal (http://atmu.edu.az/az/arxiv) can be obtained from the university's website.

“BİROL GROUP” MMC
Çapa imzalanmışdır: 29.04.2024-cü il
Kağız formatı 70x100 1/16

Tiraj: 100.